RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 218 (10238) 26 noyabr 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

Azərbaycan ilə Litva arasında strateji tərəfdaşlıq münasibətləri uzun illərdir uğurla inkişaf edir

Prezident İlham Əliyev Litvanın xarici işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 25-də Litva Respublikasının xarici işlər naziri Kestutis Budrisi qəbul edib.



AZƏRTAC xəbər verir ki, Kestutis Budris Litva Prezidenti Gitanas Nausedanın salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Litva Prezidentinə çatdırmağı xahiş edib.

Dövlətimizin başçısı bir müddət əvvəl Dublində "Avropa Siyasi Birliyi"nin Zirvə Toplantısı çərçivəsində Litva Prezidenti Gitanas Nauseda ilə görüşünü, eləcə də Litvanın Baş naziri Mindauqas Sinkeviçyusla telefon danışığını məmnunluqla xatırlayıb.

2

Güclü dövlət, ədalətli hüquq sistemi, fəal vətəndaş cəmiyyəti

MİLLİ İNKİŞAF STRATEGİYASININ ƏSAS İSTİQAMƏTLƏRİDİR



Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə vətəndaş cəmiyyəti institutlarının dəstəklənməsi və onların dövlət idarəçiliyində iştirak imkanlarının genişləndirilməsi istiqamətində yeni mexanizmlər formalaşmışdır. 2013-cü ildə qəbul edilmiş "İctimai iştirakçılıq haqqında" qanun bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Qanun ictimai şuraların yaradılması, ictimai dinləmələrin və müzakirələrin keçirilməsi, ictimai rəyin öyrənilməsi, qanun layihələrinin müzakirəsində vətəndaşların iştirakı üçün hüquqi imkanlar müəyyənləşdirmişdir.

Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının inkişafı və dövlətlə qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi istiqamətində də mühüm addımlar atılmışdır. Bunlardan biri Prezident İlham Əliyevin 2007-ci il 13 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması olmuşdur. Şuranın təsis edilməsi QHT-lərin fəaliyyətinin dəstəklənməsi, ictimai əhəmiyyətli layihələrin maliyyələşdirilməsi, vətəndaş təşəbbüslərinin təşviqi və dövlət-cəmiyyət münasibətlərinin inkişafı üçün yeni imkanlar yaratmışdır. Prezident İlham Əliyevin 2021-ci il 19 aprel tarixli fərmanı ilə sözügedən şuranın əsasında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi yaradılmışdır. Həyata keçirilən bu tədbirlər vətəndaş cəmiyyətinin inkişafının dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirilməsini, qeyri-hökumət təşkilatlarının ictimai həyatda rolunun artırılmasına və onların potensialının milli inkişaf proseslərinə yönəldilməsinə verilən əhəmiyyəti nümayiş etdirir. Prezident İlham Əliyev 2024-cü ilin fevralında keçirilən andiçmə mərasimindəki proqram xarakterli çıxışında da Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı istiqamətində ardıcıl addımların davam etdiriləcəyini xüsusi vurğulamışdır.

7



MƏĞLUBİYYƏTİN ETİRAFI VƏ TƏSDİQİ

Bu gün Ermənistanda və dünyanın müxtəlif yerlərində yaşayan erməni bloqçular, şərhçilər, politoloqlar və daha kimlər özlərinə bəraət qazandırmaq və Zəfərimizi gözdən salmaq üçün hər bir hərzə-hədyan danışa, hər yalanı uydura bilərlər.

Erməni yalan deməsə, nəsə uydurmasa, erməni olmaz ki...

Amma məğlub ermənilərin, onların müdafiəçilərinin və havadarlarının nə deməsindən asılı olmayaraq, biz qarşı-qarşıya döyüşdə düşməni darmadağın edən qaliblərik!

* Biz möhtəşəm Zəfərə nail olanlarıq!

* Biz döyüşərək öz torpaqlarımızı geriyə qaytaranlarıq!

* Biz Qarabağ münaqişəsinə "dəmir yumruq"la əbədi son qoyanlarıq!

* Biz Qarabağı və Şərqi Zəngəzuru yenidən tikib quranlar, cənnətə çevirənlərik!

* Biz düşmənə öz məğlubiyyətini qəbul etdirənlərik!

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Zəfər Günü münasibətilə Azərbaycan xalqına təbrikində dediyi kimi:

"44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Biz haqlı olaraq bu Zəfərlə fəxr edirik. Bütün Azərbaycan xalqı fəxr edir. Gələcək nəsillər də fəxr edəcəklər. Bu şanlı tarix bizim qəlbimizdə əbədi yaşayacaq".

Azərbaycanın bu möhtəşəm qələbəsi təkcə Ermənistan üzərində çalınan Zəfər qələbəsi deyil!

Həm də ermənilərin müdafiəçiləri və havadarları üzərindəki qələbədir!

* Dünya erməniliyi üzərində qələbədir!

* Erməni diasporları üzərində qələbədir!

* İflic vəziyyətinə salınan beynəlxalq hüquq üzərində qələbədir!

* Azərbaycana qarşı ədalətsiz mövqe tutan beynəlxalq qurumlar üzərində qələbədir!

* Sonadək dişsiz, fərsiz və riyakar mövqedə dayanan ATƏT-in Minsk qrupu üzərində qazanılan qələbədir!

* Müstəqil dövlətin, qürurlu və qəhrəman xalqın forpost, satellat dövlət üzərində qazandığı qələbədir!

Azərbaycanın Qarabağ münaqişəsinin uğurlu həllinə nail olmasını və torpaqlarını işğaldan azad etməsini istəməyənlər də vardı...

Belələri nəinki münaqişənin sülh yolu ilə çözümünü istəyirdilər, əksinə, ədalətin və beynəlxalq hüququn bərpasına müxtəlif üsul və vasitələrlə əngəl törədirdilər.

Üstəlik, aşkar və gizli şəkildə, müxtəlif formada Ermənistana dəstək də verirdilər.

Məqsədləri əlverişli geosiyasi mövqeyə və zəngin təbii sərvətlərə malik Azərbaycana təsir imkanlarını qoruyub saxlamaq idi.

Münaqişənin dondurulmuş vəziyyətdə, yaxud Ermənistanın ərazi iddialarının təmini əsasında həllini istəyənlər də çox idi.

Ən əvvəl Rusiya Cənubi Qafqazda üstünlüyü qoruyub saxlamaq üçün münaqişədə birtərəfli, ermənipərəst mövqe tuturdu.

Hətta SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçov Qarabağı ermənilərə hədiyyə edəcəyinə söz də vermişdi.

Rusiyanın sonrakı dövlət başçıları da dəfələrlə Ermənistana dəyəri bir milyard dollardan artıq olan silah-sursat bağışladılar.

Sözdə münaqişəni sülh danışıqları yolu ilə həll edəcəyini bildirən və məxsusi bu məqsədlə yaradılan ATƏT-in Minsk qrupunun əsl məqsədi isə danışıqları acı bağırsaq kimi uzatmaqla işğalı əbədiliyə çevirmək idi.

Hər cür hərbi, siyasi və diplomatik imkanlara malik ATƏT-in həmsədr dövlətləri isə daha çox ermənilərə kömək barədə düşünürdülər.

6

Azərbaycan-ABŞ əlaqələri ən yüksək səviyyədədir

İki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq müstəvisində inkişaf edir



ABŞ Prezidenti Donald Trampın təşəkkür mesajına cavab verən Prezident İlham Əliyev də "X" hesabında Bakının bu təşəbbüsə dəstəyini bir daha vurğulayıb: "Əziz Prezident Donald Tramp, "Trump Route for International Peace and Prosperity" (TRIPP) layihəsinin işə salınması münasibətilə mənə ünvanladığınız xoş sözlərə görə səmimi təşəkkürümü bildirmək istəyirəm".

TRIPP layihəsi təkcə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa quru əlaqəsini təmin etməklə kifayətlənmir. Bu marşrut Çin və Mərkəzi Asiyadan başlayaraq, Xəzər dənizi və Cənubi Qafqaz üzərindən Avropaya uzanan Orta dəhlizin ötürücülük qabiliyyətini artırır. Eyni zamanda avtomobil və dəmir yolları ilə yanaşı, enerji və fiber-optik rabitə xətlərinin çəkilməsi dənizə çıxışı olmayan region ölkələri üçün yeni ticarət və investisiya imkanları formalaşdırır.

8

Regionun əsas logistika mərkəzi

Azərbaycan uğurlu diplomatiyası və müasir nəqliyyat infrastrukturu ilə Avrasiyanın ticarət xəritəsini yenidən formalaşdırır



Orta dəhlizin səmərəliliyinin artırılması həm də marşrutboyu yerləşən ölkələr arasında sıx koordinasiya tələb edir. Azərbaycan bu istiqamətdə Mərkəzi Asiya respublikaları, Gürcüstan, Türkiyə və Çin ilə ikitərəfli və çoxtərəfli formatlarda fəal əməkdaşlıq edərək vahid tarif siyasətinin tətbiqinə, gömrük prosedurlarında "bir pəncərə" prinsipinin genişləndirilməsinə nail olur. Xəzər dənizində ən böyük ticarət donanmasına sahib olan ölkəmiz yeni nəsil bərələrin və quru yük gəmilərinin inşasını davam etdirməklə dəniz daşımalarındakı dar boğazları aradan qaldırır və dəhlizin etibarlılığını beynəlxalq tərəfdaşlar üçün daha da cəlbedici edir.

Orta dəhlizlə bağlı strateji baxış təkcə yüklərin ölkəmizin ərazisindən tranzit keçidini təmin etməklə məhdudlaşmır. Rəsmi Bakı bu dəhlizi yüksək əlavə dəyər yaradan, inteqrasiya olunmuş və intellektual iqtisadi kəmər kimi formalaşdırmağı hədəfləyir.

8

"Sabit neft hasilatı təmin edilməlidir"

Prezident İlham Əliyevin bu tələbinin bir şərti də qazma qurğularının məhsuldarlığının yüksək olmasıdır

Bu il "Dərinsulu Günəşli" ərazisində çoxquyulu sualtı müdaxilə əməliyyatları platformadan deyil, "Xankəndi" sualtı tikinti gəmisi vasitəsilə həyata keçirilib. Belə olduqda platformadakı qazma qurğusundan daha səmərəli istifadə etmək və daha çox qazma işləri həyata keçirmək imkanı yaranır.



Bu proses haqqında aydın təsəvvür yaratmaq üçün qeyd edək ki, sualtı müdaxilə işlərinin icrası üçün BP-nin Xəzərdəki əməliyyatlarında ilk dəfə quyuya dikborusuz yüngül müdaxilə (QDYM) texnologiyası tətbiq olunub. "Blue Ocean" dikborusuz müdaxilə sistemi (BORİS) kimi tanınan bu texnologiya "Oceaneering International" şirkətinin sualtı mexaniki tros vasitəsilə quyuya müdaxilə sistemidir.

5

Azərbaycan ilə Litva arasında strateji tərəfdaşlıq münasibətləri uzun illərdir uğurla inkişaf edir

Prezident İlham Əliyev Litvanın xarici işlər nazirini qəbul edib



Əvvəli 1-ci səh.

Azərbaycan ilə Litva arasında strateji tərəfdaşlıq münasibətlərinin uzun illərdir uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev enerji təhlükəsizliyi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğunu qeyd edib və nazirin səfərini bu baxımdan vacib addım kimi qiymətləndirib.

Kestutis Budris səfər çərçivəsində "Azərbaycan Respublikası və Litva Respublikası arasında Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin imzalanacağını bildirib, iqtisadiyyat, ticarət və nəqliyyat sahələrində əlaqələrin dərinləşdirilməsinin vacibliyini vurğulayıb.

Nazir Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsində əldə olunan uğurlar münasibətilə Prezident İlham Əliyevi təbrik edib.

Təbrikə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Azərbaycanın regionda sülhün möhkəmləndirilməsi istiqamətində səylərini davam etdirəcəyini vurğulayıb.

Prezident İlham Əliyev münasibətlərin normallaşması fonunda Azərbaycanla Ermənistan arasında iqtisadi və ticari əlaqələrin qurulduğunu, üçüncü ölkələrdən Ermənistana və Ermənistandan üçüncü ölkələrə yüklərin Azərbaycan ərazisindən tranzitlə daşınması üçün imkanların yaradıldığını qeyd edib. Dövlətimizin başçısı son bir il ərzində Azərbaycan ərazisindən Ermənistana 100 min tondan artıq yükün daşındığını bildirib.

Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərindən danışılarkən qeyd olunub ki, həm Birinci Qarabağ müharibəsi dövründə, həm də 2020-2023-cü illərdə basdırılmış minalar bu işlərə mane olur və insanların həyatı üçün ciddi təhlükə yaradır.

Kestutis Budris Litvanın 2027-ci il yanvarın 1-dən Avropa İttifaqı Şurasına sədrlik edəcəyini bildirərək ölkəsinin Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişafına dəstəyini davam etdirəcəyini vurğulayıb. O, Litvanın Azərbaycanın NATO ilə əlaqələrinin genişləndirilməsini də dəstəklədiyini qeyd edib.

Prezident İlham Əliyev qarşıdakı sədrlik münasibətilə təbriklərini çatdırıb, bu il Avropa İttifaqı rəhbərliyinin ölkəmizə səfərlərini və Dublin Sammiti çərçivəsində keçirilən görüşləri xatırlayıb. Azərbaycanın Avropa İttifaqına üzv 10 ölkə ilə ikitərəfli strateji tərəfdaşlıq sənədlərinin olduğunu qeyd edən dövlətimizin başçısı Litva ilə münasibətlərin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı üçün də əlverişli mühit yaratdığını bildirib.

Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqazda və Xəzər regionunda bağlantı layihələrinin təşəbbüskarı olduğunu vurğulayıb.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında ticarət dövriyyəsi, eyni zamanda Azərbaycan ilə Litva arasında müxtəlif sahələrdə, o cümlədən energetika və bərpaolunan enerji sahələrində əməkdaşlığın genişləndirilməsi perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

İxracda hesablaşmaların tənzimlənməsi ilə bağlı əlavə tədbirlər və Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ixracda hesablaşmaların aparılma qaydalarının təkmilləşdirilməsi və hesablaşmalara nəzarət prosedurlarının optimallaşdırılması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. ixrac olunan malların müqabilində əldə edilən vəsaitin ixracatçıların Azərbaycan Respublikasındakı müvəkkil bankda olan hesablarına köçürülməsi qaydalarının pozulmasına görə məsuliyyətin təkmilləşdirilməsi barədə təkliflərini bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulan qaydalar qüvvəyə mindiyi tarixdən doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırmaqla, xarici ölkələrə malların ixracı ilə bağlı hesablaşmaların aparılma qaydalarına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim etsin.

3. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki, "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsinin 2-ci hissəsinin "b" və "q" bəndlərinə uyğun olaraq, bu Fərmanın 2-ci hissəsinə əsasən təqdim olunan təkliflər nəzərə alınmaqla, xarici ölkələrə malların ixracı ilə bağlı hesablaşmaların aparılma qaydalarını dörd ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 175 (Cild I); 2024, № 6 (I kitab), maddə 647, № 9, maddə 1001; 2026, № 1, maddə 28, № 3, maddə 226, № 8, maddə 799) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. preambulaya aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Bu Qaydalarda istifadə olunan anlayışlar gömrük qanunvericiliyində müəyyən olunmuş mənaları ifadə edir.";

4.2. 11.1-ci bənddə "xarici şəxslərlə" sözləri "qeyri-rezidentlərlə" sözü ilə əvəz edilsin;

4.3. 12-ci hissə üzrə:

4.3.1. 12.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"12.1. Şəxslər tərəfindən xarici ölkələrə mal ixracı ilə bağlı hesablaşmalar "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) müəyyən etdiyi qaydalara uyğun olaraq aparılır.";

4.3.2. 12.2-ci bənd ləğv edilsin;

4.3.3. 12.3-cü və 12.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"12.3. İxrac olunan malların müqabilində əldə edilmiş vəsaitin Azərbaycan Respublikasına köçürülməsinə və gətirilməsinə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi nəzarət edir. Bu məqsədlə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bütün ixracatçılar tərəfindən gömrük bəyannamələri və ixrac müqavilələri də daxil olmaqla, ixrac olunan mallar barədə aidiyyəti məlumatların "İntellektual gömrük" informasiya sistemi (bundan sonra - İGİS) vasitəsilə müvəkkil banklara ötürülməsini təmin edir.

12.4. Müvəkkil banklar ixrac müqavilələri üzrə ixrac olunan malların müqabilində əldə edilmiş vəsaitin şəxslərin müvəkkil bankdakı hesablarına daxil olması, habelə vaxtında köçürülməməsi barədə məlumatı 3 (üç) iş günü ərzində İGİS vasitəsilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə ötürürlər.";

4.3.4. 12.5-ci və 12.6-cı bəndlər ləğv edilsin;

4.4. 15.2-ci bəndə "Bank" sözündən sonra" (xarici ticarət əməliyyatları üzrə malların idxalına münasibətdə) "sözləri, ikinci halda "Komitəsi" sözündən sonra "(xarici ticarət əməliyyatları üzrə malların ixracına münasibətdə)" sözləri əlavə edilsin.

5. Bu Fərmanın 4-cü hissəsi bu Fərmanın 3-cü hissəsində nəzərdə tutulmuş qaydalarla eyni gündə qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 noyabr 2026-cı il

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Beynəlxalq Meşə Təlim və Tingçilik Mərkəzi"nin yaradılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında meşə təsərrüfatının və tingçiliyin inkişaf etdirilməsi, meşə ehtiyatlarının dayanıqlı idarə olunması və meşəçilik sahəsində kadr potensialının gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində büdcə təşkilatı qismində "Beynəlxalq Meşə Təlim və Tingçilik Mərkəzi" (bundan sonra - Mərkəz) yaradılsın.

2. Müəyyən edilsin ki, Mərkəz meşəçilik sahəsində təlimlərin təşkili və keçirilməsi, meşə bitkilərinin toxum gen bankının yaradılması və idarə edilməsi, toxum nümunələrinin qorunub saxlanılması, habelə meşə bitkiləri tinglərinin yetişdirilməsi ilə məşğul olan büdcə təşkilatıdır.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. iki ay müddətində:

3.1.1. "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının 3.7-ci bəndi nəzərə alınmaqla, Mərkəzin işçilərinin say həddini və vəzifə maaşlarını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.2. Mərkəzin maddi-texniki təminatı ilə bağlı tədbirlər görülməsini təmin etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

4.1. Mərkəzin nizamnaməsini və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla strukturunu iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Mərkəzin fəaliyyətinin maliyyələşdirilməsini dövlət büdcəsinin vəsaiti hesabına təmin etsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 noyabr 2026-cı il

Hikmət Çətinin ailəsinə

Türkiyə Respublikasının görkəmli dövlət və ictimai-siyasi xadimi Hikmət Çətinin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Hikmət Çətin Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında münasibətlərin inkişafına, qardaşlıq əlaqələrimizin möhkəmlənməsinə böyük töhfə vermişdir. Onunla görüşlərimi həmişə ən xoş təəssüratlarla xatırlayacağam.

Bu ağır anlarda dərdinizə şərik çıxır, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 noyabr 2026-cı il

Litvanın xarici işlər nazirinə Azərbaycan-Ermənistan normallaşma prosesi barədə məlumat verilib

Litvanın xarici işlər naziri Kestutis Budris Bakıya səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, nazirlər Azərbaycan-Litva münasibətlərinin mövcud vəziyyəti və perspektivləri ətrafında geniş müzakirələr apararaq, qarşılıqlı hörmət, siyasi dialoq və ortaq maraqlar əsasında ikitərəfli əməkdaşlığın daha da gücləndirilməsində ortaq marağı təsdiqləyiblər.

Nazirlər münasibətlərin inkişafında yüksəksəviyyəli təmasların əhəmiyyətini, o cümlədən Dublin şəhərində keçirilən "Avropa Siyasi Birliyi" Sammiti çərçivəsində Azərbaycan və Litva prezidentləri arasında baş tutmuş son görüşü vurğulayıblar. Həmçinin davamlı dialoqun qorunub saxlanılmasında müntəzəm siyasi məsləhətləşmələrin və parlament diplomatiyasının rolunu qeyd ediblər.

İqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinə, biznes subyektləri arasında əlaqələrin gücləndirilməsinə və yeni investisiya imkanlarının araşdırılmasına xüsusi diqqət yetirilib. Kənd təsərrüfatı, energetika, sənaye, İKT, rəqəmsal idarəetmə, kibertəhlükəsizlik və innovasiyalar daha dərin əməkdaşlıq üçün perspektivli sahələr kimi müəyyən edilib. Litva şirkətlərinin Azərbaycanın sənaye parklarında və Ələt Azad İqtisadi Zonasında daha fəal iştirak imkanları da vurğulanıb.

Humanitar, təhsil və mədəni əlaqələr, o cümlədən Litvada təhsil alan azərbaycanlı tələbələrin töhfəsi, turizmin təşviqi və xalqlararası təmasların genişləndirilməsi imkanları da müzakirələrdə mühüm yer tutub.

Azərbaycan-Avropa İttifaqı münasibətləri kontekstində Litvanın 2027-ci ilin birinci yarısında Avropa İttifaqı Şurasına qarşıdakı sədrliyi ilə bağlı perspektivlər ətrafında fikir mübadiləsi aparılıb.

Bundan əlavə, beynəlxalq təşkilatlar və çoxtərəfli platformalar çərçivəsində namizədlərin irəli sürülməsi və qarşılıqlı dəstəklənməsi məsələlərində koordinasiyanın vacibliyi vurğulanıb.

Ceyhun Bayramov münaqişədən sonrakı reallıqlar və Ermənistanla Azərbaycan arasında davam edən normallaşma prosesi, eləcə də azad edilmiş ərazilərdə infrastrukturun və yaşayış məntəqələrinin bərpası istiqamətində görülən işlər barədə məlumat verib.

Baş nazir Əli Əsədov Gürcüstanın Baş nazirinin müavini ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 25-də Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Maka Boçorişvili ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin mehriban qonşuluq və strateji tərəfdaşlıq ruhunda ardıcıl şəkildə möhkəmləndiyi qeyd olunub.

Son dövrdə qarşılıqlı səfər və görüşlərin intensivləşməsi ikitərəfli əlaqələrin yüksək səviyyəsinin, eləcə də əməkdaşlığın daha da genişləndirilməsinə qarşılıqlı marağın göstəricisi kimi dəyərləndirilib.

Görüş zamanı ticarət-iqtisadi, investisiya, nəqliyyat-tranzit, enerji, humanitar və digər sahələrdə qarşılıqlı fəaliyyətin mövcud vəziyyəti və inkişaf perspektivləri nəzərdən keçirilib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Vahid təqvim planına uyğun olaraq keçirilən ölkə və beynəlxalq kütləvi bədən tərbiyəsi və idman tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları və Normaları"nın təsdiq edilməsi haqqında" 2007-ci il 18 yanvar tarixli 8 nömrəli və "Ölkə və beynəlxalq miqyaslı bədən tərbiyəsi və idman tədbirlərinin, Vahid təqvim planına daxil edilmiş bədən tərbiyəsi tədbirlərinin və idman yarışlarının maliyyələşdirilməsi Qaydaları və bu tədbirlərin təşkili və keçirilməsinə ayrılan xərclərin Normaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 5 yanvar tarixli 2 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 393 **Bakı şəhəri, 25 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Vahid təqvim planına uyğun olaraq keçirilən ölkə və beynəlxalq kütləvi bədən tərbiyəsi və idman tədbirləri üçün vəsaitlərin xərclənməsi Qaydaları və Normaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 18 yanvar tarixli 8 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 52 (Cild I) 1-ci və 2-ci hissələri ləğv edilsin.

2. "Ölkə və beynəlxalq miqyaslı bədən tərbiyəsi və idman tədbirlərinin, Vahid təqvim planına daxil edilmiş bədən tərbiyəsi tədbirlərinin və idman yarışlarının maliyyələşdirilməsi Qaydaları və bu tədbirlərin təşkili və keçirilməsinə ayrılan xərclərin Normaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 5 yanvar tarixli 2 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 1, maddə 48 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və 1-ci hissədə "Ölkə" sözü "Respublika" sözü ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

"1-1. Bu Qərarın icrası ilə bağlı tələb olunan xərclərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.";

2.3. həmin Qərarla təsdiq edilmiş "Ölkə və beynəlxalq miqyaslı bədən tərbiyəsi və idman tədbirlərinin, Vahid təqvim planına daxil edilmiş bədən tərbiyəsi tədbirlərinin və idman yarışlarının maliyyələşdirilməsi Qaydaları və bu tədbirlərin təşkili və keçirilməsinə ayrılan xərclərin Normaları" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

3. Bu Qərar 2027-ci il yanvarın 1-dən qüvvəyə minir.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.

"Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı"nın və "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 87 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 391 **Bakı şəhəri, 24 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı"nın və "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 may tarixli 87 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 5, maddə 454 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı" üzrə:

1.1. "KONSULTASİYALAR*" bölməsi üzrə:

1.1.1. birinci sətir aşağıdakı redaksiyada verilsin:

Endokrinoloq	3 ayda 1 dəfə	3 ayda 1 dəfə	ayda 1 dəfə

1.1.2. ikinci sətrin "İllik tibbi yardım" sütununda "Okulist" sözü "Oftalmoloq" sözü ilə əvəz edilsin;

1.1.3. aşağıdakı məzmunda beşinci sətir əlavə edilsin:

Ümumi cərrah	ildə 1 dəfə	ildə 1 dəfə	ildə 1 dəfə

1.2. "İNSULİN VƏ DİGƏR ŞƏKƏRSALICI DƏRMAN PREPARATLARI, İNYEKSİYA VASİTƏLƏRİ, ÖZÜNƏNƏZARƏT VASİTƏLƏRİ" bölməsi aşağıdakı redaksiyada verilsin:

İNSULİN VƏ DİGƏR ŞƏKƏRSALICI DƏRMAN PREPARATLARI, İNYEKSİYA VASİTƏLƏRİ			
İnsulin (bazal - 40% və ya 50%; Bolyus - 50% və ya 60% ehtiyaca uyğun)	Həkim təyinatına və klinik göstərişlərə əsasən gündəlik maksimal 80 vahidədək (pubertat dövründə olan uşaqlar üçün tələbata uyğun maksimal 100 vahidədək) ****	Tələb olunmur	Kombinə olunmuş terapiyada gündəlik 40 vahid insulin, həkim təyinatına və klinik göstərişlərə əsasən gündəlik maksimal 80 vahidədək
Şəkərsalıcı həblər: Sulfanilsidik cövhəri törəmələri Biquanidlər SGLT 2 inhibitorları Kombinə edilmiş preparatlar	Tələb olunmur	Gündə 3 həbədək	Gündə 2 həb hesabı ilə ildə 730 həb
GLP 1 reseptor aqonistləri	Tələb olunmur	Endokrin sistem xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikası üzrə ixtisaslaşmış dövlət tibb müəssisələrinin rəyi əsasında həkim təyinatına və klinik göstərişlərə əsasən	Həkim təyinatına və klinik göstərişlərə əsasən
Birdəfəlik insulin şprisi: (insan insulini alanlar üçün) və insulin qələmləri üçün ucluq	Birdəfəlik insulin şprisi - illik 144 ədəd İnsulin qələmləri üçün ucluq - böyüklər üçün illik 365, 0 -18 uşaqlar üçün illik 730 ədəd	Tələb olunmur	Birdəfəlik insulin şprisi - illik 144 ədəd İnsulin qələmləri üçün ucluq - illik 365 ədəd

1.3. "ÖZÜNƏNƏZARƏT VASİTƏLƏRİ" bölməsi aşağıdakı redaksiyada verilsin:

ÖZÜNƏNƏZARƏT VASİTƏLƏRİ			
Qlükometrlər	3 ildə 1 dəfə*****	3 ildə 1 dəfə*****	3 ildə 1 dəfə*****
Qanda şəkəri təyin etmək üçün test- stripləri (1 qutuda 50 ədəd)	ayda 1 qutu	2 ayda 1 qutu	ayda 1 qutu
Davamlı qlükoza monitorinq cihazları (CGMs)	İstifadə olunan cihazın rəsmi yaş icazəsindən asılı olaraq 3 - 18 yaşlı uşaqlar üçün ayda 2 sensor olmaqla	Tələb olunmur	Tələb olunmur
İnsulin pompası	Aşağı doza insulinə ehtiyac olan 0 - 7 yaşlı uşaqlara həkim təyinatına əsasən	Tələb olunmur	Tələb olunmur
İnsulin pompasının məsrəfləri	Dövlət tərəfindən insulin pompası ilə təmin edilmiş şəxslər	Tələb olunmur	Tələb olunmur

1.4. "***Böyrək çatışmazlığında - ehtiyac olduqda." hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

"**** Şəkərli diabet tip 1 xəstələrdə insulinə olan gündəlik tələbat sabit olmayıb, xəstənin yaşı, bədən çəkisi, böyümə mərhələsi, hormonal dəyişikliklər və qlükoza göstəricilərindən birbaşa asılı olaraq dəyişir. Müasir tibbi yanaşmalara əsasən insulin terapiyası fərdiləşdirilməli (1-2 vahid/kq), yalnız həkim təyinatına və klinik göstərişlərinə əsasən tənzimlənməlidir.

***** Qlükometrlər istifadə müddətinə görə 3 ildən bir yenilənməlidir. Əgər yeni verilən cihazla bağlı istifadə zamanı nasazlıq yaranarsa, onu verən tibb müəssisəsi tərəfindən araşdırılaraq yenisi ilə əvəzlənməlidir.".

2. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydası" üzrə:

2.1. 1-ci hissəyə "müalicə-profilaktika müəssisəsinin" sözlərindən sonra "(ərazi poliklinikasının)" sözləri əlavə edilsin, "endokrinoloji dispanserində" sözləri "endokrin sistem xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikası üzrə ixtisaslaşmış dövlət tibb müəssisələrində (bundan sonra - endokrinoloji mərkəz)" sözləri ilə və "qeydiyyata" sözü "uçota" sözü ilə əvəz edilsin;

2.2. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təmin edilməsi məqsədilə onlara yaşadığı ərazi üzrə müalicə-profilaktika müəssisəsinin (ərazi poliklinikasının və ya rayon xəstəxanasının) ailə həkimi (sahə həkimi-terapevt və ya sahə həkimi-pediatr) tərəfindən endokrinoloqun təyin etdiyi müalicə sxeminə uyğun olaraq ayda 1 (bir) dəfə elektron sənəd formasında tərtib edilən resept (bundan sonra - resept) yazılır.";

2.3. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

"2-1. Resept tərtib edilərkən şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin sağlamlıq vəziyyətində dəyişiklik və ya şikayət müəyyən edildikdə ailə həkimi (sahə həkimi-terapevt və ya sahə həkimi-pediatr) tərəfindən həmin şəxslər ixtisaslaşdırılmış tibbi xidmətin göstərilməsi üçün endokrinoloqa göndərilir.";

2.4. 3-cü hissədə "nüsxəsində yazılır" sözləri "əsasında verilir" sözləri ilə əvəz edilsin;

2.5. 5-ci hissədə "müalicə-profilaktika müəssisəsinin (endokrinoloji dispanser və ya ərazi poliklinikası) müqavilə bağladığı aptek" sözləri "endokrinoloji mərkəzin aptek bölməsi, habelə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin müəyyən etdiyi siyahıda nəzərdə tutulan dövlət tibb müəssisələrində təşkil edilmiş aptek məntəqələri" sözləri ilə əvəz edilsin;

2.6. 6-cı hissədə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi üçün nəzərdə tutulmuş vəsait" sözləri "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari tibb sığorta fondunun vəsaiti" sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Özbəkistan Ali Məclisinin nümayəndə heyəti Azərbaycana səfərə gəlib

Noyabrın 25-də Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayevanın başçılıq etdiyi parlament nümayəndə heyəti İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunda iştirak etmək üçün ölkəmizə işgüzar səfərə gəlib.

Bu barədə Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.



"Azərbaycan"

Özbəkistan Ali Məclisinin nümayəndə heyəti Fəxri xiyabanı ziyarət edib





Ölkəmizdə səfərdə olan Özbəkistan parlamentinin nümayəndə heyəti noyabrın 25-də Fəxri xiyabanı ziyarət edib.

Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva və nümayəndə heyətinin üzvləri Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib-lər, məzarı önünə əklil qoyub və gül dəstələri düzüblər.

Qonaqları Milli Məclis Sədrinin müavini Musa Qasımlı müşayiət edib.

"Azərbaycan"

Özbəkistan parlament nümayəndə heyəti Zəfər abidəsini ziyarət edib

Milli Məclisdə keçirilən İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan Özbəkistan parlamentinin nümayəndə heyəti noyabrın 25-də Zəfər abidəsini ziyarət edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayevanın başçılıq etdiyi nümayəndə heyəti Zəfər parkına gələrək Zəfər abidəsinin önünə əklil qoyub, şəhidlərin xatirəsini ehtiramla anıb.



Ziyarətçilərə Azərbaycan xalqının Vətən müharibəsində qazandığı tarixi Zəfərin əbədiləşdirilməsi və şəhidlərimizin xatirəsinin yaşadılması məqsədilə yaradılmış Memorial Kompleks haqqında məlumat verilib. Qonaqları Milli Məclis Sədrinin müavini Musa Qasımlı müşayiət edib.

"Azərbaycan"

Azərbaycan və Özbəkistan parlamentləri arasında "Yol xəritəsi" imzalanıb

Noyabrın 25-də İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu çərçivəsində Azərbaycan Respublikası Milli Məclisi ilə Özbəkistan Respublikası Ali Məclisi arasında "Parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi üzrə 2027-2028-ci illər üçün praktiki tədbirlər planı"nın ("Yol xəritəsi") imzalanması mərasimi keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sənədi Azərbaycan tərəfdən Milli Məclisin Sədri Sahibə Qafarova, Özbəkistan tərəfdən isə Ali Məclis Senatının Sədri Tənzilə Narbayeva imzalayıblar.



"Yol xəritəsi" iki ölkənin qanunverici orqanları arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsini, qanunvericilik fəaliyyəti, habelə parlament diplomatiyası və digər prioritet istiqamətlərdə təcrübə mübadiləsinin genişləndirilməsini nəzərdə tutur.

"Azərbaycan"

Milli Məclisdə İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun açılış mərasimi keçirilib

Noyabrın 25-də Milli Məclisdə "Azərbaycan-Özbəkistan əbədi dostluq və müttəfiqlik münasibətlərinin parlament ölçüsü: əməkdaşlıq istiqamətləri və gələcək perspektivlər" mövzusuna həsr olunmuş İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun açılış mərasimi keçirilib.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, mərasimdə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova parlamentlərimiz arasında etimad və qarşılıqlı hörmətə əsaslanan dialoqu yüksək qiymətləndirərək bildirib ki, Birinci Parlamentlərarası Forum ötən ilin iyul ayında Xivədə uğurla keçirilib və orada parlament əlaqələrinin vəziyyəti, birgə iş üçün prioritet istiqamətlər müzakirə edilib.

Spiker qeyd edib ki, ikinci forumun Bakıda keçirilməsi bu dialoq formatının inkişaf etdirilməsinə və əldə olunan razılaşmaların praktiki şəkildə həyata keçirilməsinin təmin edilməsinə qarşılıqlı sadiqliyi göstərir.

O, diqqətə çatdırıb ki, parlament ölçüsü Azərbaycan-Özbəkistan münasibətlərində mühüm yer tutur. Xivədəki görüşdən sonrakı dövrdə iki ölkə arasında əməkdaşlıq xeyli genişlənib və aktiv siyasi dialoq ən yüksək səviyyədə davam etdirilib. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycana, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə Özbəkistana dövlət səfərləri həyata keçiriblər. Dövlət başçıları beynəlxalq tədbirlər çərçivəsində də müntəzəm olaraq görüşüblər.

Qeyd olunub ki, ötən dövrdə Ali Dövlətlərarası Şuranın ikinci və üçüncü iclasları keçirilib, ikitərəfli gündəliyin əsas məsələləri üzrə mühüm razılaşmalar əldə edilib və onlarca sənəd imzalanıb.

Spiker Sahibə Qafarova bildirib ki, bu gün ölkələrimiz arasında genişmiqyaslı birgə layihələr həyata keçirilir, ticarət-iqtisadi və investisiya əlaqələri genişlənir, regionlararası əməkdaşlıq dərinləşir. Bu dövrün xüsusi nailiyyəti isə Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında Əbədi dostluq Müqaviləsinin imzalanmasıdır. Bu sənəd müttəfiqlik münasibətlərimizin inkişafında yeni bir mərhələni təşkil edir, həmçinin əsrlər boyu davam edən dostluq ənənələrini qorumaq və gələcək nəsillərə ötürmək üçün ortaq istəyi əks etdirir.

Milli Məclisin Sədri qeyd edib ki, müqavilə bu il noyabrın 3-də Milli Məclis tərəfindən təsdiq edilib və müvafiq qanun noyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanıb. Mövcud nailiyyətlər ölkələrimizin prezidentlərinin siyasi iradəsi və şəxsi səyləri, eləcə də aralarındakı səmimi dostluq, qarşılıqlı hörmət və etimad sayəsində mümkün olub. Dövlət başçılarının ən yüksək dövlət mükafatları - "Heydər Əliyev" və "Dostluq" ordenləri ilə təltif edilməsi onların Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlığın və müttəfiqliyin möhkəmləndirilməsinə verdikləri böyük töhfələrin tanınmasıdır.

Spiker bildirib ki, elm, təhsil, mədəniyyət, idman və turizm, eləcə də gənclər siyasəti sahələrində aktiv əlaqələr xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına töhfə verir. 2025-ci ildə Azərbaycan Özbəkistan Mədəniyyət Günlərinə evsahibliyi edib. Bu il noyabrın 29-da isə Özbəkistanda Azərbaycan Mədəniyyət Günləri keçiriləcək. Bu baxımdan Milli Məclisin Sədri Sahibə Qafarova Heydər Əliyev Fondunun təşəbbüslərini və layihələrini humanitar əməkdaşlığın inkişafına əhəmiyyətli töhfə kimi qiymətləndirib.

Bildirilib ki, dövlətlərarası münasibətlərin dinamikası parlamentlər üçün yeni çağırışlar yaradır. Bu baxımdan parlament diplomatiyasının rolu artır və qanunverici orqanların fəaliyyətinin ən yüksək səviyyədə əldə edilmiş razılaşmaların həyata keçirilməsinə kömək etməsi, hüquqi bazanı təkmilləşdirməsi və parlamentarlar arasında birbaşa əlaqələri genişləndirməsi vacibdir. 2025-2026-cı illər üçün son "Yol xəritəsi" uğurla həyata keçirilib və müəyyən edilmiş məqsədlərin sistemli şəkildə yerinə yetirilməsini təmin edib.

İki ölkənin parlament əlaqələrinin getdikcə sistemli hala gəlməsindən məmnunluğunu bildirən spiker Sahibə Qafarova qeyd edib ki, birinci forumdan sonra parlamentlərimizin sədrləri, dostluq qrupları, parlament nümayəndə heyətləri arasında qarşılıqlı əlaqə genişlənib. Bundan başqa, parlamentlərimiz beynəlxalq parlament təşkilatlarında da mövqelərini əlaqələndirir, eyni zamanda iki parlamentin aparatları arasında da işgüzar əlaqələr inkişaf edir.

Çıxışına yekun vuran Milli Məclisin Sədri bildirib ki, bugünkü forum görülən işləri ümumiləşdirməyə və dövlətlərarası gündəlikdəki cari məsələləri nəzərə alaraq növbəti addımları müəyyən etməyə imkan verir.

Sonra çıxış edən Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirib.

O, müasir Azərbaycan dövlətinin təməlini qoyan və xalqlarımız arasında dostluğun möhkəmləndirilməsinə mühüm töhfələr verən Ümummilli Lider Heydər Əliyevin xatirəsini dərin hörmətlə yad etdiklərini diqqətə çatdırıb.

Senatın Sədri bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan iqtisadi potensialını gücləndirib, infrastrukturunu modernləşdirib və beynəlxalq arenada mövqeyini möhkəmləndirib. Tənzilə Narbayeva Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün bərpasındakı tarixi roluna və hazırda Qarabağda aparılan geniş quruculuq işlərinə dərin hörmətini ifadə edib.

Senatın Sədri Özbəkistanda da Prezident Şavkat Mirziyoyevin təşəbbüsü və rəhbərliyi ilə Yeni Özbəkistan quruculuğunun həyata keçirildiyini diqqətə çatdırıb.

Prezident Şavkat Mirziyoyevin və Prezident İlham Əliyevin siyasi iradələri, şəxsi dostluğu və qarşılıqlı etimadları sayəsində ölkələrimizin müttəfiq olduğunu vurğulayan Senatın Sədri bu baxımdan iki il əvvəl dövlət başçılarının imzaladığı Müttəfiqlik münasibətləri haqqında Müqavilənin və bu ilin avqust ayında Daşkənddə Ali Dövlətlərarası Şuranın üçüncü iclası çərçivəsində imzalanmış Əbədi dostluq Müqaviləsinin əhəmiyyətini qeyd edib.

Tənzilə Narbayeva iki ölkənin iqtisadi əlaqələri və həyata keçirilən geniş layihələr barədə də fikirlərini bölüşüb.

Parlamentlərin islahatların qanunvericilik baxımından dəstəklənməsində və dövlətlərarası müqavilələrin həyata keçirilməsində xüsusi rolundan danışan Senatın Sədri bildirib ki, Müttəfiqlik münasibətləri haqqında Müqavilədə parlament diplomatiyasına ayrıca bir maddə həsr olunub. Tənzilə Narbayeva qarşıdakı iki il ərzində iki ölkə parlamentinin birgə fəaliyyət istiqamətləri barədə təkliflərini diqqətə çatdırıb.

Çıxışına yekun vuran Özbəkistan Ali Məclisi Senatının Sədri forumun işinə uğurlar arzulayıb.

Sonra forum öz işini panel müzakirələri ilə davam etdirib.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun bağlanış mərasimi keçirilib



Noyabrın 25-də İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun bağlanış mərasimi olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, mərasimdə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, forum çərçivəsində keçirilən panel müzakirələri parlamentlərimizin müvafiq komitələrinin fəaliyyəti və Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlığın əsas sahələri ilə bağlı geniş məsələləri əhatə etdi. Onun sözlərinə görə, bu formatın xüsusi dəyəri parlament üzvləri arasında birbaşa ünsiyyət, qanunvericilik təcrübəsi mübadiləsi üçün yaratdığı imkanlarla bağlıdır.

Bildirilib ki, forum bir daha Azərbaycan-Özbəkistan münasibətlərində parlament dialoqunun əhəmiyyətini təsdiqlədi. Nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, dostluq qruplarının fəaliyyəti və müvafiq komitələr arasında əlaqələrlə yanaşı, bu, qanunvericilik səviyyəsində əlaqələrin möhkəmləndirilməsinə töhfə verir.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun Bakı Bəyannaməsinin razılaşdırılmış layihəsini təqdim edib və bəyannamə qəbul edilib.

Spiker Sahibə Qafarova bildirib ki, Bakı Bəyannaməsinin qəbul edilməsi parlamentlərarası dialoqun davamlılığının təmin edilməsi və daha məzmunlu olması baxımından vacibdir. Onun müddəalarının həyata keçirilməsi ikitərəfli əməkdaşlığın qanunvericilik bazasının möhkəmləndirilməsinə və dövlətlərimizin rəhbərlikləri səviyyəsində əldə edilmiş razılaşmaların yerinə yetirilməsinə töhfə verəcəkdir.

Qeyd edilib ki, forumun əsas nəticələrindən biri Azərbaycan Respublikası Milli Məclisi ilə Özbəkistan Respublikası Ali Məclisi arasında Əməkdaşlıq üzrə Parlamentlərarası Komissiyanın noyabrın 25-də keçiriləcək ilk iclası olacaq.

Spiker Sahibə Qafarova komissiyanın işinin prioritet sahələrdə sistemli əməkdaşlığı təmin edəcəyinə, yeni təşəbbüslər irəli sürəcəyinə və birgə fəaliyyət imkanlarını genişləndirəcəyinə ümidvar olduğunu diqqətə çatdırıb.

Bağlanış mərasimində çıxış edən Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva bildirib ki, forum çərçivəsində aparılan müzakirələr əsası prezidentlərimiz tərəfindən qoyulmuş müttəfiqliyin daha da möhkəmlənməsinə və ölkələrimiz arasında əməkdaşlığın yeni istiqamətlər üzrə inkişafına töhfə verəcək. O, hüquqi və beynəlxalq əməkdaşlıq, iqtisadi və texnoloji layihələr, humanitar və gənclər siyasəti sahəsində əlaqələrin genişləndirilməsində parlamentlərarası əməkdaşlığın önəmli rol oynadığını və ölkələrarası münasibətlərin inkişafına töhfə verdiyini söyləyib. Bildirib ki, qanunverici orqanlar arasında qarşılıqlı dialoq etimadın möhkəmlənməsinə və ortaq təşəbbüslərin icrasına zəmin yaradır.

Tənzilə Narbayeva İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Foru-munun yekunları ilə bağlı qəbul edilmiş Bakı Bəyannaməsinin mühüm əhəmiyyətini vurğulayıb.

Foruma yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikası Milli Məclisi ilə Özbəkistan Respublikası Ali Məclisi arasında imzalanmış 2027-2028-ci illər üçün yeni "Yol xəritəsi"nin birgə işin mühüm nəticəsi olduğunu qeyd edib və tədbir iştirakçılarına bu forumda iştirak etdiklərinə görə təşəkkürünü bildirib.

Bununla da İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu başa çatıb.

"Azərbaycan"

İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun panel müzakirələri keçirilib

Noyabrın 25-də Milli Məclisdə "Azərbaycan-Özbəkistan əbədi dostluq və müttəfiqlik münasibətlərinin parlament ölçüsü: əməkdaşlıq istiqamətləri və gələcək perspektivlər" mövzusuna həsr olunmuş İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun panel müzakirələri keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, "Azərbaycan-Özbəkistan əbədi dostluq və müttəfiqlik münasibətlərində parlament faktoru" mövzusunda 1-ci panel sessiyaya Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Özbəkistan Ali Məclisi Senatının komitə sədri Əlişir Aqzamxocayev moderatorluq ediblər.

Sessiyada "Ali Dövlətlərarası Şuranın üçüncü iclasında qəbul olunmuş qərarların reallaşdırılmasına parlament dəstəyi və ikitərəfli əlaqələrin strateji istiqamətləri", "İki ölkə arasında mövcud müqavilə-hüquq bazasının genişləndirilməsi üzrə qanunvericilik təşəbbüsləri", həmçinin "Regional və beynəlxalq təhlükəsizlik kontekstində parlament diplomatiyası və beynəlxalq platformalarda ümumi maraqlar naminə birgə fəaliyyət" mövzularında müzakirələr aparılıb.

Mövzular barədə Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, Özbəkistan Ali Məclisi Senatının komitə sədri Əlişir Aqzamxocayev, Milli Məclisin deputatı Əminə Ağazadə, Özbəkistan Senatının komitə sədri Abdulhakim Eşmuradov, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Nigar Arpadarai, Özbəkistan Senatının komitə sədrinin müavini Dilorom Feyziyeva məruzə ilə çıxış ediblər. Sonra mövzular üzrə müzakirələr aparılıb. Müzakirələrdə Milli Məclisin deputatları Sabir Hacıyev və Nigar Məmmədova çıxış edərək Azərbaycan-Özbəkistan münasibətlərində parlamentin rolu barədə fikirlərini bildiriblər, qeyd və təkliflərini səsləndiriblər.

Nahar fasiləsindən sonra forum öz işini "Azərbaycan-Özbəkistan çoxşaxəli əlaqələrinin dərinləşdirilməsinə parlamentlərin töhfəsi: institusional əməkdaşlıq mexanizmləri kimi komitələrin rolu" mövzusuna həsr olunmuş 2-ci panel sessiyası ilə davam etdirib. 2-ci panel sessiyaya Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov və Ali Məclis Senatının Büdcə və iqtisadi məsələlər komitəsinin sədri Erkin Qadoyev moderatorluq ediblər.

Sessiyada "Ticarət, iqtisadiyyat, investisiya, sənaye və sahibkarlıq sahəsində həyata keçirilən tədbirlər fonunda birgə fəaliyyət imkanları", "Bərpaolunan enerjidən istifadə və "yaşıl inkişaf" üzrə qanunvericilikdə təcrübə mübadiləsi və ortaq layihələrin dəstəklənməsi", "Rəqəmsal inkişaf və süni intellekt sahəsində əməkdaşlıq, çağırışlar və perspektivlər", "Parlamentlərin kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi sahəsində qarşılıqlı fəaliyyətə dəstək imkanları" mövzuları müzakirə olunub. Sözügedən mövzular üzrə Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının sədri Ramid Namazov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədr müavini Fatma Yıldırım, deputat Xanlar Fətiyev, Özbəkistan Senatının komitə sədri Anvar Tuyçiyev, komitə sədrinin müavini Kobul Tursunov, senatorlar İrina Tokareva və Gülnora Marufova məruzələrlə çıxış ediblər. Mövzular ətrafında aparılan müzakirələrdə Milli Məclisin deputatları Nigar Arpadarai və Əli Məsimli fikirlərini bildiriblər.

Çıxışlarda Azərbaycan və Özbəkistan arasında iqtisadiyyat, ticarət, investisiya, sənaye, sahibkarlıq, rəqəmsal transformasiya, süni intellekt və müasir texnologiyalar sahələrində əməkdaşlığın genişləndirilməsi perspektivləri diqqətə çatdırılıb. Həmçinin bərpaolunan enerji, "yaşıl iqtisadiyyat", kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi istiqamətlərində qarşılıqlı təcrübə mübadiləsinin və birgə təşəbbüslərin əhəmiyyəti vurğulanıb.

Forum çərçivəsində keçirilən "Xalqlar arasındakı həmrəyliyin və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi üzrə parlament dialoqu" mövzusuna həsr olunan 3-cü panel sessiyaya Milli Məclisin Mədəniyyət komitəsinin sədr müavini, Səhiyyə komitəsinin üzvü Günay Əfəndiyeva və Özbəkistan Ali Məclisi Senatının Gənclər, qadınlar, mədəniyyət və idman məsələləri komitəsində daimi əsaslarla fəaliyyət göstərən senator Malika Kadirxanova moderatorluq ediblər.

Tədbirdə "Xalqlar arasında yaxınlığın gücləndirilməsinə xidmət edən mədəni əlaqələrin inkişafı istiqamətində təşəbbüslər", "Elm və təhsil sahəsində mövcud olan güclü potensialın reallaşdırılması yollarına parlamentlərin yanaşması", "Ortaq milli-mənəvi dəyərlərin qorunmasında və gələcək nəsillərə ötürülməsində mühüm amil olaraq gənclər və idman sahəsində əməkdaşlıq", "Ölkələr arasında dostluğun, qarşılıqlı anlaşmanın və humanitar əlaqələrin möhkəmləndirilməsi vasitəsi olaraq turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi" mövzuları müzakirə olunub.

Mövzular barədə Milli Məclisin Mədəniyyət komitəsinin üzvü Ülviyyə Həmzəyeva, Özbəkistan Ali Məclisi Senatının Gənclər, qadınlar, mədəniyyət və idman məsələləri komitəsində daimi əsaslarla fəaliyyət göstərən senator Malika Kadirxanova, Milli Məclisin Elm və təhsil komitəsinin və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Sevinc Fətəliyeva, Özbəkistan Ali Məclisi Senatının Elm, təhsil və səhiyyə komitəsinin üzvü Rüstəm Xalmuradov, Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Məzahir Əfəndiyev, Özbəkistan Ali Məclisi Senatının Məhkəmə-hüquq məsələləri və korrupsiya ilə mübarizə komitəsinin üzvü Pokiza Əhmədcanova, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin və Gənclər və idman komitəsinin üzvü Göydəniz Qəhrəmanov, Özbəkistan Ali Məclisi Senatının Beynəlxalq münasibətlər, xarici iqtisadi əlaqələr, xarici investisiyalar və turizm məsələləri komitəsinin üzvü Komila Karamova məruzə ilə çıxış ediblər. Mövzular ətrafında aparılan müzakirələrdə Milli Məclisin deputatı Samir Vəliyev çıxış edərək qanunverici orqanlar arasında sıx əməkdaşlıq əlaqələrinin xalqlarımızın yaxınlaşmasında və ortaq dəyərlərin təşviqində rolu barədə fikirlərini açıqlayıb.

Bununla da İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun panel müzakirələri başa çatıb.

"Azərbaycan"

Milli Məclis və Özbəkistan Ali Məclisi Parlamentlərarası Əməkdaşlıq Komissiyasının birinci iclasında

Noyabrın 25-də Azərbaycan Respublikası Milli Məclisi və Özbəkistan Respublikası Ali Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyasının birinci iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komissiyanın ilk iclasının açılışında Milli Məclisin Sədri Sahibə Qafarova və Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva iştirak ediblər.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikası Milli Məclisi və Özbəkistan Respublikası Ali Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyasının birinci iclasının parlament əlaqələrinin inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığını deyib. Spiker İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun yekunları üzrə qəbul edilmiş Bakı Bəyannaməsində parlament dialoqunun möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi istiqamətində tərəflərin sadiqliyinin ifadə olunduğunu vurğulayıb. Həmçinin parlamentlərimiz arasında 2027-2028-ci illər üzrə praktiki tədbirləri əhatə edən növbəti "Yol xəritəsi"nin imzalandığını diqqətə çatdırıb.

Milli Məclisin Sədri komissiyanın parlamentlərarası qarşılıqlı fəaliyyətin daimi mexanizminə çevrilməsi ilə bağlı fikirlərini bölüşüb, bildirib ki, bu təsisat ikitərəfli gündəliyin aktual məsələlərinin müntəzəm müzakirəsinə imkan yaradacaq.

O, komissiyanın praktiki fəaliyyətə başlamasını ölkələr arasında ali səviyyədə əldə olunmuş strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin parlament müstəvisində davamı kimi səciyyələndirib.

Sahibə Qafarova komissiyanın fəaliyyətinin ilkin mərhələsində qarşıda duran vəzifələrə toxunaraq, təşkilati məsələlərin həllini, parlamentlərarası əlaqələrin mövcud vəziyyətinin təhlilini və artıq fəaliyyət göstərən əməkdaşlıq mexanizmləri nəzərə alınmaqla birgə işin prioritetlərinin müəyyənləşdirilməsini əsas vəzifələr kimi qeyd edib. Digər mühüm vəzifənin ən yüksək səviyyədə əldə olunmuş razılaşmaların və imzalanmış sazişlərin həyata keçirilməsində parlamentlərin rolunun müəyyənləşdirilməsi olduğu vurğulanıb. Bu kontekstdə ikitərəfli əməkdaşlığın, ilk növbədə iqtisadi sahədə əməkdaşlığın qanunvericilik bazasının təkmilləşdirilməsinə diqqət yetirilməsinin vacibliyi qeyd edilib.

Sahibə Qafarova parlamentlərin komitələri arasında əlaqələrin möhkəmləndirilməsinin zəruriliyinə də diqqət çəkib. Bildirib ki, məhz bu səviyyədə qanunvericilik məsələlərinin ətraflı müzakirəsi, milli təcrübələrin mübadiləsi və qarşılıqlı maraq doğuran sahələr üzrə birgə qərarların hazırlanması üçün geniş imkanlar mövcuddur. O, komissiyanın fəaliyyətinin səmərəliliyinin konkret nəticələr, birgə təşəbbüslər və praktiki təkliflərlə müşayiət olunacağına əminliyini ifadə edib.

Çıxışının sonunda Sahibə Qafarova iclasın komissiyanın səmərəli fəaliyyəti üçün başlanğıc nöqtəsi olacağına və parlament dialoqunu yeni məzmunla zənginləşdirəcəyinə inamını bildirib.

Tədbirdə çıxış edən Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirərək, ikitərəfli razılaşma və sazişlərdə nəzərdə tutulan layihələrin həyata keçirilməsində parlamentlərin, xüsusilə profil komitələrinin fəal iştirakının vacibliyini vurğulayıb.

Tənzilə Narbayeva komissiyanın fəaliyyətinin konkret birgə layihələr üzərində qurulmasını, iclasların müntəzəm keçirilməsini və zərurət yarandıqda onlayn görüşlərin təşkilini məqsədəuyğun hesab edib. Növbəti iclasın Özbəkistanda keçirilməsi barədə razılaşmanı xatırladan Senat Sədri komissiyanın fəaliyyətinin iki ölkə prezidentləri səviyyəsində əldə olunmuş razılaşmaların həyata keçirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

İclasda çıxış edən vitse-spiker, Azərbaycan Respublikası Milli Məclisi və Özbəkistan Respublikası Ali Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyasının həmsədri Musa Qasımlı Azərbaycan və Özbəkistan xalqları arasında tarixi qardaşlıq münasibətlərinin dövlət başçılarımızın siyasi iradəsi və ardıcıl səyləri nəticəsində strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini vurğulayıb. Bu münasibətlərin parlamentlər müstəvisində davam etdiyini deyən vitse-spiker parlamentlərarası əməkdaşlığın geniş potensialının və inkişaf perspektivlərinin forumun nəticələrində, xüsusən onun Bakı Bəyannaməsində öz əksini tapdığını qeyd edib.

Gündəlikdəki məsələlərin müzakirəsində Milli Məclisin komitə sədri Səməd Seyidov, komitə sədrlərinin müavinləri Fatma Yıldırım, Günay Əfəndiyeva, Jalə Əliyeva, deputat Samir Vəliyev və Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, eləcə də Özbəkistan Ali Məclisinin deputatları çıxış ediblər.

Çıxışlarda Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələrinin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə fikirlər bölüşülüb, İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumunun nəticələrinin ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Həmçinin iki ölkənin parlamentləri arasında əlaqələrin institusional inkişafında yeni mərhələ olan Parlamentlərarası Əməkdaşlıq Komissiyasının qarşısında duran məqsəd və vəzifələrə toxunulub, onun fəaliyyətinin prioritet istiqamətləri və mövcud əməkdaşlıq mexanizmlərindən səmərəli istifadə imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

İclasda Milli Məclisin komitə sədrinin müavini Rəşad Mahmudov, deputat Əminə Ağazadə, həmçinin Özbəkistan Ali Məclisinin deputatları və digər rəsmi şəxslər iştirak ediblər.

"Azərbaycan"

"Sabit neft hasilatı təmin edilməlidir"

Prezident İlham Əliyevin bu tələbinin bir şərti də qazma qurğularının məhsuldarlığının yüksək olmasıdır

Hazırda ölkə iqtisadiyyatı qarşısında duran əsas vəzifələrdən biri "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarında hasilatın təbii azalma tempini idarə etmək və blokdan maksimum neftvermə yə nail olmaqdır. AÇG layihəsinin operatoru olaraq BP bu istiqamətdə SOCAR-la sıx əməkdaşlıq edir.



Birgə səylər nəticəsində hasilatın illik azalma tempini 2023-cü ildəki təxminən 12 faizdən hazırda təxminən 3 faizə endirmək mümkün olub. Bu da sənaye üzrə orta göstəricidən əhəmiyyətli dərəcədə aşağıdır.

Ölkədə neft hasilatının sabitləşdirilməsi Prezident İlham Əliyevin tövsiyəsi, tapşırığı və tələbidir. Bu, ilk növbədə uzun illərdir iqtisadiyyatımızın əsas gəlir mənbəyi olan "Azəri-Çıraq-Günəşli"dən hasilatın sabitləşdirilməsinə aiddir.

BP və SOCAR-ın bunun üçün həyata keçirdiyi tədbirlər dörd əsas istiqaməti əhatə edir. Bunlar da əməliyyat etibarlılığı, qazma qurğularının məhsuldarlığının artırılması, layların "canlandırılması", eləcə də texnologiya və innovasiyanın strateji tətbiqindən ibarətdir.

Qazma qurğularının məhsuldarlığından danışarkən qeyd etməliyik ki, hazırda AÇG-də 7 qazma qurğusu fasiləsiz şəkildə fəaliyyət göstərir. Söhbət AÇG-nin 7 hasilat platformasının ("Çıraq", "Mərkəzi Azəri", "Qərbi Azəri", "Şərqi Azəri", "Dərinsulu Günəşli", "Qərbi Çıraq" və ACE) qazma qurğularından gedir. Bu ilin üç rübü ərzində blokda 12-si neft hasilatı, 3-ü su injektoru və 2-si qaz injektoru quyusu olmaqla ümumilikdə 17 quyu qazılaraq tamamlanıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 55 faiz çoxdur (2025-ci ilin ilk üç rübü ərzində 11 quyu qazılıb və tamamlanıb).

Eyni zamanda böyük həcmdə quyumüdaxilə işləri həyata keçirilir. Təkcə 2025-ci ildə 80-ə yaxın quyumüdaxilə işi yerinə yetirilib və 2026-cı ildə də təqribən eyni sayda işin icrası nəzərdə tutulur.

Bu il "Dərinsulu Günəşli" ərazisində çoxquyulu sualtı müdaxilə əməliyyatları platformadan deyil, "Xankəndi" sualtı tikinti gəmisi vasitəsilə həyata keçirilib. Belə olduqda platformadakı qazma qurğusundan daha səmərəli istifadə etmək və daha çox qazma işləri həyata keçirmək imkanı yaranır.

Bu proses haqqında aydın təsəvvür yaratmaq üçün qeyd edək ki, sualtı müdaxilə işlərinin icrası üçün BP-nin Xəzərdəki əməliyyatlarında ilk dəfə quyuya dikborusuz yüngül müdaxilə (QDYM) texnologiyası tətbiq olunub. "Blue Ocean" dikborusuz müdaxilə sistemi (BORİS) kimi tanınan bu texnologiya "Oceaneering International" şirkətinin sualtı mexaniki tros vasitəsilə quyuya müdaxilə sistemidir.

Sözügedən texnologiya ənənəvi qazma dikborularından istifadə olunmadan sualtı quyulara çıxış təmin etməklə yanaşı, proqram boyunca quyulara nəzarəti həyata keçirməyə, təzyiqi saxlamağa və bütün sualtı müdaxilə işlərini aparmağa imkan verib. Nəticədə ənənəvi üsullarla müdaxilə işlərinin gedişi çətin hesab olunan 7 sualtı quyuda müdaxilə əməliyyatları uğurla reallaşıb.

Bu il həmçinin "Dərinsulu Günəşli", "Mərkəzi Azəri" və "Qərbi Çıraq" ərazilərində 10 quyuda stimulasiya əməliyyatları gəmidən həyata keçirilib. Bu cür əməliyyatlar ənənəvi olaraq qazma qurğusundan istifadə etməklə aparılır. Bu dəfə isə quyuların stimulasiyası platformalarla yanaşı xidmət göstərən xüsusi təchiz olunmuş gəmi vasitəsilə yerinə yetirilib. Bu yanaşma quyuların icra göstəricilərini və dəniz əməliyyatlarında səmərəliliyi artırmağa imkan yaradır.

Vurğulayaq ki, hazırda AÇG təxminən 95 faiz əməliyyat səmərəliliyi və təxminən 99 faiz qurğu etibarlılığı ilə fəaliyyət göstərir. Bu göstəricilər həm BP şirkəti daxilində, həm də ümumən sənaye üzrə ən yüksək nəticələr sırasındadır.

Flora SADIQLI,
"Azərbaycan"

Azərbaycanın Avropa üçün artan əhəmiyyəti Cənubi Qafqazda yeni iqtisadi perspektivlər yaradır

Azərbaycanın Avropa üçün strateji və iqtisadi əhəmiyyətinin artması Cənubi Qafqaz regionunun gələcək inkişafı, iqtisadi inteqrasiyası və regional əməkdaşlığın genişlənməsi baxımından mühüm imkanlar yaradır. Avropanın enerji təhlükəsizliyinin təmin olunması, nəqliyyat-logistika marşrutlarının şaxələndirilməsi və yeni iqtisadi tərəfdaşlıqların qurulması istiqamətində Azərbaycanın rolunun güclənməsi regionun beynəlxalq əhəmiyyətini də artırır.

Bunu AZƏRTAC-a açıqlamasında **türk iqtisadçı-ekspert İlhan İŞBAŞ** bildirib.

Onun sözlərinə görə, Azərbaycanın Avropa ilə əlaqələrinin genişlənməsi yalnız ölkənin iqtisadi və siyasi mövqelərinin möhkəmlənməsi ilə məhdudlaşmır, eyni zamanda Cənubi Qafqaz dövlətləri üçün yeni əməkdaşlıq imkanlarının formalaşmasına da zəmin yaradır. "Azərbaycanın enerji resursları, əlverişli coğrafi mövqeyi, inkişaf edən nəqliyyat infrastrukturu və beynəlxalq tərəfdaşlarla qurduğu münasibətlər ölkəni Avropa ilə Asiya arasında mühüm bağlantı mərkəzinə çevirir. Bu amillər regionun tranzit potensialının artırılması, ticarət əlaqələrinin genişləndirilməsi və yeni investisiyaların cəlb olunması baxımından xüsusi əhəmiyyət daşıyır. Avropanın enerji təhlükəsizliyi məsələsinə artan diqqəti Azərbaycanın strateji əhəmiyyətini daha da yüksəldir. Azərbaycan qazının Avropa bazarlarına çatdırılması, enerji infrastrukturlarının inkişafı və alternativ enerji sahəsində əməkdaşlıq imkanları tərəflər arasında uzunmüddətli iqtisadi münasibətlərin formalaşmasına xidmət edir. Bu əməkdaşlığın genişlənməsi Cənubi Qafqaz ölkələri üçün də yeni iqtisadi dividendlər və inkişaf imkanları yarada bilər. Azərbaycanın tranzit və logistika imkanlarının genişlənməsi region ölkələrinin beynəlxalq ticarət sisteminə daha fəal inteqrasiyasına şərait yaradır. Xüsusilə Orta dəhlizin inkişafı, dəmir yolu və avtomobil nəqliyyatı bağlantılarının gücləndirilməsi, liman infrastrukturlarının modernləşdirilməsi Cənubi Qafqazın Avropa və Asiya arasında mühüm iqtisadi qovşağa çevrilməsini sürətləndirə bilər", - deyə ekspert qeyd edib.



İlhan İşbaşın fikrincə, regionda davamlı sülh və sabitliyin təmin olunması bu perspektivlərin reallaşmasında əsas şərtlərdən biridir. Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, kommunikasiya xətlərinin açılması və qarşılıqlı iqtisadi əməkdaşlığın inkişafı Cənubi Qafqazda yeni iqtisadi mühit formalaşdıra bilər: "Bu proses yalnız iki ölkənin deyil, bütövlükdə regionun iqtisadi inkişafına, ticarət dövriyyəsinin artmasına və investisiya mühitinin yaxşılaşmasına müsbət təsir göstərə bilər. Gələcəkdə Cənubi Qafqazın əsas üstünlüklərindən biri enerji, nəqliyyat, turizm, sənaye və rəqəmsal iqtisadiyyat sahələrində regional əməkdaşlığın genişləndirilməsi olacaq. Azərbaycanın Avropa ilə əlaqələrinin güclənməsi digər region ölkələri üçün də yeni bazarlara çıxış, iqtisadi tərəfdaşlıq və beynəlxalq layihələrdə iştirak imkanlarını artırır".

İlhan İşbaşın sözlərinə görə, Azərbaycanın artan beynəlxalq nüfuzu və Avropa ilə strateji əməkdaşlığı Cənubi Qafqazın geoiqtisadi mövqeyini gücləndirən mühüm amildir. Regionda sülh, qarşılıqlı etimad və iqtisadi inteqrasiya istiqamətində atılacaq addımlar Cənubi Qafqazı gələcəkdə daha rəqabətqabiliyyətli, investisiyalar üçün cəlbedici və beynəlxalq iqtisadi sistemdə daha mühüm mövqeyə malik regiona çevirə bilər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

Qəbulu aparan şəxs	Qəbul günü
Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Nağdəliyev Zeynal Səfər oğlu	1
Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Əmirov Natiq Ərziman oğlu	2
Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Ələsgərov Fuad Murtuz oğlu	3,17
Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi Həsənov Altay Tofiq oğlu	4,11,25
Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Mövsümov Şahmar Arif oğlu	4
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri İsmayılov Süleyman Abbas oğlu	7
Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri Həsənov Kərəm Əvəz oğlu	8
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Seyidov Fərid Mirmufid oğlu	9
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Əliyeva Fərəh Şirməmməd qızı	10
Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hacıyev Hikmət Fərhad oğlu	11
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri Məcidov Tələt Tahir oğlu	14
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Məmmədəliyev Yusuf Ülfət oğlu	15
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Vəliyev Ədalət Məqsəd oğlu	16
Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi Səttarov Orxan Rəcəb oğlu	18
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi	18
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru	18
Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Hüseynov Emin Zamin oğlu	21
Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Kərimov Aydın Zöhrab oğlu	22
Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Hacıyev Bəşir Qüdrət oğlu	23
Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məmmədov Məsim Əhməd oğlu	23
Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi	24
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Kərimov Gündüz Hacı oğlu	25
Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Hacıyev Vahid Rasim oğlu	25
* * *	
Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Usubov Ramil İdris oğlu	28

Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.
Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.
Qəbul saat 14:00-dan başlayır.
Əlaqə üçün: Çağrı Mərkəzi – 1111

● Publisistik düşüncələr



MƏĞLUBİYYƏTİN ETİRAFI VƏ TƏSDİQİ

Məğlub olmaq heç kimə xoş gəlmir və sevinc də gətirmir...

İstər idman yarışları arenasında olsun, istərsə də döyüş meydanında.

Adətən, məğlub tərəflər uduzmalarını nə iləsə izah etməyə, hansı üsullasa özlərinə bəraət qazandırmağa çalışırlar.

Tək-tük idmançı özündə mərdlik taparaq rəqibinin daha güclü olduğunu bildirir, üstəlik, onu qələbə münasibətilə təbrik də edir.

Müharibə isə başqa məsələdir...

Burada qalib fəxri kürsüyə çıxarılaraq təltif olunmur.

Hər kəs öz qələbəsini özü atəşfəşanlıqla qeyd edir!

Məğlub tərəfə isə qalib gələnin şərtləri əsasında tərtib olunan "təslim aktı" imzalatdırılır.

Bəzən də alçaldıcı şəraitdə!

Kapitulyasiya aktına qol çəkmiş məğlubun uduzmasına sonradan müxtəlif bəhanələrlə, uydurma "səbəblərlə" haqq qazandırmaq cəhdi də qeyri-adi hal sayılmır...

Gücləri ancaq buna çatır.

Bu gün Ermənistanda və dünyanın müxtəlif yerlərində yaşayan erməni bloqçular, şərhçilər, politoloqlar və daha kimlər özlərinə bəraət qazandırmaq və Zəfərimizi gözdən salmaq üçün hər bir hərzə-hədyan danışa, hər yalanı uydura bilərlər.

Erməni yalan deməsə, nəsə uydurmasa, erməni olmaz ki...

Amma məğlub ermənilərin, onların müdafiəçilərinin və havadarlarının nə deməsindən asılı olmayaraq, biz qarşı-qarşıya döyüşdə düşməni darmadağın edən qaliblərik!

* Biz möhtəşəm Zəfərə nail olanlarıq!

* Biz döyüşərək öz torpaqlarımızı geriyə qaytaranlarıq!

* Biz Qarabağ münaqişəsinə "dəmir yumruq"la əbədi son qoyanlarıq!

* Biz Qarabağı və Şərqi Zəngəzuru yenidən tikib quranlar, cənnətə çevirənlərik!

* Biz düşmənə öz məğlubiyyətini qəbul etdirənlərik!

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Zəfər Günü münasibətilə Azərbaycan xalqına təbrikində dediyi kimi:

"44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Biz haqlı olaraq bu Zəfərlə fəxr edirik. Bütün Azərbaycan xalqı fəxr edir. Gələcək nəsillər də fəxr edəcəklər. Bu şanlı tarix bizim qəlbimizdə əbədi yaşayacaq".

Azərbaycanın bu möhtəşəm qələbəsi təkcə Ermənistan üzərində çalınan Zəfər qələbəsi deyil!

Həm də ermənilərin müdafiəçiləri və havadarları üzərindəki qələbədir!

* Dünya ermənilik üzərində qələbədir!

* Erməni diasporları üzərində qələbədir!

* İflic vəziyyətinə salınan beynəlxalq hüquq üzərində qələbədir!

* Azərbaycana qarşı ədalətsiz mövqe tutan beynəlxalq qurumlar üzərində qələbədir!

* Sonadək dişsiz, fərsiz və riyakar mövqedə dayanan ATƏT-in Minsk qrupu üzərində qazanılan qələbədir!

* Müstəqil dövlətin, qürurlu və qəhrəman xalqın forpost, satellat dövlət üzərində qazandığı qələbədir!

Azərbaycanın Qarabağ münaqişəsinin uğurlu həllinə nail olmasını və torpaqlarını işğaldan azad etməsini istəməyənlər də vardı...

Bələləri nəinki münaqişənin sülh yolu ilə çözümünü istəyirdilər, əksinə, ədalətin və beynəlxalq hüququn bərpasına müxtəlif üsul və vasitələrlə əngəl törədirdilər.

Üstəlik, aşkar və gizli şəkildə, müxtəlif formada Ermənistana dəstək də verirdilər.

Məqsədləri əlverişli geosiyasi mövqeyə və zəngin təbii sərvətlərə malik Azərbaycana təsir imkanlarını qoruyub saxlamaq idi.

Münaqişənin dondurulmuş vəziyyətdə, yaxud Ermənistanın ərazi iddialarının təmini əsasında həllini istəyənlər də çox idi.

Ən əvvəl Rusiya Cənubi Qafqazda üstünlüyü qoruyub saxlamaq üçün münaqişədə birtərəfli, ermənipərəst mövqe tuturdu.

Hətta SSRİ-nin birinci və sonuncu prezidenti M.Qorbaçov Qarabağı ermənilərə hədiyyə edəcəyinə söz də vermişdi.

Rusiyanın sonrakı dövlət başçıları da dəfələrlə Ermənistana dəyəri bir milyard dollardan artıq olan silah-sursat bağışladılar.

Sözdə münaqişəni sülh danışıqları yolu ilə həll edəcəyini bildirən və məxsusi bu məqsədlə yaradılan ATƏT-in Minsk qrupunun əsl məqsədi isə danışıqları acı bağırsaq kimi uzatmaqla işğalı əbədiliyə çevirmək idi.

Hər cür hərbi, siyasi və diplomatik imkanlara malik ATƏT-in həmsədr dövlətləri isə daha çox ermənilərə kömək barədə düşünürdülər.

ABŞ işğalçıya deyil, işğala məruz qalana qarşı ədalətsiz 907-ci düzəlişi qəbul etdi.

* Fransa daim parlamentində haylara dəstək verən qərar və qətnamələr çıxarırdı.

* Rusiya sonadək Ermənistanı hərbi cəhətdən gücləndirərək bizə qarşı silahlandırır, 102-ci hərbi bazası vasitəsilə haylara yardım göstərir, müxtəlif əməliyyatlarda əsgər və zabitlərilə iştirak edirdi.

* BMT-nin Təhlükəsizlik Şurası dörd qətnaməsini axıradək icra etmədi.

* Beynəlxalq qurum və təşkilatlar isə daima ikili standartlara üstünlük verirdilər.

Əsas şüarlarını durmadan təkrarlayırdılar:

"Qarabağ münaqişəsinin hərbi yolla həlli variantı yoxdur".

Dildə bunu söyləyərək əməldə Ermənistanı müdafiə etmək isə ən böyük riyakarlıq idi!

"Sülh danışıqları"nda hayların müdafiəsi müxtəlif təkliflər formasında özünü büruzə verirdi:

*Qarabağdakı ermənilərin hüquqlarını təmin etmək;

*"dqr"ə müstəqillik vermək;

* "dqr"i danışıqlarda tərəfə çevirmək;

* "ümumi dövlət" prinsipi ilə razılaşmaq;

* yeddi rayondan yalnız beşini qaytarmaq;

* Ermənistanla əməkdaşlığa başlamaq.

Bütün bunlar Azərbaycanın zərərinə olan təkliflər idi.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin mövqeyi və iradəsi isə tamamilə fərqlənirdi:

* Azərbaycan heç bir zaman işğalla barışmayacaqdır!

* Azərbaycan heç zaman öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir!

* Azərbaycan bir qarış torpağını belə, kimsəyə güzəştə getməyəcəkdir!

* Azərbaycan lazım gəlsə, hərbi vasitələrlə münaqişənin həllinə nail olacaqdır!

8 noyabr 2026-cı ildə Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan xalqına təbrik nitqində yenidən həmin dövrdə baş verənləri xatırladaraq dedi:

"Mən dəfələrlə bildirirdim ki, biz heç vaxt işğalla barışmayacağıq, əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz hərbi yolla ərazi bütövlüyümüzü bərpa edəcəyik".

"Ermənistan tərəfi o qədər azğınlaşmışdı ki, hətta bizi daim hədələyirdi. Yeni ərazilər uğrunda yeni müharibə ilə hədələyirdi, "Qarabağ Ermənistandır və nöqtə" sözləri ilə bizim ləyaqətimizi alçaltmağa çalışırdı. Biz isə buna döyüş meydanında cavab verdik və döyüş meydanında kimin kim olduğunu hər kəs əyani şəkildə gördü. Bir nəfər belə olsun Azərbaycan Ordusundan qaçan, fərarilik edən olmayıb. Halbuki Ermənistan rəhbərliyinin etirafına görə, Ermənistan ordusunda 12 minə yaxın fərari olmuşdur. Bax, fərq bundan ibarətdir".

"Azərbaycan döyüş meydanında tam üstünlüyü təmin edərək 8 noyabr günündə - Zəfər bayramını qeyd etdiyimiz gündə Şuşanın azad edilməsi faktiki olaraq İkinci Qarabağ müharibəsinin taleyini həll etdi. Ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktına imza atdı".

"O vaxt Ermənistan rəhbərliyinin yersiz açıqlamalarına biz də açıqlamalar vermişdik. Mən bildirmişdim ki, "Qarabağ Azərbaycandır və nida". O nida işarəsini biz 2023-cü il sentyabrın 20-də bax, burada - Xankəndidə qoyduq. Birgünlük antiterror əməliyyatı Ermənistanın işğalçı ordusunun 15 minlik işğalçı korpusunu tamamilə iflic vəziyyətə salmışdır, çox dəqiq və peşəkarcasına aparılmış hərbi əməliyyat nəticəsində Ermənistan məcburən ikinci dəfə təslim olmuşdur".

Bəli, "dəmir yumruq" işə düşdü, havadarlarına və müdafiəçilərinə güvənərək sülhə gəlmək istəməyən Ermənistan qarşımızda diz çökdü!

Yalvara-yalvara onun-bunun dabanını yalayan Ermənistana yalnız cənab İlham Əliyevin şərtlərini yerinə yetirdikdən sonra kapitulyasiya aktına qol çəkmək imkanı verildi.

* Sonradan haylar KTMT haraylarına çatmadığına, onun tərəfindən Azərbaycana qarşı döyüşmədiyinə görə Moskvadan incidilər...

* ABŞ ilə birgə hərbi təlimlər keçirildi...

* Fransa prezidenti Makronu ərazisinə qonaq çağıraraq bir qədər hərbi yardım da aldılar...

* Avropa İttifaqının casus şəbəkəsini Azərbaycanla sərhəddə yerləşdirdilər...

Xeyli atılıb-düşdülər!

Çifayda!

Sonda öz məğlubiyyətlərini qəbul və etiraf etməyə məcbur oldular!

** Bir vaxtlar Xankəndidə sərxoş vəziyyətdə "Qarabağ Ermənistandır - nöqtə" söyləyən N.Paşinyan "Qarabağ Azərbaycandır!" dedi!*

* Dörd kəndimizi dinməz-söyləməz geri qaytardı!

* Delimitasiya və demarkasiya prosesinə başladı!

Lakin İlham Əliyevin irəli sürdüyü əsas şərt - Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının çıxarılması hələ qalır.

Bunu da edəcəklər!

Başqa yolları yoxdur!

ÇÜNKİ...

8 avqust 2025-ci ildə Vaşinqtonda ABŞ Prezidenti D.Trampın iştirakı və şahidliyi ilə bir sıra mühüm razılıqlar əldə olunmuşdur:

Həmin görüşdə:

"Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair saziş" layihəsi paraflandı.

* ATƏT-in Minsk qrupunun ləğvi məqsədilə iki ölkənin ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti imzalandı və çox keçmədən bu faydasız qurum tarixin arxivinə verildi.

* Təsiri dayandırılmış 907-ci düzəlişi də eyni aqibət gözləyir!

* Ən əsası, Zəngəzur dəhlizinin "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" adı ilə açılması barədə də razılıq əldə edildi.

❖ ❖ ❖

Ermənistan Rusiyaya və dünya erməniliyinə arxalanaraq bizə qarşı illərlə düşmənçilik etdi.

* Ərazilərimizi işğalda saxlayaraq təbii sərvətlərimizi çapıb taladı.

* Torpaqlarımızı - Qarabağımızı Ermənistana birləşdirməkdən ötrü "miatsum" hərəkatına başladı, öz parlamentində bu barədə qərar çıxardı.

* Separatizmi gücləndirdi, qondarma respublika yaratdı, saxta "prezident" və "parlament" seçkiləri keçirdi.

* Terrorçu dəstəsi yaradaraq yaşayış məntəqələrinə hücumlar etdi, dinc əhalini el-obasından didərgin salaraq məcburi köçkünə çevirdi.

* Mülki əhalini girov götürərək olmazın işgəncələrini verdi, qocaya, qadına və uşağa rəhm etməyərək qətlə yetirdi, kütləvi məzarların yerini demədi.

* Xocalı, Qaradağlı, Ballıca, Başlıbel, Bağanis-Ayrım soyqırımlarını törətdi.

* Qəbiristanlıqlarımızı yerlə yeksan etdi, ölənlərin qızıl dişlərini çıxardı, başdaşlarını oğurlayıb apardı.

* Şəhər və kəndlərimizi dağıdıb evlərin tikinti materiallarını fars qardaşları ilə şərikinə İran bazarlarında sataraq pula çevirdi.

* Mədəni, tarixi, dini abidələrimizi dağıdaraq viran qoydu.

* Məscidlərimizdə inək, donuz saxlayaraq dinimizi, bütün islam dünyasını təhqir etdi.

* Şəhər, kənd və qəsəbələrimizdə daş üstə daş qoymadılar, Ağdamı ruhlar şəhərinə çevirdi.

* Ərazilərimizdə ekosid, urbisid həyata keçirdi.

* Torpaqlarımızda milyonlarla minalar basdıraraq onları zərərsizləşdirməkdən ötrü həqiqi xəritələri vermədi.

* 20 mindən çox vətən övladının şəhid getməsinə səbəb oldu!

Qazancı nə oldu?!

* 44 günlük müharibədə şərəfsizcəsinə məğlub oldu!

* Qarabağda yaşayanlar separatçılığa qurşandıqlarına, terrorçu dəstələrində Azərbaycan vətəndaşlarına qarşı qırğınlar törətdiklərinə görə ərazilərimizi könüllü tərk etdilər.

* Minlərlə erməni sonu məğlubiyyət və rüsvayçılıqla bitən müharibədə ölüb getdi.

* "Böyük Ermənistan" xülyası ilə yaşayanlar Ermənistanı da itirmək həddinə çatdılar.

* Alçaldıcı sülh şərtləri ilə barışmaq məcburiyyətində qaldılar, Ermənistana qayıdanlar isə ömürlərinin sonunadək "ikinci sort erməni" kimi yaşamalı olacaqlar.

* Bu münaqişə və müharibədə qazanan yalnız Ter-Petrosyan, Koçaryan və Sərkisyan kimi avantürist rəhbərlər oldular, xalqdan oğurlayaraq milyarderlərə çevrildilər.

* Erməni analarının "qazanc"ı isə Erabruldakı məzarlardır.

Onların da başdaşları oğurluqdur!

❖ ❖ ❖

Bir vaxtlar ATƏT-in Minsk qrupu və həmsədr dövlətlər bizə Ermənistanla əməkdaşlığa başlamağı, sonra isə Qarabağ münaqişəsini danışıqlar vasitəsilə həll etməyi məsləhət görürdülər.

Amma bu tövsiyələrində səmimi deyildilər.

Çünki bizi bu yolla işğalla barışmağa, "işğal faktı"nı qəbul etdirməyə çalışırdılar.

İlham Əliyev dəmir iradəsi ilə öz mövqeyindən, dediklərindən bir addım belə dala durmadı!

Qüdrətli ordu yaratdı, onu ən yeni texnologiyaya əsaslanan silah-sursatla təmin etdi, dördgünlük Aprel müharibəsində uğurla sınaqdan çıxardı, 44 günlük Zəfər müharibəsində isə "dəmir yumruq"la düşmənin başını əzərək qarşısında diz çökdürdü!

Ermənistan kapitulyasiya aktının bir neçə mühüm bəndinə əməl etmək istəmədikdə "dəmir yumruğ"unu yenidən işə saldı, bütün şərtlərinin yerinə yetirilməsinə nail oldu!

Bu gün Azərbaycanla Ermənistan əməkdaşlığa başlayıblar!

Amma bu, Azərbaycanın möhtəşəm qələbəsindən, ərazi bütövlüyünün bərpasından, Dövlət Suverenliyinin və Konstitusiya əsaslarının təmin edilməsindən, Rusiya Sülhməramlı Kontingentinin ərazimizdən çıxarılmasından sonra baş tutan əməkdaşlıqdır.

Ərazisində bir nəfər separatçı və erməni terrorçusu yaşamayan Azərbaycan məğlub Ermənistanla əməkdaşlıq edir!

* Həm də onun referendum yolu ilə Azərbaycanın tələb etdiyi Konstitusiya dəyişikliyini reallaşdıracağı şərti ilə!

* Həm də onun Zəngəzur dəhlizi ilə Naxçıvana sərbəst gediş-gəlişimizi təmin etməsi şərti ilə!

Bəli, bu gün qalib Azərbaycanla məğlubiyyətini etiraf etmiş Ermənistan əməkdaşlığa başlayaraq dinc dövrə qədəm qoymuşlar!

Əbədi müharibə yoxdur!

Əbədi qonşuluq isə tale qismətidir!


Tale bizə həm qalib dövlət şərəfini yaşamağı, düşməndən hərb meydanında qisasımızı almağı da nəsib etmişdir!

İlham Əliyevin Zəfər Günündə söylədiyi nitqindən iki iqtibasla sözümüzü sona yetiririk:

"Bu gün biz azad Qarabağda qurub-yaradırıq. Bu gün biz - bu torpaqların sahibləri bütün dünyaya göstəririk ki, bura bizim torpağımızdır. Çünki biz qurub-yaradan xalqıq".

"Bu gün Azərbaycan güclü dövlətdir, həm siyasi, həm iqtisadi, həm hərbi nöqteyi-nəzərindən heç kimdən asılı olmayan dövlətdir, müstəqil siyasət aparan dövlətdir və ləyaqətli dövlətdir".

Bəxtiyar SADIQOV



Güclü dövlət, ədalətli hüquq sistemi, fəal vətəndaş cəmiyyəti

MİLLİ İNKİŞAF STRATEGİYASININ ƏSAS İSTİQAMƏTLƏRİDİR

Müasir dünyada hər bir ölkənin dayanıqlı inkişafı, beynəlxalq nüfuzu və daxili sabitliyi iki fundamental dayaq üzərində qərar tutur: qanunun aliliyinə əsaslanan hüquqi dövlət və ictimai təşəbbüskarlığın fəal olduğu vətəndaş cəmiyyəti. Bu iki anlayış bir-birini tamamlayan, biri digəri olmadan tam mənasını tapa bilməyən ictimai-siyasi dəyərlərdir.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra bu istiqamətlər ölkəmizin siyasi və ictimai inkişaf strategiyasının mühüm tərkib hissəsinə çevrilib. Ötən dövr ərzində həyata keçirilən institusional islahatlar, qanunvericilik bazasının davamlı şəkildə təkmilləşdirilməsi, dövlət idarəçiliyinin müasirləşdirilməsi hüquqi dövlət quruculuğunun inkişafına geniş imkanlar yaradıb.

Azərbaycanda hüquqi dövlət quruculuğunun sistemli xarakter alması Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin müəyyənləşdirdiyi dövlətçilik strategiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi şəraitin çağırışlarına uyğun davam etdirilmiş, dövlət və vətəndaş münasibətlərinin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Xüsusilə 2025-ci ilin ölkədə "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlət suverenliyinin tam bərpası fonunda hüquqi dəyərlərin cəmiyyətdə daha dərindən möhkəmləndirilməsinə verilən strateji önəmin bariz göstəricisi olmuşdur.

Hüquqi dövlət quruculuğunun fundamental əsasları

Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi siyasi, iqtisadi və sosial böhran, dövlət idarəçiliyində mövcud olan ciddi problemlər ölkənin gələcək inkişafı qarşısında mühüm maneələr yaradırdı. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra dövlət quruculuğunda yeni strateji mərhələnin əsası qoyuldu. İctimai-siyasi sabitliyin bərqərar edilməsi, dövlət institutlarının formalaşdırılması və milli qanunvericilik sisteminin yaradılması qarşıda duran başlıca vəzifələrə çevrildi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın gələcək inkişafını demokratik, dünyəvi və hüquqi dövlət prinsipləri əsasında müəyyənləşdirdi. Onun rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası milli dövlətçilik tariximizdə böyük bir mərhələnin başlanğıcına çevrildi. Konstitusiyada insan, vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olundu. Hakimiyyət bölgüsü, qanunun aliliyi, siyasi plüralizm, mülkiyyət toxunulmazlığı, söz və fikir azadlığı, insanların qanun qarşısında bərabərliyi kimi fundamental prinsiplər Azərbaycanın hüquqi inkişaf modelinin əsasını təşkil etdi.

Ulu Öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu strategiyasının mühüm istiqamətlərindən biri məhkəmə-hüquq sisteminin yenidən formalaşdırılması idi. 1998-ci ildə Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, yeni məhkəmə sisteminin yaradılması, ölüm hökmünün ləğvi, insan hüquqlarının müdafiəsi üzrə dövlət proqramının qəbulu bu sahədə həyata keçirilən tarixi islahatlar sırasında xüsusi yer tutdu.

2001-ci ildə Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv olması, İnsan hüquqları üzrə müvəkkil - Ombudsman institutunun yaradılması ölkəmizin insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq hüquqi mexanizmlərə inteqrasiyasını daha da genişləndirdi. Ümummilli Liderin dövlətçilik fəlsəfəsində insan amili, vətəndaş məsuliyyəti və milli həmrəylik mühüm yer tuturdu. Onun siyasi irsinin hüquqi dövlət quruculuğu baxımından başlıca əhəmiyyəti müstəqil Azərbaycanın konstitusion inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində, dövlət institutlarının hüquqi əsaslarının yaradılmasında və uzunmüddətli islahatlar üçün zəmin formalaşdırılmasında öz ifadəsini tapır.

2003-cü ildən etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquqi dövlət quruculuğu siyasəti yeni inkişaf mərhələsinə qədəm qoydu və bu da təsadüfi deyildi. Çünki Azərbaycanın iqtisadi imkanlarının genişlənməsi, texnoloji inkişaf, beynəlxalq münasibətlər sistemində baş verən ardıcıl dəyişikliklər dövlət idarəçiliyinin təkmilləşdirilməsini və hüquqi mexanizmlərin müasirləşdirilməsini zəruri etmişdir.

Ölkə rəhbərinin həyata keçirdiyi islahatların əsas istiqamətlərini dövlət idarəçiliyində şəffaflığın artırılması, vətəndaş məmnunluğunun yüksəldilməsi, dövlət xidmətlərinin əlçatanlığının genişləndirilməsi, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə mexanizmlərinin gücləndirilməsi təşkil edir. Elektron məhkəmə sisteminin inkişafı, dövlət xidmətlərinin rəqəmsallaşdırılması, inzibati prosedurların sadələşdirilməsi və hüquqi yardım imkanlarının genişləndirilməsi vətəndaşların öz hüquqlarından istifadə etməsi üçün əlavə imkanlar yaradır. 2012-ci ildə yaradılmış "ASAN xidmət" modeli, ardınca fəaliyyətə başlayan DOST mərkəzləri dövlət-vətəndaş münasibətlərinin müasirləşdirilməsində xüsusi əhəmiyyət daşıyır. Bu təşəbbüslər Prezident İlham Əliyevin hüquqi dövlət quruculuğu strategiyasında institusional modernləşməyə, innovativ idarəetməyə və vətəndaşyönümlü xidmət modelinə verdiyi önəmi nümayiş etdirir.

Vətəndaş cəmiyyətinin inkişafı demokratik tərəqqinin mühüm şərtidir

Güclü vətəndaş cəmiyyəti hüquqi dövlətin dayanıqlığını təmin edən əsas amillərdəndir. Vətəndaşların ictimai proseslərdə fəal iştirakı, sosial təşəbbüslərin dəstəklənməsi, ictimai nəzarət mexanizmlərinin fəaliyyəti, fikir müxtəlifliyi və dövlət orqanları ilə cəmiyyət arasında konstruktiv dialoq demokratik inkişafın keyfiyyətini müəyyənləşdirir.

Azərbaycanda vətəndaş cəmiyyətinin hüquqi əsaslarının formalaşdırılması da Ulu Öndər Heydər Əliyevin dövlətçilik strategiyasının mühüm istiqamətlərindən olmuşdur. Konstitusiyada birləşmək azadlığının təsbit edilməsi, qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün qanunvericilik bazasının yaradılması, yerli özünüidarəetmə institutlarının formalaşdırılması ictimai iştirakçılığın inkişafına hüquqi zəmin yaratmışdır.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə vətəndaş cəmiyyəti institutlarının dəstəklənməsi və onların dövlət idarəçiliyində iştirak imkanlarının genişləndirilməsi istiqamətində yeni mexanizmlər formalaşmışdır. 2013-cü ildə qəbul edilmiş "İctimai iştirakçılıq haqqında" qanun bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Qanun ictimai şuraların yaradılması, ictimai dinləmələrin və müzakirələrin keçirilməsi, ictimai rəyin öyrənilməsi, qanun layihələrinin müzakirəsində vətəndaşların iştirakı üçün hüquqi imkanlar müəyyənləşdirmişdir.

Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının inkişafı və dövlətlə qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi istiqamətində də mühüm addımlar atılmışdır. Bunlardan biri Prezident İlham Əliyevin 2007-ci il 13 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması olmuşdur. Şuranın təsis edilməsi QHT-lərin fəaliyyətinin dəstəklənməsi, ictimai əhəmiyyətli layihələrin maliyyələşdirilməsi, vətəndaş təşəbbüslərinin təşviqi və dövlət-cəmiyyət münasibətlərinin inkişafı üçün yeni imkanlar yaratmışdır. Prezident İlham Əliyevin 2021-ci il 19 aprel tarixli fərmanı ilə sözügedən şuranın əsasında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi yaradılmışdır. Həyata keçirilən bu tədbirlər vətəndaş cəmiyyətinin inkişafının dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirilməsini, qeyri-hökumət təşkilatlarının ictimai həyatda rolunun artırılmasına və onların potensialının milli inkişaf proseslərinə yönəldilməsinə verilən əhəmiyyəti nümayiş etdirir. Prezident İlham Əliyev 2024-cü ilin fevralında keçirilən andiçmə mərasimindəki proqram xarakterli çıxışında da Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı istiqamətində ardıcıl addımların davam etdiriləcəyini xüsusi vurğulamışdır.

Bu dövr ölkəmizdə könüllülük fəaliyyətinin inkişafı da gənc nəslin sosial məsuliyyət, təşəbbüskarlıq, həmrəylik və vətənpərvərlik ruhunda yetişməsinə töhfə vermişdir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük əməyi sayəsində ölkəmizdə könüllülük hərəkatının genişlənməsi cəmiyyətin intellektual və sosial potensialının ölkənin inkişafına yönəldilməsi üçün əlverişli imkanlar yaradır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və ordumuzun gücü ilə qazandığımız Zəfər nəticəsində dövlətimizin ərazi bütövlüyünün, suverenliyinin bərpası milli dövlətçilik tariximizdə mühüm dönüş yaratdı, Azərbaycanın hüquqi-siyasi inkişafında yeni reallıqlar formalaşdırdı. Suverenliyin bərpası ölkənin bütün ərazisində konstitusiya normalarının tətbiqi, dövlət idarəetmə institutlarının fəaliyyətinin təşkili, vətəndaşların hüquqlarının təmin olunması və sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirilməsi baxımından yeni imkanlar açdı. İşğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, müasir yaşayış məntəqələrinin salınması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı sosial ədalətin təmin olunması, insanların layiqli həyat şəraitinin yaxşılaşdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu mərhələdə hüquqi dövlət quruculuğunun qarşısında duran mühüm vəzifələrdən biri kimi Azərbaycan dövləti həmin ərazilərdə səmərəli idarəetmə sistemi formalaşdırır, hüquqi təminatları, ictimai iştirakçılıq mexanizmlərini inkişaf etdirir.

Hüquqi dövlət və vətəndaş cəmiyyətinin inkişaf perspektivləri

Müasir dünyada hüquqi dövlət quruculuğu davamlı təkmilləşmə tələb edən dinamik prosesdir. Rəqəmsal transformasiya, süni intellekt texnologiyalarının geniş tətbiqi, informasiya təhlükəsizliyi, fərdi məlumatların qorunması və yeni sosial münasibətlərin formalaşması hüquq sistemləri qarşısında əlavə vəzifələr müəyyənləşdirir. Azərbaycanın gələcək inkişafı baxımından hüquqi maarifləndirmənin genişləndirilməsi, vətəndaşların hüquq mədəniyyətinin yüksəldilməsi, məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsi, ictimai nəzarətin səmərəliliyinin artırılması və dövlət orqanlarının hesabatlılığının təkmilləşdirilməsi mühüm prioritetlər sırasındadır.

Vətəndaş cəmiyyətinin dayanıqlı inkişafı üçün qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyət imkanlarının genişləndirilməsi, media azadlığının, fikir müxtəlifliyinə açıq mühitin qorunması, ictimai təşəbbüslərin təşviqi xüsusi əhəmiyyət daşıyır. Azərbaycan dövləti bu istiqamətlərdə də ardıcıl tədbirlər keçirir və atılan məqsədyönlü addımlar mühüm nailiyyətlərlə müşayiət olunur.

Dövlət institutlarının gücü, vətəndaşların hüquqi müdafiəsinin səviyyəsi və cəmiyyətin idarəetmə proseslərində fəal iştirakı qarşılıqlı şəkildə bir-birini tamamlayır. Bu amillər dövlətlə vətəndaş arasında etimadın möhkəmlənməsinə, sosial həmrəyliyin dərinləşməsinə və milli inkişafın dayanıqlığının təmin olunmasına xidmət edir. Güclü dövlət, ədalətli hüquq sistemi və fəal vətəndaş cəmiyyəti Azərbaycanın davamlı inkişafının, milli birliyinin və gələcək nəsillərin rifahının başlıca təminatlarıdır.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Regionda dayanıqlı sülhün bərqərar olması üçün atılan mühüm siyasi-hüquqi addım

Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan tərəfindən ölkənin yeni konstitusiya layihəsinin ictimaiyyətə təqdim edilməsi və sənədin preambulasında Müstəqillik Bəyannaməsinə istinadın yer almaması Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması baxımından mühüm siyasi hadisədir. Bu həm də Cənubi Qafqazda uzunmüddətli, dayanıqlı sülhün bərqərar olması üçün atılan mühüm siyasi-hüquqi addımdır.



Azərbaycanın bu məsələdə mövqeyi əvvəldən aydın, ardıcıl və prinsipial olmuşdur. Ermənistanın hazırkı konstitusiyasının preambulasında istinad edilən 1990-cı il Müstəqillik Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinə dair ərazi iddiaları ilə bağlı müddəaların olması iki dövlət arasında sülhün hüquqi əsaslarının üçün ciddi maneə kimi qiymətləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, sülh sazişinin imzalanması üçün Ermənistanın konstitusion-hüquqi çərçivəsində Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırılmalıdır. Dövlətimizin başçısının bu prinsipial və ardıcıl mövqeyi sülh prosesinin etibarlı hüquqi əsaslar üzərində qurulmasına, gələcəkdə ərazi iddialarının qaldırılmamasına xidmət edir. Möhkəm hüquqi təməl üzərində qurulmuş sülh həm də revanşist meyillərin yenidən ortaya çıxmasının qarşısının alınmasında ciddi institusional əsas ola bilər.

Bu baxımdan Ermənistanda ictimaiyyətə açıqlanmış yeni konstitusiya layihəsində Müstəqillik Bəyannaməsinə istinadın olmaması Azərbaycanın uzun müddətdir gündəmə gətirdiyi əsas məsələlərdən birinin həlli istiqamətində konkret və müsbət addımdır. Eyni zamanda layihədə sülhün xarici siyasətin prioriteti kimi müəyyənləşdirilməsi, bütün dövlətlərlə mehriban qonşuluq və qarşılıqlı faydalı münasibətlərin qurulmasının vurğulanması da diqqətəlayiqdir. Bu müddəalar Ermənistanın siyasi-hüquqi yanaşmasında qarşıdurma məntiqindən əməkdaşlıq və sülh gündəliyinə keçid baxımından əhəmiyyətli siqnal kimi dəyərləndirilə bilər.

Yeni konstitusiya layihəsinin preambulasında yer alan formulda iki mühüm dəyişiklik diqqəti cəlb edir: Müstəqillik Bəyannaməsinə istinadın olmaması və Ermənistan dövlətçiliyinin beynəlxalq səviyyədə tanınmış ərazi çərçivəsində müəyyənləşdirilməsi.

"Biz, Ermənistan Respublikasının xalqı, dövlətçiliyimizin davamlılığı və inkişafı naminə, beynəlxalq səviyyədə tanınmış ərazimizdə müstəqil, dinc, təhlükəsiz və firavan dövlət qurmaq, bu dövləti nəsildən-nəslə ötürmək missiyasını rəhbər tutaraq Ermənistan Respublikasının Konstitusiyasını qəbul edirik".

Bu məsələ həmçinin 8 avqust 2025-ci ildə Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanmış Birgə Bəyannamənin həyata keçirilməsi kontekstində xüsusi əhəmiyyət daşıyır. Həmin tarixi sülh sammitində iki ölkənin xarici işlər nazirləri sülh sazişinin razılaşdırılmış mətnini paraflamış, tərəflər sənədin imzalanması və ratifikasiyasına nail olmaq üçün növbəti addımların atılmasının zəruriliyini təsdiqləmişlər.

Vaşinqton Birgə Bəyannaməsinin mətnində sülh sazişinin imzalanması və ratifikasiyası istiqamətində fəaliyyətin davam etdirilməsi, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət, beynəlxalq sərhədlərin toxunulmazlığı və revanşizmin rədd edilməsi kimi prinsiplər xüsusi əhəmiyyət daşıyır. Ermənistanın yeni konstitusiya layihəsində edilən dəyişiklik məhz bu prinsiplərin ölkənin ali hüquqi sənədində öz əksini tapması istiqamətində mühüm irəliləyiş kimi qiymətləndirilə bilər.

Eyni zamanda nəzərə alınmalıdır ki, konstitusiya layihəsinin ictimaiyyətə açıqlanması hələ onun hüquqi qüvvəyə minməsi demək deyil. Növbəti mərhələdə müvafiq konstitusion prosedurların tamamlanması və yeni konstitusiyanın qəbul edilməsi mühüm əhəmiyyət daşıyır. Yalnız bu prosesin uğurla başa çatması Azərbaycan ilə Ermənistan arasında paraflanmış sülh sazişinin imzalanmasına və sonrakı ratifikasiyası yolundakı əsas maneənin aradan qaldırılmasına imkan yaradacaqdır. Sazişin qüvvəyə minməsi hazırkı de fakto sülhün de yure sülhə çevrilməsi üçün mühüm hüquqi-siyasi baza olacaqdır. Saziş həmçinin dövlətlərarası münasibətlərin normallaşdırılmasını sürətləndirəcəkdir.

Şübhəsiz ki, bu prosesin əhəmiyyəti yalnız ikitərəfli münasibətlərlə məhdudlaşmır. Azərbaycan və Ermənistan arasında dayanıqlı sülhün hüquqi və siyasi əsaslarının möhkəmləndirilməsi bütövlükdə Cənubi Qafqazda təhlükəsizliyin gücləndirilməsinə, nəqliyyat və kommunikasiya əlaqələrinin açılmasına, iqtisadi əməkdaşlığın genişlənməsinə və qarşılıqlı etimad mühitinin formalaşmasına xidmət edəcəkdir. Xüsusilə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin olunması və Vaşinqtonda razılaşdırılmış TRIPP təşəbbüsünün həyata keçirilməsi regionun beynəlxalq nəqliyyat və ticarət marşrutlarında rolunu daha da artıracaqdır.

Azərbaycan 2020-ci ildə Vətən müharibəsində qazandığı tarixi Qələbədən və 2023-cü ildə suverenliyini tam bərpa etdikdən sonra regionda sülh gündəliyinin əsas təşəbbüskarı kimi çıxış etmişdir. Prezident İlham Əliyevin uzaqgörən, ardıcıl və prinsipial siyasəti nəticəsində formalaşmış yeni regional reallıqlar Cənubi Qafqazda qarşıdurma dövrünün arxada qalması və dövlətlərarası münasibətlərin beynəlxalq hüququn prinsipləri əsasında qurulması üçün tarixi imkan yaratmışdır.

Beləliklə, Ermənistanın yeni konstitusiya layihəsində Müstəqillik Bəyannaməsinə istinadın yer almaması Azərbaycan Prezidentinin uzun illər ərzində nümayiş etdirdiyi prinsipial mövqeyin əhəmiyyətini bir daha təsdiqləyir. Bu addımın yekun hüquqi təsbitini tapması paraflanmış sülh sazişinin imzalanmasına və ratifikasiyasına, bununla da Azərbaycan və Ermənistan arasında münasibətlərin tam normallaşmasına mühüm töhfə verə bilər. Ən başlıcası isə bu, Cənubi Qafqazın qarşıdurma məkanından davamlı sülh, sabitlik, mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq regionuna çevrilməsi yolunda tarixi mərhələ ola bilər.

Rizvan NƏBİYEV,
Milli Məclisin deputatı

"Vətən Müharibəsi Qəhrəmanı" - şücaətin və fədakarlığın ali təcəssümü

Bu ali ad 2020-ci il noyabrın 26-da təsis edilmişdir

Xalqımızın tarixində müstəsna yer tutan 44 günlük Vətən müharibəsi milli birliyin, vətənpərvərliyin, hərbi peşəkarlığın və torpağa bağlılığın parlaq nümunəsinə çevrildi. 2020-ci ilin payızında Azərbaycan Ordusunun həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində uzun illər işğal altında qalmış ərazilərimizin böyük hissəsi azad edildi, ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində tarixi nəticələr əldə olundu. Bu qələbənin qazanılmasında misilsiz şücaət göstərən, mürəkkəb döyüş tapşırıqlarını uğurla yerinə yetirən, Vətənin müdafiəsi naminə canından keçməyə hazır olan hərbçilərimizin xidmətlərinin dövlət səviyyəsində qiymətləndirilməsi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi dövlətimizin qəhrəmanlarına göstərdiyi ehtiramın, onların xidmətlərinə verdiyi yüksək qiymətin ifadəsidir.

Prezident İlham Əliyevin imzaladığı 2020-ci il 26 noyabr tarixli qanunla Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adı təsis edilmiş və həmin ad haqqında Əsasnamə təsdiqlənmişdir. Bu adın təsis olunması Vətən müharibəsində qazanılan tarixi Zəfərin dövlətçilik tariximizdə əbədiləşdirilməsi, hərbçilərimizin döyüş meydanında göstərdikləri qəhrəmanlıqların layiqincə qiymətləndirilməsi baxımından mühüm hadisədir. "Vətən Müharibəsi Qəhrəmanı" adı Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin azad olunması zamanı mürəkkəb şəraitdə qarşıya qoyulan döyüş tapşırıqlarının yerinə yetirilməsinə, dövlət sərhədinin bərpası istiqamətində aparılan hərbi əməliyyatlara yüksək peşəkarlıqla rəhbərlik edilməsinə, eləcə də döyüşlərdə göstərilən şəxsi qəhrəmanlığa görə verilir. Bu meyarlar hərbi xidmət zamanı yalnız fiziki cəsarətin deyil, həm də strateji düşüncənin, idarəetmə bacarığının, yüksək məsuliyyət hissinin və hərbi intizamın xüsusi əhəmiyyət daşıdığını göstərir.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi Azərbaycan tarixində yeni mərhələnin əsasını qoydu. Otuz ilə yaxın davam edən münaqişə nəticəsində doğma torpaqlarından didərgin düşmüş yüz minlərlə azərbaycanlının yurd həsrətinə son qoyulması üçün mühüm tarixi imkan yarandı. Azərbaycan Ordusunun əsgər və zabitləri mürəkkəb relyefə, çətin iqlim şəraitinə və qarşı tərəfin qurduğu güclü istehkam sistemlərinə baxmayaraq, qarşılarına qoyulan döyüş tapşırıqlarını cəsarətlə yerinə yetirdilər. Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Şuşanın və digər yaşayış məntəqələrinin azad olunması müharibənin nəticələrini müəyyənləşdirən mühüm hadisələr kimi tarixə düşdü. Vətən müharibəsində qazanılan qələbənin arxasında minlərlə hərbçinin fədakarlığı, zəhməti, iradəsi və Vətənə sədaqəti dayanırdı. Onların hər biri üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdi. Döyüş meydanında silahdaşlarının həyatını qoruyan, yaralanmasına baxmayaraq, mübarizəsini davam etdirən, mürəkkəb şəraitdə məsuliyyətli qərarlar qəbul edən hərbçilərimizin göstərdikləri şücaət xalqımızın qəhrəmanlıq salnaməsinin ayrılmaz hissəsinə çevrildi.

Müxtəlif hərbi rütbələrə malik şəxslərin bu ada layiq görülməsi qəhrəmanlığın yalnız rütbə və vəzifə ilə məhdudlaşmadığını göstərir. Hər bir əsgərin fərdi təşəbbüsü, hər bir zabitin düzgün qərarı, hər bir komandirin peşəkarlığı döyüş əməliyyatlarının nəticəsinə təsir göstərən mühüm amillərdəndir. Vətən müharibəsində nümayiş etdirilən bu keyfiyyətlər hərbi həmrəyliyin, qarşılıqlı etimadın və ümumi məqsəd ətrafında birləşməyin əhəmiyyətini bir daha ortaya qoydu. "Vətən Müharibəsi Qəhrəmanı" adının xüsusi fərqlənmə nişanı olan eyniadlı medal da özünəməxsus xüsusiyyətləri ilə seçilir. Medal 900 əyarlı qızıldan hazırlanmış, biri digərinin üzərində yerləşdirilmiş iki səkkizguşəli ulduzdan ibarətdir. Diametri 42 millimetr olan medalın aşağı hissəsindəki ulduz ağ, yuxarı hissəsindəki ulduz isə sarı qızıldan hazırlanmışdır. Medalın bədii tərtibatında istifadə olunan səkkizguşəli ulduz Azərbaycanın dövlət rəmzləri ilə mənəvi bağlılığı ifadə edir. Bu ali fərqlənmə nişanı yalnız hərbi xidmətlərin qiymətləndirilməsi vasitəsi deyil, eyni zamanda tarixi Zəfərin rəmzlərindən biridir.

Vətən müharibəsinin qəhrəmanları Azərbaycan xalqının müxtəlif nəsillərdən gələn mübarizlik ənənələrinin davamçılarıdır. Tarix boyu Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə aparmış insanların həyat yolu milli yaddaşımızın formalaşmasında mühüm rol oynayıb. Müasir dövrün qəhrəmanları isə bu tarixi irsə yeni səhifələr əlavə edərək gələcək nəsillər üçün örnək olublar. Onların həyat və döyüş yollarının öyrənilməsi, sənədləşdirilməsi, ictimaiyyətə çatdırılması milli-mənəvi dəyərlərimizin qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri Vətən müharibəsində əldə olunan nəticələrin yeni inkişaf mərhələsinə çevrilməsinin göstəricisidir. İşğaldan azad edilmiş ərazilərdə yaşayış məntəqələrinin yenidən qurulması, müasir infrastrukturun yaradılması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtması müharibədən sonrakı dövrün əsas istiqamətlərini təşkil edir. Bu torpaqlarda həyatın yenidən canlanması onların azadlığı uğrunda mübarizə aparmış insanların fədakarlığının tarixi əhəmiyyətini daha aydın nümayiş etdirir.

Qəhrəmanların xatirəsinə sədaqət yalnız onların adlarının əbədiləşdirilməsi ilə məhdudlaşmamalıdır. Azad edilmiş torpaqların dirçəldilməsi, tarixi-mədəni irsin qorunması, davamlı inkişafın təmin olunması, gələcək nəsillər üçün təhlükəsiz və firavan həyat şəraitinin yaradılması da həmin ehtiramın mühüm ifadəsidir. Müharibənin ağır nəticələrinin aradan qaldırılması, insanların doğma yurdlarında dinc həyat sürməsi və regionda dayanıqlı sülhün təmin edilməsi qazanılmış nəticələrin uzunmüddətli əhəmiyyətini artıran başlıca amillərdəndir.

Bu il "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsindən altı il ötür. Ötən müddət ərzində bu ali ad Azərbaycanın müasir qəhrəmanlıq tarixinin, milli yaddaşının və hərbi şücaət ənənələrinin mühüm rəmzlərindən birinə çevrilib. Hər bir qəhrəmanın həyat yolu, göstərdiyi igidlik və Vətən qarşısındakı xidmətləri xalqımızın tarixi irsinin qiymətli səhifəsidir. Onların keçdikləri yol gələcək nəsillərə doğma torpağa bağlılığın, vətəndaşlıq borcuna sədaqətin və ümumi mənafelər naminə fədakarlığın mahiyyətini anlamağa imkan verir.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"



Azərbaycan-ABŞ əlaqələri ən yüksək səviyyədədir

İki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq müstəvisində inkişaf edir

Son illərdə Cənubi Qafqazda formalaşan yeni geosiyasi reallıqlar regionun iqtisadi və nəqliyyat mənzərəsini kökündən dəyişib. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi və regionda dayanıqlı sülh gündəliyini irəli sürməsi təkcə siyasi sabitlik yaratmayıb, həm də uzun illər bağlı qalan kommunikasiya xətlərinin açılması üçün tarixi zəmin formalaşdırıb. Bu yeni reallıqların məntiqi nəticəsi olaraq, Asiya ilə Avropanı birləşdirən əsas quru marşrutlarının şaxələndirilməsi gündəmə gəlib və bu prosesin mərkəzində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) dayanır.

Əməkdaşlıq dövrü

Layihənin siyasi və hüquqi əsaslarına 2025-ci ilin avqustunda Vaşinqtonda keçirilən görüşlər zamanı qoyuldu. ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında imzalanan Birgə Bəyannamə regional əlaqələrin bərpasını rəsmiləşdirdi. Həmin səfər çərçivəsində iki ölkənin xarici işlər nazirləri tərəfindən sülh sazişinin mətninin paraflanması isə regionda yeni əməkdaşlıq dövrünün başlandığını təsdiqlədi.

Vaşinqton görüşləri zamanı Prezident İlham Əliyev Azərbaycanın əsas məqsədinin həm sülh, həm də maneəsiz əlaqə olduğunu açıq şəkildə bəyan etmişdi. Dövlət başçısı media nümayəndələrinə müsahibəsində bu prosesin bütün region, o cümlədən Ermənistan üçün açacağı imkanları belə izah etmişdi: "Bu gün Azərbaycan və Ermənistan arasında imzalanan sənəd isə bizim niyyətlərimizi açıq şəkildə göstərir: Biz sülh istəyirik, amma, eyni zamanda əlaqə istəyirik. Ölkəmizin iki hissəsi arasında təhlükəsiz keçid yaratmaq istəyirik ki, bu da daha geniş region, hətta Ermənistan üçün çoxlu imkanlar açacaq... ...Bu nəqliyyat marşrutu - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) başqa bir tarixi nailiyyət olacaq. Amma dediyim kimi, vaxt itirməməliyik. Ən qısa zamanda işə başlamalıyıq. Bu obyektə ABŞ rəhbərlik edəcək və ümidvaram ki, bütün region ölkələrinin xeyrinə olacaq bu əlaqə xətlərinin qurulması kimi mühüm vəzifələri öz üzərinə götürəcək investorlar tapılacaq".

Cari il noyabrın 23-də ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan videomüraciətlər vasitəsilə layihənin praktiki icrasına rəsmi start verildiyini elan etdilər.

"Ermənistan və ABŞ hökumətləri tərəfindən birgə həyata keçirilən TRIPP layihəsinin və regional blokadanın aradan qaldırılmasının praktiki mərhələsinin başlanması barədə elan etmək böyük şərəfdir. Bu, Ermənistanın müasir tarixində tarixi bir hadisədir. Biz müstəqillik qazandıqdan bəri Ermənistanda ən böyük iqtisadi proqramı başladırıq", - deyə Paşinyan bildirib.

Layihənin idarə olunması üçün ABŞ və Ermənistanın iştirakı ilə xüsusi şirkətin yaradılması nəzərdə tutulur.

Vaşinqtonda atılan diplomatik addımlar praktik mərhələyə keçib

Hazırda Azərbaycan-ABŞ əlaqələri özünün ən yüksək səviyyəsindədir. İki ölkə arasında imzalanan strateji tərəfdaşlıq haqqında Xartiya münasibətləri strateji tərəfdaşlığa çevirib. Vaşinqtonun regional əlaqələrin inkişafına və TRIPP marşrutuna olan marağı isə bu əlaqələri daha da möhkəmləndirir.

Fevralın 10-da ABŞ vitse-prezidenti Cey. Di. Vens Prezident İlham Əliyev ilə mətbuata birgə bəyanatında quru tranzit bağlantıların əhəmiyyətini vurğulamışdı: "Biz fərəhlə elan edirik və düşünürəm ki, mən Azərbaycanın iki hissəsini birləşdirəcək Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu ilə bağlı gələn ilk şəxs oldum".

ABŞ-nin daxili təhlükəsizlik naziri Markveyn Mullinin bu il noyabrda Azərbaycana səfəri bir daha ikitərəfli münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçidindən xəbər verdi. Markveyn Mullin Prezident İlham Əliyevin qəbulunda olarkən TRIPP marşrutu da xüsusi müzakirə olunub, TRIPP layihəsinin tam işə düşməsinin regionlararası bağlantılara və iqtisadi-ticari əlaqələrə verəcəyi töhfələr, eləcə də qarşılıqlı səfərlər fonunda əməkdaşlığın gələcək perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan bu prosesdə üzərinə düşən öhdəliklərə sadiq qalaraq, öz ərazisindəki dəmir yolu və avtomobil yolu infrastrukturunu böyük ölçüdə tamamlayıb. Bakı regional nəqliyyat şəbəkəsinin tam gücü ilə işə düşməsi üçün qarşı tərəfdəki işlərin yekunlaşmasını gözləyir və prosesi diqqətlə izləyir.

Layihənin rəsmi başlanğıcına həsr olunmuş videomüraciətində ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevə Vaşinqtonla əməkdaşlığa, sülh gündəliyinin irəlilədilməsinə və layihənin reallaşmasına verdiyi töhfələrə görə təşəkkürünü ifadə edib.

ABŞ Prezidenti Donald Trampın təşəkkür mesajına cavab verən Prezident İlham Əliyev də "X" hesabında Bakının bu təşəbbüsə dəstəyini bir daha vurğulayıb: "Əziz Prezident Donald Tramp, "Trump Route for International Peace and Prosperity" (TRIPP) layihəsinin işə salınması münasibətilə mənə ünvanladığınız xoş sözlərə görə səmimi təşəkkürümü bildirmək istəyirəm".

TRIPP layihəsi təkcə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa quru əlaqəsini təmin etməklə kifayətlənmir. Bu marşrut Çin və Mərkəzi Asiyadan başlayaraq, Xəzər dənizi və Cənubi Qafqaz üzərindən Avropaya uzanan Orta dəhlizin ötürücülük qabiliyyətini artırır. Eyni zamanda avtomobil və dəmir yolları ilə yanaşı, enerji və fiber-optik rabitə xətlərinin çəkilməsi dənizə çıxışı olmayan region ölkələri üçün yeni ticarət və investisiya imkanları formalaşdırır.

Beynəlxalq aktorların bu prosesə marağı da layihənin strateji əhəmiyyətini təsdiqləyir. Vaşinqtonun regional sabitliyə verdiyi dəstək, Avropa İttifaqının Mərkəzi Asiya ilə alternativ enerji və logistika xətlərini genişləndirmək istəyi, eləcə də Çinin sabit ticarət marşrutlarına olan tələbatı TRIPP-ın qlobal iqtisadi dövriyyəyə sürətli inteqrasiyasını şərtləndirir.

Bir sözlə, ötən il Vaşinqtonda atılan diplomatik addımların cəmi bir il sonra praktik mərhələyə keçməsi Cənubi Qafqazda yeni bir mərhələnin başlanğıcından xəbər verir. Azərbaycanın regionda yaratdığı əməkdaşlıq mühiti və vaxtında gördüyü infrastruktur hazırlıqları sayəsində bu marşrut təkcə nəqliyyat dəhlizi kimi deyil, həm də uzunmüddətli sülhün və qarşılıqlı iqtisadi asılılığın əsas təminatçısı kimi çıxış edəcək.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Azərbaycan-İtaliya iqtisadi tərəfdaşlığının yeni hədəfləri



Beynəlxalq iqtisadi münasibətlərin inkişafı, dövlətlər arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və strateji tərəfdaşlıq əlaqələrinin möhkəmləndirilməsi hər bir ölkənin iqtisadi inkişafında mühüm rol oynayır. Qloballaşan dünya iqtisadiyyatında ölkələr arasında ticarət, investisiya, enerji, nəqliyyat və sənaye sahələrində əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan ilə İtaliya arasında formalaşmış iqtisadi münasibətlər diqqətəlayiq nümunələrdəndir.

Azərbaycan-İtaliya münasibətləri sürətlə inkişaf edir. Gələn il bu münasibətlərin qurulmasının 35-ci ildönümü qeyd ediləcək. İki ölkə arasında iqtisadi əlaqələrin də bu münasibətlərdə özünəməxsus yeri var. İqtisadi əməkdaşlığın yeni istiqamətlər üzrə inkişafı Bakıda keçirilən Azərbaycan-İtaliya biznes-forumunda da öz əksini tapıb. 250-dən çox şirkətin nümayəndələrinin iştirak etdiyi tədbirdə ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, sənaye əməkdaşlığı, texnologiyaların tətbiqi və yeni birgə layihələrin həyata keçirilməsi məsələləri müzakirə olunub. Tədbir çərçivəsində Azərbaycan və İtaliyanın dövlət qurumları, şirkətləri arasında 7 əməkdaşlıq sənədi imzalanıb və mübadilə edilib.

Forum çərçivəsində müzakirə olunan əsas məsələlərdən biri ticarət əlaqələrinin genişləndirilməsi olub. İqtisadiyyat naziri Mikayıl Cabbarovun bildirdiyinə görə, 2025-ci ildə Azərbaycan və İtaliya arasında ticarət dövriyyəsi 12 milyard dollara yaxınlaşıb, 2026-cı ilin ilk doqquz ayında isə 9 milyard dolları ötüb. İtaliya Azərbaycanın ən böyük ticarət tərəfdaşı və əsas ixrac bazarı mövqeyini qoruyur.

Nəqliyyat və logistika sahəsində əməkdaşlıq indi yeni perspektivlər vəd edir. Forumda Ələt Azad İqtisadi Zonasında hava limanının və müvafiq logistika infrastrukturunun yaradılması ilə bağlı əldə olunan razılaşma açıqlanıb. Layihə üçün 750 hektar ərazi ayrılıb. İlkin mərhələdə illik 500 min ton yükdaşıma qabiliyyətinə malik olacaq hava limanının gələcəkdə bu göstəricisinin 2 milyon tona çatdırılması nəzərdə tutulur. Layihənin Azərbaycanın beynəlxalq logistika və yükdaşıma imkanlarının genişlənməsinə töhfə verəcəyi gözlənilir.

Enerji sahəsində əməkdaşlıq Azərbaycan-İtaliya iqtisadi münasibətlərinin əsas sütunlarındandır. Azərbaycanın təbii qazının "Cənub qaz dəhlizi" vasitəsilə İtaliya bazarına çatdırılması bu tərəfdaşlığın strateji əhəmiyyətini bir qədər də artırır. Azərbaycan qazının Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə İtaliyaya və digər Avropa ölkələrinə nəqli bu əməkdaşlığın miqyasını və əhəmiyyətini xeyli artırır.

Azərbaycan İtaliyanın mühüm neft və qaz təchizatçılarından biridir. Qısaca desək, Azərbaycan və İtaliya enerji sahəsində də etibarlı tərəfdaşdırlar.

Bakıda keçirilən biznes-forumda bu məsələyə toxunan İtaliyanın baş nazirinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani Azərbaycanın İtaliyanın enerji təhlükəsizliyindəki rolunu xüsusi vurğulayıb. O bildirib ki, Azərbaycan İtaliyanın ikinci ən böyük neft, üçüncü ən böyük təbii qaz təchizatçısıdır. Enerji əməkdaşlığının yeni mərhələsi SOCAR-ın İtaliya bazarında fəaliyyətinin genişlənməsi ilə də səciyyələnir. Antonio Tayani SOCAR-ın may ayında İtaliyanın "Italiana Petroli" şirkətində nəzarət payını əldə etməsindən sonra yanacaq bazarında atdığı addımlara da diqqət çəkib. Xüsusilə benzin və dizel qiymətlərinin müəyyən həddə saxlanılmasına yönələn tədbirlərin İtaliya istehlakçıları üçün daha əlverişli qiymət mühiti yaratdığını qeyd edib. Bu fakt Azərbaycan şirkətinin İtaliya bazarında yalnız investor kimi deyil, həm də ölkənin yanacaq sektorunun inkişafında iştirak edən mühüm iqtisadi tərəfdaş kimi mövqeyini göstərir.

Azərbaycan və İtaliya arasında nəqliyyat, logistika və sənaye sahələrində əməkdaşlığın genişləndirilməsi də bu gün diqqət mərkəzindədir. Milli Məclisin deputatı Rövşən Muradovun qənaəti belədir ki, Orta dəhlizin inkişafı, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının imkanları və Ələt Azad İqtisadi Zonasının fəaliyyəti Azərbaycan-İtaliya əməkdaşlığına yeni iqtisadi məzmun qazandıra bilər. Təbii ki, tranzit potensialının real iqtisadi gəlirə çevrilməsi təkcə yükdaşımaların həcminin artırılmasından ibarət olmamalıdır: "Burada logistika xərclərinin optimallaşdırılması, gömrük prosedurlarının rəqəmsallaşdırılması, yükdaşımaların proqnozlaşdırıla bilməsi və marşrut boyunca koordinasiyanın gücləndirilməsi əsas şərtlərdir. İtaliya müəssisələrinin Azərbaycanda istehsal və logistika mərkəzləri yaratması ölkəmizin yalnız tranzit ərazi kimi deyil, regional istehsal və paylama platforması kimi mövqeyini də gücləndirə bilər. Beləliklə, nəqliyyat infrastrukturu sənaye investisiyalarını stimullaşdıran, sənaye investisiyaları isə nəqliyyat dəhlizlərinin iqtisadi səmərəliliyini artıran qarşılıqlı inkişaf mexanizminə çevrilə bilər".

Qarabağ və Şərqi Zəngəzurun bərpası çərçivəsində həyata keçirilən "yaşıl enerji", "ağıllı şəhər" və müasir infrastruktur layihələri İtaliya şirkətlərinin mühəndislik və texnoloji imkanlarından istifadə üçün əlavə iqtisadi əməkdaşlıq istiqamətləri yaradır. Xüsusilə bərpaolunan enerji mənbələrinin inkişafı, elektrik şəbəkələrinin qurulması, sənaye və nəqliyyat infrastrukturunun yenilənməsi sahələrində İtaliya şirkətlərinin iştirakı üçün geniş imkanlar mövcuddur. Eyni zamanda yaşayış məntəqələrinin müasir şəhərsalma prinsipləri əsasında qurulması, enerji səmərəliliyinin artırılması və ekoloji standartların tətbiqi də əməkdaşlığın perspektivli istiqamətləri sırasındadır.


Bu layihələrdə İtaliya şirkətlərinin iştirakı yalnız maliyyə və investisiya qoyuluşları ilə məhdudlaşmamalı, həm də qabaqcıl texnologiyaların Azərbaycana gətirilməsini, yerli mütəxəssislərin hazırlanmasını və istehsal potensialının genişləndirilməsini əhatə etməlidir. Belə mövqe Azərbaycanın regionların iqtisadi reinteqrasiyası və dayanıqlı inkişafı məqsədlərinə töhfə verməklə yanaşı, İtaliya şirkətləri üçün də yeni fəaliyyət və investisiya imkanları açа bilər.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Regionun əsas logistika mərkəzi

Azərbaycan uğurlu diplomatiyası və müasir nəqliyyat infrastrukturu ilə Avrasiyanın ticarət xəritəsini yenidən formalaşdırır

Dəyişən geosiyasi reallıqlar qlobal nəqliyyat xətlərinin şaxələndirilməsini zərurətə çevirib. Ölkələr və bölgələr arasında yüklərin təhlükəsiz və operativ daşınması dövlətlərin iqtisadi strategiyalarının əsasını təşkil edir. Belə bir şəraitdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və məqsədyönlü siyasət nəticəsində Azərbaycan Avrasiya məkanının əsas nəqliyyat-logistika mərkəzinə, Şərqlə Qərb arasında etibarlı körpüyə çevrilib.



Avropa ilə Asiyanın qovşağında yerləşən ölkəmiz təkcə coğrafi üstünlükləri ilə deyil, həm də illər ərzində formalaşdırdığı müasir nəqliyyat infrastrukturu ilə qlobal logistika sistemində özünəməxsus yer tutur. Xəzər dənizinə birbaşa çıxış, güclü ticarət donanması, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, Ələt Azad İqtisadi Zonası və beynəlxalq standartlara cavab verən magistral avtomobil yolları şəbəkəsi Azərbaycanın tranzit potensialını şərtləndirən əsas amillərdir. Bu strateji obyektlərin əlaqələndirilmiş şəkildə fəaliyyəti yükdaşımaların səmərəliliyini artırmaqla yanaşı, logistika xərclərini optimallaşdırır və beynəlxalq daşıyıcılar üçün cəlbedici mühit yaradır.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər hövzəsində ən böyük və müasir logistika mərkəzlərindən biri kimi regional yük axınlarının idarə olunmasında aparıcı rol oynayır. Limanın yükaşırma qabiliyyətinin mərhələli şəkildə artırılması, müasir terminalların istifadəyə verilməsi və dəmir yolu şəbəkəsi ilə birbaşa inteqrasiyası beynəlxalq daşımaların fasiləsizliyini təmin edir. Eyni zamanda limana bitişik ərazidə yaradılan Ələt Azad İqtisadi Zonası xarici investorlar üçün unikal biznes mühiti təqdim etməklə, ölkəmizin yüksəktexnologiyalı istehsal və ixrac mərkəzinə çevrilməsinə güclü təkan verir.

Azərbaycanın qlobal nəqliyyat sistemində rolunun genişlənməsində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, yəni Orta dəhliz müstəsna əhəmiyyət daşıyır. Çin və Mərkəzi Asiyadan başlayaraq, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanan bu marşrut artıq sadəcə alternativ yol deyil, Avrasiya ticarətinin əsas dayağına çevrilib. Çindən yola salınan konteyner blok-qatarlarının Orta dəhliz vasitəsilə təyinat nöqtəsinə 18-20 günə çatması Süveyş kanalı üzrə 40 gündən çox çəkən dəniz daşımaları ilə müqayisədə iki dəfə sürətli və iqtisadi cəhətdən sərfəlidir. Məhz bu üstünlüklərin nəticəsidir ki, 2026-cı ilin yanvar-sentyabr aylarında Azərbaycan ərazisindən tranzit daşımalarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən altı dəfə artaraq 8 min tonu ötüb, Dünya Bankının qiymətləndirmələri isə 2030-cu ilə qədər bu marşrut üzrə ticarət həcminin üç dəfədən çox artacağını proqnozlaşdırır.

Orta dəhlizin səmərəliliyinin artırılması həm də marşrutboyu yerləşən ölkələr arasında sıx koordinasiya tələb edir. Azərbaycan bu istiqamətdə Mərkəzi Asiya respublikaları, Gürcüstan, Türkiyə və Çin ilə ikitərəfli və çoxtərəfli formatlarda fəal əməkdaşlıq edərək vahid tarif siyasətinin tətbiqinə, gömrük prosedurlarında "bir pəncərə" prinsipinin genişləndirilməsinə nail olur. Xəzər dənizində ən böyük ticarət donanmasına sahib olan ölkəmiz yeni nəsil bərələrin və quru yük gəmilərinin inşasını davam etdirməklə dəniz daşımalarındakı dar boğazları aradan qaldırır və dəhlizin etibarlılığını beynəlxalq tərəfdaşlar üçün daha da cəlbedici edir.

Orta dəhlizlə bağlı strateji baxış təkcə yüklərin ölkəmizin ərazisindən tranzit keçidini təmin etməklə məhdudlaşmır. Rəsmi Bakı bu dəhlizi yüksək əlavə dəyər yaradan, inteqrasiya olunmuş və intellektual iqtisadi kəmər kimi formalaşdırmağı hədəfləyir. Məqsəd ölkəmizə daxil olan yükləri qəbul etmək, onları emal edərək sənaye və logistik dəyər əlavə etmək, daha sonra isə hazır məhsulları regional və beynəlxalq bazarlara ixrac etməkdir. Bu baxımdan nəqliyyat sahəsi həm də qeyri-neft sektorunun şaxələndirilməsinə və yerli istehsalın inkişafına xidmət edən mühüm iqtisadi alətə çevrilib.

Qarşıdakı dövr üçün müəyyənləşdirilmiş hədəflərə çatmaq məqsədilə 2027-2030-cu illəri əhatə edən dəqiq və hərtərəfli fəaliyyət planı icra olunur. Xüsusilə rəqəmsal logistika həllərinin tətbiqi, elektron sənəd dövriyyəsinə keçid və yüklərin real vaxt rejimində izlənilməsi sistemlərinin qurulması tranzit əməliyyatlarının şəffaflığını və sürətini yeni səviyyəyə qaldırır.

Şərq-Qərb istiqamətindəki bu dinamik inkişafla yanaşı, Azərbaycan həm də "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin mühüm halqası kimi çıxış edir. Şimali Avropa və Rusiya ilə İran, Hindistan və digər Cənubi Asiya ölkələri arasında yükdaşımaların inkişafına xidmət edən bu marşrut ölkəmizin logistika imkanlarını daha da şaxələndirir. Astara-Rəşt-Qəzvin dəmir yolu seqmentinin tamamlanması və ölkə daxilində dəmir yolu xətlərinin modernləşdirilməsi istiqamətində görülən işlər "Şimal-Cənub" marşrutunun tam gücü ilə fəaliyyət göstərməsinə şərait yaradır. Beləliklə, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan qitələrarası yük axınlarının tənzimlənməsində əvəzedilməz mərkəz funksiyasını yerinə yetirir.

Regional bağlantıların tam şəkildə bərpası və Avrasiya nəqliyyat şəbəkəsinin bütövləşməsi baxımından yeni nəqliyyat kommunikasiyalarının, o cümlədən TRIPP marşrutunun reallaşması da xüsusi önəm kəsb edir. TRIPP regional əməkdaşlığın dərinləşməsinə, Cənubi Qafqazın vahid logistika məkanına inteqrasiyasına və qlobal ticarət yollarının daha da təhlükəsizləşməsinə yeni nəfəs gətirir. Bu marşrutun funksionallığı Orta dəhlizin ötürücülük imkanlarını genişləndirməklə yanaşı, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası, eləcə də Türkiyə və Avropa bazarları arasında birbaşa, fasiləsiz quru bağlantısını möhkəmləndirir.

Azərbaycanın nəqliyyat-logistika strategiyası həm də müasir dövrün ekoloji çağırışlarına və "yaşıl enerji" gündəliyinə uyğun şəkildə formalaşdırılır. Liman və dəmir yolu infrastrukturunda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, karbon emissiyalarının azaldılması və ekoloji cəhətdən təmiz nəqliyyat vasitələrinin tətbiqi ölkəmizin dayanıqlı inkişaf prinsiplərinə sadiqliyini nümayiş etdirir. Bu yanaşma Avropa İttifaqı və digər beynəlxalq maliyyə institutlarının "yaşıl dəhliz" standartlarına tam cavab verməklə marşrutun əhəmiyyətini daha da yüksəldir.

Bütün bu nəhəng infrastruktur layihələrinin və strateji təşəbbüslərin vəhdəti göstərir ki, Azərbaycan qlobal nəqliyyat-logistika xəritəsini yenidən formalaşdıran həlledici ölkə statusundadır. Ölkəmizin həyata keçirdiyi çoxşaxəli nəqliyyat diplomatiyası regional tərəfdaşlıqları dərinləşdirir, yeni investisiya imkanları açır və Azərbaycanın beynəlxalq iqtisadi münasibətlər sistemindəki strateji çəkisini keyfiyyətcə yeni mərhələyə yüksəldir.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2026-cı ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

№	Deputat	Tarix və yer	Əlaqələndirici şəxslər və əlaqə nömrələri
1.	Əhmədov Əli Cavad oğlu	04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 14, 24 (Bakı şəhəri)	Mais Günəşov +99451 277 0025 25sayli_sd@meclis.gov.az
2.	Əsgərov Ziyafət Abbas oğlu	09 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 19 (Naxçıvan MR, Şərur rayonu) 26 (Naxçıvan MR, Sədərək rayonu)	Günay Orucova +99451 641 9841 1sayli_sd@meclis.gov.az
3.	Qasımlı Musa Cəfər oğlu	10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 02 (Yardımlı rayonu) 16 (Masallı rayonu)	Adil Mustafayev +99450 676 3526 75sayli_sd@meclis.gov.az
4.	Hüseynov Rafael Baba oğlu	15 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 03 (Hacıqabul rayonu) 10 (Kürdəmir rayonu)	Ceyhun Ağayev +99470 887 7090 63sayli_sd@meclis.gov.az
5.	Abbasov Aqil Məhəmməd oğlu	05, 06 (Ağcabədi rayonu) 20 (Füzuli rayonu)	Fərhad Əliyev +99451 230 3237 85sayli_sd@meclis.gov.az
6.	Ağamalı Günay Fəzail qızı	03 (Salyan rayonu) 10 (Biləsuvar və Neftçala rayonları)	Emin Xudiyev +99450 451 2676 65sayli_sd@meclis.gov.az
7.	Ağayeva Ülviyyə Cavanşir qızı	13, 27 (Tovuz rayonu) 14, 28 (Ağstafa və Qazax rayonları)	Arzu Musayeva +99455 649 3070 107sayli_sd@meclis.gov.az
8.	Ağazadə Əminə Həmid qızı	12, 26 (Kürdəmir rayonu)	Namiq Ağayev +99455 298 8050 62sayli_sd@meclis.gov.az
9.	Akimova Elnarə Seydulla qızı	03, 29 (Sumqayıt şəhəri)	Soltanov İltifat +99470 860 8644 46sayli_sd@meclis.gov.az
10.	Alıyev Sahib Eyvaz oğlu	07, 18 (Ağdaş rayonu)	Rəhman Rəhmanov +99451 277 3003 93sayli_sd@meclis.gov.az
11.	Allahverənov Azər Kərim oğlu	14, 21 (Bakı şəhəri)	Ülvi Məmmədəliyev +99455 544 5566 29sayli_sd@meclis.gov.az
12.	Aran Səyyad Adil oğlu	13 (İmişli rayonu) 20 (Saatlı rayonu)	Pərvin Mahmudov +99450 255 1388 Ağa Abışov +99450 775 7477 82sayli_sd@meclis.gov.az
13.	Arpadarai Nigar Cavid qızı	09, 23 (Bakı şəhəri)	Nuru Əliyev +99450 341 7126 7sayli_sd@meclis.gov.az
14.	Aslanov Novruzəli Davud oğlu	03, 10, 17, 24 (İsmayıllı rayonu)	Kamran Xanlarlı +99450 502 4888 89sayli_sd@meclis.gov.az
15.	Badamov Azər Camal oğlu	05, 19 (Qusar rayonu)	General Sadulov +99450 313 2962 61sayli_sd@meclis.gov.az
16.	Bayramov Kamran Fərhad oğlu	19 (Göygöl rayonu) 26 (Daşkəsən rayonu)	Məmməd Məmmədli +99450 247 9747 100sayli_sd@meclis.gov.az
17.	Bayramov Vüqar İbad oğlu	10, 16 (Füzuli rayonu)	Eltun Ağakişiyev +99450 226 8002 84sayli_sd@meclis.gov.az
18.	Bədəlov Bədəl Şamil oğlu	12 (Goranboy rayonu) 28 (Naftalan şəhəri)	Gündüz Hacıyev +99450 364 9426 96sayli_sd@meclis.gov.az
19.	Bülbüloğlu Polad	04, 21, 23 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)	Aydan Hüseynova +99450 777 6725 124sayli_sd@meclis.gov.az
20.	Cəfərov Kamal Xaqani oğlu	16, 24 (Sabirabad rayonu)	Nazim Çələbiyev +99451 277 6000 68sayli_sd@meclis.gov.az
21.	Cəfərov Müşfiq Cəfər oğlu	09 (Gəncə şəhəri) 27 (Samux rayonu)	Sahib Əmiraslanov +99450 627 9252 41sayli_sd@meclis.gov.az
22.	Cəfərova Tamam Şaməmməd qızı	03, 16 (Şamaxı rayonu)	Aytəkin Quliyeva +99451 466 0090 Nigar Aslanova +99450 5963438 88sayli_sd@meclis.gov.az
23.	Əfəndiyev Məzahir Cavid oğlu	14 (Göyçay rayonu) 28 (Ağdaş rayonu)	Murad Abdullayev +99450 255 2013 92sayli_sd@meclis.gov.az
24.	Əfəndiyeva Günay Elçin qızı	09, 17 (Bakı şəhəri)	Vəfa Mürşüdlü +99450 379 0095 14sayli_sd@meclis.gov.az
25.	Ələkbərov Əziz Yusif oğlu	12, 26 (Saatlı rayonu)	Samir Nəsirov +99450 247 4355 66sayli_sd@meclis.gov.az
26.	Əliyev Bəxtiyar Həmzə oğlu	03, 19 (Ağdam rayonu)	Vüqar Əbdüləzimov +99450 288 2292 119sayli_sd@meclis.gov.az
27.	Əliyeva Jalə Fazil qızı	09, 16 (Zərdab rayonu)	Firdovsi Eyvazov +99450 331 9434 95sayli_sd@meclis.gov.az
28.	Əli-zadə Arzuxan Baxşəli oğlu	12, 26 (Bakı şəhəri)	Yəhya Həsənov +99455 814 0555 Afsəddin Nəbiyev +99410 811 5447 27sayli_sd@meclis.gov.az
29.	Əmiraslanov Azər Kamal oğlu	22 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 11, 25 (Ağstafa rayonu)	Ələvsət Allahyarov +99450 398 4697 108sayli_sd@meclis.gov.az
30.	Əmiraslanov Əhliman Tapdıq oğlu	21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 19, 26 (Sabirabad rayonu)	Raqif Xəlilov +99450 277 9638 67sayli_sd@meclis.gov.az
31.	Əsədov Heydər Xanış oğlu	18, 25 (Şirvan şəhəri)	Arif Qasımov +99450 3195888 51sayli_sd@meclis.gov.az
32.	Əsgərov Asif Yunis oğlu	13, 20 (Zaqatala rayonu)	Elbrus Məmmədov +99455 677 6262 112sayli_sd@meclis.gov.az
33.	Feyziyev Cavanşir Əyyub oğlu	19, 26 (Şəki şəhəri)	Turan Salamov +99450 520 6618 115sayli_sd@meclis.gov.az
34.	Fətəliyeva Sevinc Həbib qızı	03, 24 (Bakı şəhəri)	Eldar Qurbanov +99450 277 0956 30sayli_sd@meclis.gov.az
35.	Fətiyev Xanlar Nuru oğlu	09, 23 (Bərdə rayonu)	Xəyyam Ələkbərzadə +99450 243 9030 98sayli_sd@meclis.gov.az
36.	Gəncəliyev Tural Babaşah oğlu	04, 18 (Bakı şəhəri)	Xatirə Əliyeva +99455 722 7431 122sayli_sd@meclis.gov.az
37.	Hacıyev Sabir Kamal oğlu	09, 23 (Göyçay rayonu)	Orxan Rzayev +99410 110 0159 91sayli_sd@meclis.gov.az
38.	Həmzəyev Naqif Ələşrəf oğlu	09, 16 (Gəncə şəhəri)	Sərxan Imanov +99450 255 1438 38sayli_sd@meclis.gov.az
39.	Həmzəyeva Ülviyyə Tapdıq qızı	10 (Naxçıvan MR, Naxçıvan şəhəri) 24 (Naxçıvan MR, Babək rayonu)	Araz Xudiyev +99450 658 2375 5sayli_sd@meclis.gov.az
40.	Həsənquliyev Qüdrət Müzəffər oğlu	12, 19 (Bakı şəhəri)	Hüseyn Müzəfferli +99450 547 7764 36sayli_sd@meclis.gov.az
41.	Həsənov Malik Əvəz oğlu	05, 19 (Cəlilabad rayonu)	Ələddin Əliyev +99450 776 5522 71sayli_sd@meclis.gov.az
42.	Həsənov Nurlan Urfan oğlu	12, 19 (Şəmkir rayonu)	Anar Quluyev +99499 299 5599 103sayli_sd@meclis.gov.az
43.	Həsənova Afət Əbil qızı	16, 23 (Bakı şəhəri)	Namiq Mustafayev +99450 320 3286 32sayli_sd@meclis.gov.az
44.	Hüseynli Əli Məhəmməd oğlu	03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 05, 19 (Yevlax şəhəri)	Bayram Yusifov +99450 262 6131 53sayli_sd@meclis.gov.az
45.	Hüseynov Aydın Nəsir oğlu	08, 15 (Bakı şəhəri)	Vüsal Yusifov +99470 200 9878 37sayli_sd@meclis.gov.az
46.	Hüseynova Hicran Kamran qızı	07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 10, 24 (Sumqayıt şəhəri)	Elçin Kərimov +99451 460 5334 42sayli_sd@meclis.gov.az
47.	Hüseynova Sevinc Əmirəhməd qızı	05, 26 (Gədəbəy rayonu)	Elxan Ismayılov +99450 277 0749 104sayli_sd@meclis.gov.az
48.	Xasayeva Səbinə Səməd qızı	02, 09 (Bakı şəhəri)	Gülnarə Məmmədli +99451 582 2505 11sayli_sd@meclis.gov.az
49.	İbrahimqızı Məlahət İbrahim qızı	10, 24 (Bakı şəhəri)	Xətai Məmmədli +99450 255 2142 21sayli_sd@meclis.gov.az
50.	İbrahimli Fəzail Feyruz oğlu	12, 21 (Masallı rayonu)	Faiq Ağayev +99450 201 5670/ +99450 277 5549 73sayli_sd@meclis.gov.az
51.	İbrahimov Eldar Rza oğlu	08 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 07, 14 (Naxçıvan MR, Naxçıvan şəhəri)	Fərman Hacıyev +99460 201 2110 4sayli_sd@meclis.gov.az
52.	İsgəndərov Anar Camal oğlu	17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 12, 26 (Lənkəran şəhəri)	Valeh Mikayılov +99450 335 2232 78sayli_sd@meclis.gov.az
53.	İskəndərov Vüqar Yapon oğlu	05, 19 (Şəki şəhəri)	Anar Nağıyev +99450 295 0115 114sayli_sd@meclis.gov.az
54.	İsmayılov İmamverdi İbiş oğlu	12, 19 (Sumqayıt şəhəri)	Məlahət Əzizova +99450 855 2026 125sayli_sd@meclis.gov.az
55.	İsmayılov Şahin Əmir oğlu	28 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 12, 26 (Beyləqan rayonu)	Çingiz Səfərov +99450 277 9536 83sayli_sd@meclis.gov.az
56.	İsmayılzadə Fariz Akif oğlu	12, 19 (Lənkəran şəhəri)	Mansur Talıbov +99450 369 7882 77sayli_sd@meclis.gov.az
57.	Kərimli Azər Şəmşid oğlu	05 (Baləkən rayonu) 19 (Zaqatala rayonu)	Samir Hüseynzadə +99455 830 1363 111sayli_sd@meclis.gov.az
58.	Kərimzadə Pərvin Orxan qızı	14, 28 (Gəncə şəhəri)	Hicran Məmmədova +99450 277 0368 39sayli_sd@meclis.gov.az
59.	Qafarov Kamaləddin Nəsrəddin oğlu	16, 23 (Bakı şəhəri)	Nazim Cəfərov +99450 708 6911 9sayli_sd@meclis.gov.az
60.	Qafarov Vasif Vaqif oğlu	05 (Lerik rayonu) 19 (Astara rayonu)	Pərviz Ağaxanlı +99455 628 6966 80sayli_sd@meclis.gov.az
61.	Qasımlı Mircəlil Xəqani oğlu	01 (Bakı şəhəri) 03 (Yevlax şəhəri) 05 (Daşkəsən rayonu)	Anar Əliyev +99470 255 9484 123sayli_sd@meclis.gov.az
62.	Qədirli Erkin Toğrul oğlu	07, 21 (Bakı şəhəri)	Fariz Zöhrabov +99470 918 3110 16sayli_sd@meclis.gov.az
63.	Qəhrəmanov Göydəniz İbrahim oğlu	03, 16 (Bakı şəhəri)	Rəhim Qədirov +99450 555 8845 17sayli_sd@meclis.gov.az
64.	Quliyev Azay Əjdər oğlu	08, 22 (Bakı şəhəri)	Asəf Vəliyev +99450 578 5187 8sayli_sd@meclis.gov.az
65.	Quliyev Eldar Allahyar oğlu	13, 27 (Bakı şəhəri)	Eynulla Rəsulov +99450 222 6899 28sayli_sd@meclis.gov.az
66.	Quliyev Musa İsa oğlu	14 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 05, 19 (Gəncə şəhəri)	Göyüş Şəfizadə +99450 255 1442 40sayli_sd@meclis.gov.az
67.	Quliyev Ülvi Zahid oğlu	09, 16 (Bakı şəhəri)	Nurlan Qurbanov +99450 241 5156 15sayli_sd@meclis.gov.az
68.	Qurbanlı Mübariz Qəhrəman oğlu	11 (Bakı şəhəri) 18 (Samux rayonu)	Elnur Tağıyev +99455 212 8191 101sayli_sd@meclis.gov.az
69.	Qurbanov Eyvaz Daşdəmir oğlu	03, 17 (Oğuz şəhəri)	Səxavət Kərəmov +99470 510 6968 117sayli_sd@meclis.gov.az
70.	Qurbanov Sadiq Haqverdi oğlu	02 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 12, 26 (Salyan rayonu)	Elnur Rəhimov +99455 375 6075 64sayli_sd@meclis.gov.az
71.	Mahmudov Rəşad Məmmədqulu oğlu	12, 26 (Astara rayonu)	Həsənağa Əskərli +99477 542 0770 79sayli_sd@meclis.gov.az
72.	Məhəməliyev Nəsib Məhəmməd oğlu	05, 19 (Balakən rayonu)	Yusif Mirzəyev +99450 213 6259 110sayli_sd@meclis.gov.az
73.	Məhərrəmov Bəhruz Abdurrəhman oğlu	06, 13 (Biləsuvar rayonu)	Əfsun Əlizadə +99450 277 0436 69sayli_sd@meclis.gov.az
74.	Məhərrəmzadə Əlibala Səttar oğlu	12, 26 (Quba rayonu)	Elnur Xəlilov +99455 308 4950 59sayli_sd@meclis.gov.az
75.	Məmmədli Müşfiq Fazil oğlu	02, 19 (Siyəzən rayonu)	Nəsimi Əliyev +99455 887 1314 55sayli_sd@meclis.gov.az
76.	Məmmədov Anar İlyaz oğlu	12, 14, 26 (Tərtər rayonu) 27 (Goranboy rayonu)	Elçin Cahangirov +99450 324 2791 97sayli_sd@meclis.gov.az anarmammadov@meclis.gov.az
77.	Məmmədov Ceyhun Valeh oğlu	05 (Biləsuvar rayonu) 19 (Beyləqan rayonu)	Rəşad Quliyev +99455 847 5621 120sayli_sd@meclis.gov.az
78.	Məmmədov Elman Camal oğlu	01, 08 (Bakı şəhəri)	Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335 118sayli_sd@meclis.gov.az
79.	Məmmədov Hikmət Baba oğlu	10, 24 (Bakı şəhəri)	Azər Quliyev +99450 277 1219 19sayli_sd@meclis.gov.az
80.	Məmmədov İlham Kazım oğlu	05, 19 (Yevlax şəhəri)	Rüstəm Əliyev +99450 277 7417 52sayli_sd@meclis.gov.az
81.	Məmmədov Qaya Məmməd oğlu	09, 17 (Bakı şəhəri)	Samir Əliyev +99455 377 3102 31sayli_sd@meclis.gov.az
82.	Məmmədov Məşhur Şahbaz oğlu	12, 19 (Masallı rayonu)	Əli Nağıyev +99450 210 8641 74sayli_sd@meclis.gov.az
83.	Məmmədov Soltan Teymur oğlu	11, 18 (Bakı şəhəri)	Xətai Salmanov +99450 255 1446 12sayli_sd@meclis.gov.az
84.	Məmmədova Nigar Fikrət qızı	02, 14 (Abşeron rayonu)	Bikəxanım Qulaməddinova +99451 277 0014 48sayli_sd@meclis.gov.az
85.	Məsimli Əli Əhməd oğlu	19 (Qax rayonu) 20 (Şəki rayonu)	Vüsal Baxışov +99455 511 2287 113sayli_sd@meclis.gov.az
86.	Mikayılova Sevil Əlirazı qızı	03, 16 (Xaçmaz rayonu)	İradə Çobanova +99455 730 8606 58sayli_sd@meclis.gov.az
87.	Mirkişili Tahir Famil oğlu	07, 21 (Sumqayıt şəhəri)	Cavid Quliyev +99451 520 2211 43sayli_sd@meclis.gov.az
88.	Mirzəbəyli Elçin Əbdülrəhim oğlu	05, 19 (Ağsu rayonu)	İbrahim Bağırlı +99455 268 8484 90sayli_sd@meclis.gov.az
89.	Mirzəzadə Aydın Böyükkişi oğlu	12, 26 (Mingəçevir şəhəri)	Pərviz Məmmədov +99451 373 2443 54sayli_sd@meclis.gov.az
90.	Mollazadə Asim Nazim oğlu	02, 16 (Bakı şəhəri)	Samir Quliyev +99455 223 7272 22sayli_sd@meclis.gov.az
91.	Möhbalıyev Səttar Suliddin oğlu	03 (Naxçıvan MR, Şahbuz rayonu) 17 (Naxçıvan MR, Babək rayonu)	Rizvan Hüseynquliyev +99470 744 2537 / +99450 649 7066 3sayli_sd@meclis.gov.az
92.	Muradov Rövşən Şahbaz oğlu	10, 24 (Bakı şəhəri)	Rauf Nəcəfli +994 55 508 6055 124sayli_sd@meclis.gov.az
93.	Musabəyov Rasim Nəsrəddin oğlu	08, 22 (Bakı şəhəri)	Asif Nəsibov +99470 777 0555 18sayli_sd@meclis.gov.az
94.	Musayev Elşad Nəbi oğlu	05, 12 (Bakı şəhəri)	Vüqar Qasımov +99455 774 9919 10sayli_sd@meclis.gov.az
95.	Musayev Elşən Məmmədhənifə oğlu	11, 19 (Qəbələ rayonu)	Cəfər Əliyev +99455 288 0089 116sayli_sd@meclis.gov.az
96.	Mustafa Fazil Qəzənfər oğlu	25 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 07, 14, 21 (Bakı şəhəri)	Əjdər Əliyev +99450 385 3950 26sayli_sd@meclis.gov.az
97.	Nağıyev Arzu Nəsib oğlu	18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 12 (Tovuz rayonu) 26 (Gədəbəy rayonu)	Elşad İsmayılov +99450 336 0212 105sayli_sd@meclis.gov.az
98.	Namazov Ramid Zakir oğlu	07, 21 (Abşeron rayonu)	Bəxtiyar Məmmədov +99455 412 1986 50sayli_sd@meclis.gov.az
99.	Nəbiyev Rizvan Novruz oğlu	07, 23 (Xırdalan şəhəri)	Rişad Abbasov +99499 766 8868 49sayli_sd@meclis.gov.az
100.	Nəsirov Elman Xudam oğlu	10, 23 (Cəlilabad rayonu)	Üzeyir Mustafayev +99450 797 4425 72sayli_sd@meclis.gov.az
101.	Novruzov Siyavuş Dünyamalı oğlu	24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 10, 19 (Naxçıvan MR, Şərur rayonu)	İbrahim Orucov +99460 460 6061 2sayli_sd@meclis.gov.az
102.	Nurullayev Razi Qulaməli oğlu	04, 21 (İmişli rayonu)	Vüqar Süleymanov +99450 247 8777 81sayli_sd@meclis.gov.az
103.	Nurullayeva Könül Oruc qızı	03, 17 (Bakı şəhəri)	Sabit Mahmudov +99450 206 0254 / +99455 276 2375 24sayli_sd@meclis.gov.az
104.	Oruc Zahid Məhərrəm oğlu	16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 04, 18 (Bakı şəhəri)	Elçin Çıraqov +99450 5711135 33sayli_sd@meclis.gov.az
105.	Paşayeva Gülşən Məmmədəli qızı	05, 12 (Bakı şəhəri)	Ramin Ağacanov +99455 226 2607 13sayli_sd@meclis.gov.az
106.	Paşazadə Cavanşir Hümmət oğlu	05, 15 (Lənkəran şəhəri)	Sulduz Ağayev +99450 328 2123 76sayli_sd@meclis.gov.az
107.	Rafailov Anatoliy Xaimoviç	05, 19 (Quba rayonu)	Qəhrəman Qasımov +99450 364 3926 60sayli_sd@meclis.gov.az
108.	Rəhimzadə Vüqar Gəncəli oğlu	09 (Naxçıvan MR, Ordubad rayonu) 16 (Naxçıvan MR, Culfa rayonu)	Məhərrəm Əliverdiyev +99470 230 0777 6sayli_sd@meclis.gov.az
109.	Rüstəmxanlı Tənzilə Yolçu qızı	10, 24 (Neftçala rayonu)	Fərman Hüseynov +99450 339 7415 70sayli_sd@meclis.gov.az
110.	Rzayev Tahir Musa oğlu	08 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 09, 10, 23, 24 (Ağcabədi rayonu)	Samir Məmmədov +99451 423 3395 86sayli_sd@meclis.gov.az
111.	Salmanova Səbinə Qədir qızı	07, 23 (Sumqayıt şəhəri)	Mirmahmud Mahmudov +99470 288 9638 45sayli_sd@meclis.gov.az
112.	Seyidov Səməd İsmayıl oğlu	11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 02, 21 (Qazax rayonu)	Qədir Mehtixanlı +99470 502 3932 / +99455 678 4859 109sayli_sd@meclis.gov.az
113.	Seyidzadə Şahin Kamil oğlu	02 (Şamaxı və İsmayıllı rayonları) 16 (Qobustan rayonu)	Elman Mikayılov +99450 600 25 50 87sayli_sd@meclis.gov.az
114.	Səfərov Nizami Abdulla oğlu	09, 23 (Tovuz rayonu)	Elbəy Bədirov +99450 869 6767 106sayli_sd@meclis.gov.az
115.	Səmədzadə Ziyad Əliabbas oğlu	10, 24 (Bakı şəhəri)	Quliyev Azad +99450 216 4311 23sayli_sd@meclis.gov.az
116.	Süleymanlı Mahir Tahir oğlu	11 (Şabran rayonu) 23 (Xaçmaz rayonu)	Orxan Süleymanov +99455 319 1717 56sayli_sd@meclis.gov.az
117.	Şükürov Zaur Ramiz oğlu	03 (Abşeron rayonu) 10 (Sumqayıt şəhəri) 17 (Bakı şəhəri)	Aslan Talıbov +99455 283 6367 47sayli_sd@meclis.gov.az
118.	Vəliyev Ağalar İsrəfil oğlu	09, 24 (Xaçmaz rayonu)	Teymur Mahmudov +99450 451 6102 57sayli_sd@meclis.gov.az
119.	Vəliyev Samir Əhməd oğlu	03, 17 (Bakı şəhəri)	Vüsal Əliyev +99450 277 8842 20sayli_sd@meclis.gov.az
120.	Vəliyeva Mehriban Hidayət qızı	07, 17 (Sumqayıt şəhəri)	Ramiz Alıyev +99450 518 3434 44sayli_sd@meclis.gov.az
121.	Vəliyeva Pərvanə Bulut qızı	10, 24 (Bakı şəhəri)	Kamil Hacıyev +99455 811 3330 35sayli_sd@meclis.gov.az
122.	Yıldırım Fatma Vidadi qızı	05, 17 (Bərdə rayonu)	Fuad Ağayev +99455 420 8040 99sayli_sd@meclis.gov.az
123.	Zabelin Mixail Yuryeviç	12, 19 (Bakı şəhəri)	Səfi Qasımov +99455 941 9898 34sayli_sd@meclis.gov.az

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.

Məktublar: problemlər, rəylər, təkliflər...



● QAYĞI

Qazi kimi mənə olan diqqətdən razıyam

44 günlük Vətən müharibəsində yaralanmışam. Düşmən üzərində qazandığımız şanlı qələbədən 6 ildən çox vaxt keçsə də, sağlamlığımda hələ də problemlər qalmaqdadır. Lakin dövlətimiz biz qaziləri daim diqqətdə saxlayır, sağalmağımız üçün bütün imkanlardan istifadə edir.



Bu yaxınlarda səhhətimdə yenə də problem yaranmışdı. Tovuz rayon rəhbərliyi vəziyyətimlə maraqlandı. Mövcud vəziyyətimlə bağlı əlaqədar qurumlara tapşırıqlar verildi və bildirildi ki, sağlamlığımın bərpası üçün bütün tədbirlər görüləcək.

Hörmətli redaksiya! Elə də oldu. İndi özümü xeyli gümrah hiss edirəm. Söz yox ki, bu diqqət və qayğı dövlət başçısı İlham Əliyevin biz qazilərə göstərdiyi münasibətdən irəli gəlir. Odur ki, dövlət başçısına və rayon rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Emil QOCAYEV,
Tovuz rayonunun Aşağı Quşçu kənd sakini, I qrup Vətən müharibəsi əlili

● İDMAN

Şahmat turniri

Cənub mirvarisi Lənkəranda Yeni Azərbaycan Partiyasının yaranmasının 34-cü ildönümünə həsr olunmuş şahmat idman növü üzrə rayon turniri keçirilib. Turnir "Təhsil" Respublika İdman Mərkəzinin Lənkəran şəhər Uşaq-Gənclər İdman Şahmat Məktəbinin şahmat zalında təşkil olunub.



Yarışın ümumi nəticələrinə əsasən, Lənkəran şəhəri Xarici Dillər Təmayüllü Gimnaziyasının 7-ci sinif şagirdi Habil Əliyev I, Lənkəran rayonu Darquba məktəbinin 8-ci sinif şagirdi Hüseyn Abbasov II, Lənkəran şəhəri 5 saylı məktəbin 5-ci sinif şagirdi Mirəziz Ocaqlı isə III yerə layiq görülüb.

Qaliblərə Yeni Azərbaycan Partiyası Lənkəran rayon təşkilatı tərəfindən fəxri fərmanlar və qiymətli hədiyyələr, Lənkəran şəhər Uşaq-Gənclər İdman Şahmat Məktəbi tərəfindən diplomlar təqdim olunub.

Zəfər ORUCOĞLU,
Lənkəran şəhəri


● MİNNƏTDARLIQ

Problem tezliklə aradan qaldırıldı

Bir müddət əvvəl Sumqayıt şəhər 2-ci mikrorayon 19/23 və 20/25 saylı binaların sakinləri 6 saylı MİKS-nin rəisi ilə görüş zamanı binalarındakı pilləkənlərin yararsız hala düşməsi ilə bağlı şikayət etmişdilər.

Problem ondan ibarət idi ki, adıçəkilən binaların sakinləri artıq bir neçə il idi dağılmış pilləkənlərdən əziyyət çəkirdilər. Bəzi mərtəbələrdə pillələr dağıldığından çıxıb-düşmək belə, mümkün deyildi.





Sakinlərin şikayətini dinləyən MİKS-nin rəisi tezliklə məsələnin həll ediləcəyini bildirdi. Cəmi bir neçə gün sonra həmin əraziyə baxış keçirildi. Ardınca təmirə başlanıldı. Artıq bir binanın pilləkənləri təmir edilərək sakinlərin ixtiyarına verilib. Tezliklə digər binada da işlər başa çatacaq.

Bakir MƏMMƏDOV, Elçin NƏSİROV,
Şəhla HÜSEYNOVA, Cavanşir SALMANOV,
Şəmsiyyə ƏSƏDOVA,
Sumqayıt şəhər 2-ci mikrorayon sakinləri

● BƏRPA

Piyada keçid körpüsü təmir edildi

Goranboyun Qarapirimli və Qaramusalı kəndlərinin sakinləri hər gün bir neçə dəfə Kürəkçay çayının üstündəki piyada keçid körpüsündən istifadə edirlər. Vaxtilə dəmirdən düzəldilmiş bu körpü uzun illər əhalinin istifadə etdiyi ən etibarlı körpülərdən idi.



Lakin son illər yağan güclü yağışlar nəticəsində körpü təhlükəli vəziyyətə düşmüşdü. Bununla bağlı kənd sakinləri bir neçə dəfə rayon rəhbərliyinə məlumat vermiş, körpünün təmir edilməsini xahiş etmişdilər. Nəhayət, rayon icra hakimiyyətinin başçısı kənddə əhali ilə səyyar görüş keçirərkən sakinlər həmin məsələni yenidən qaldırdılar. Sağ olsunlar. Piyada körpüsünün təmiri ilə bağlı Qaramusalı kənd bələdiyyəsinə tapşırıq verildi. Qısa vaxt ərzində körpü təmir edildi. İndi kənd sakinləri həmin körpüdən heç bir təhlükə olmadan istifadə edirlər.


Hörmətli redaksiya! Kənd sakinləri göstərilən diqqət və qayğıya görə bu işdə əməyi olan hər kəsə minnətdarlıqlarını bildirirlər.

Emin MƏMMƏDOV,
Goranboy rayonunun Qarapirimli kənd sakini

● GÜNDƏM

Uşaqların uşaqlığı niyə ekrana köçür?

Bir vaxtlar uşaqların günləri dostlarla həyət oyunları, oyuncaqlarla qurulan kiçik dünyalar və bitib-tükənməyən suallarla keçirdi. İndi isə onların hamısını kiçik bir smartfon ekranı əvəz edir. Cizgi filmləri, rəngarəng videolar və sürətlə dəyişən görüntülər uşaqların gündəlik həyatında getdikcə daha çox yer tutur. Bu dəyişiklik təkcə əyləncə vərdişlərinin yenilənməsi deyil, uşaqlığın necə yaşandığı barədə də düşünməyə əsas verir.





Müasir valideynlərin buna yol vermələrinin səbəbləri anlaşılandır. İş və ev qayğıları, yorğunluq və gündəlik məsuliyyətlər arasında uşağı bir müddət sakit saxlamaq bəzən zərurət kimi görünür. Telefon həmin problemi həll edir. Ağlayan, yemək yeməyən uşağa smartfon vermək valideynin işini xeyli yüngülləşdirir. Ancaq bu "rahatlıq" vərdişə çevrildikdə ekran uşağın gününün böyük hissəsini tutmağa başlayır. Problem texnologiyanın özündə deyil, onun uşağın həyatına daxil olmasındadır. Xüsusən də uşaqlığın yalnız məlumat almaq və görüntülərə baxmaqdan ibarət olmadığı üçün. Uşaq ətraf aləmi əşyalara toxunaraq, onları araşdıraraq, böyüklərə suallar verərək, yaşıdları ilə oynayaraq böyüməlidir. Bunlar onun təxəyyülünü, ünsiyyətini və problem həll etmək bacarığını inkişaf etdirir. Ekran qarşısında keçirilən uzun zaman isə hərəkətə, canlı ünsiyyətə və yaşına uyğun fəaliyyətlərə ayrılan vaxtı azaldır, hələ sağlamlığı demirik. Üstəlik, ünsiyyətsizlik də bəzi xəstəliklərin yaranmasının başlanğıcı kimi diqqətdə saxlanılmalıdır. Azyaşlı uşaqların texnologiyanı tez mənimsəməsini onun uğuru kimi qiymətləndirib "maşallah, 2-3 yaşı var, telefonu sökür", - deyib qürurlanmaq vəziyyətin normal olmadığını anlamamaqdan yaranır.

Uşağın erkən yaşlarda inkişafı üçün valideynlə canlı ünsiyyət mühüm əhəmiyyət daşıyır. Böyüyün üz ifadəsinə baxmaq, səsini dinləmək, deyilən sözlərə cavab vermək və qarşılıqlı oyunlarda iştirak etmək dil və sosial bacarıqların formalaşmasına kömək edir. Smartfonda barmaq toxunuşu ilə sürətlə dəyişən görüntülər isə uşağın canlı ünsiyyətdən əldə etdiyi təcrübəni tam əvəz etmir.

Məsələnin başqa bir tərəfi də valideyn nümunəsidir. Böyüklər yemək zamanı, söhbət edərkən, hətta birlikdə vaxt keçirərkən daim telefona baxırlarsa, uşağın da ekrana maraq göstərməsi təəccüblü deyil. Uşaqlar tərbiyəni yalnız deyilən sözlərdən deyil, müşahidə etdikləri davranışlardan da alırlar.

Bununla belə, uşaqları texnologiyadan tamamilə uzaqlaşdırmaq da məqsəd olmamalıdır. Əsas məsələ yaşa uyğun məzmun seçmək, ekran vaxtını məhdudlaşdırmaq və onun yuxunu, hərəkəti, ünsiyyəti əvəz etməsinə imkan verməməkdir. Xüsusilə iki yaşdan kiçik uşaqlarda ekran istifadəsinə ciddi yanaşmaq, videozəng kimi istisnalar xaricində mümkün qədər canlı ünsiyyətə və birgə oyuna üstünlük vermək lazımdır. Unutmayaq ki, bəzən uşağa verilə biləcək ən qiymətli hədiyyə yeni oyuncaq və ya bahalı cihaz deyil, onunla keçirilən yarım saatlıq səmimi vaxtdır. Birlikdə kitab vərəqləmək, top-top oynamaq, şəkillər çəkmək, parkda gəzmək və ya sadəcə, onun suallarını cavablandırmaq uşağın yaddaşında ekranda gördüklərindən daha dərin iz buraxır. Amma uşaqların uşaqlığını qorumaq texnologiyaya qarşı çıxmaq kimi də qiymətləndirilməməlidir. Bütün hallarda axına qarşı üzmək mümkün deyil. Əvəzində uşaqların uşaqlığının bütünlüklə ekrana köçməsinin qarşısını almaq mümkündür.

Nərminə ƏSGƏROVA,
"Azərbaycan"

● NÜMUNƏ

Masallıda xeyriyyəçilik ənənələri yaşadılır

Bu günlər rayon icra hakimiyyətinin başçısı Araz Əhmədov Musaküçə kəndində uzunluğu 630 metr olan kənddaxili yola asfalt örtüyünün döşənməsi işləri ilə tanış olub.



Xeyriyyəçilərin dəstəyi ilə həyata keçirilən bu işə görə rayon rəhbəri əməyi olan hər kəsə minnətdarlığını bildirib. Qeyd edib ki, Masallıda xeyriyyəçilik ənənələri daim yaşadılır və bu cür təşəbbüslər kəndlərin infrastrukturunun yaxşılaşdırılmasına, sakinlərin rahatlığının təmin olunmasına mühüm töhfə verir. O, xeyriyyəçilərin doğma rayonun inkişafına göstərdikləri dəstəyin təqdirəlayiq nümunə olduğunu vurğulayıb.


Musaküçə kəndində yolun asfaltlanması sakinlərin gediş-gəlişinin rahatlaşdırılmasına xidmət etməklə yanaşı, ərazinin abadlaşdırılması baxımından da əhəmiyyət daşıyır.

Əlihüseyn ŞÜKÜROV,
Masallı rayon sakini

● ABADLIQ

Bu şəhər bizimdir

Şəhərimizin daha da gözəlləşməsi və yaşıllaşdırılması istiqamətində abadlıq işləri davam edir. Sülh küçəsində torpağa əkilən narıncı və sarı rəngli aynısafa (kalendula) çiçəkləri əraziyə xüsusi gözəllik qatır. Estetik görünüşü ilə gözlərə dinclik verən bu bitkilər şəhər sakinlərinin zövqünü oxşayır.



Sumqayıt Şəhər Yaşıllaşdırma İdarəsinin təcrübəli əməkdaşları tərəfindən şəhərimizin əsas magistral yollarının kənarları yenidən rəngarəng çalar qazanır. Hər bir kola və gülə idarənin işçiləri böyük qayğı ilə yanaşır .

Bu günlər Bakı-Quba magistral yolunun şəhərimizdən keçən hissəsində genişmiqyaslı yaşıllaşdırma, abadlıq və bərpa işləri yerinə yetirilir. İdarənin bütün sahə rəisləri, briqada rəhbərləri və əməkdaşları şəhərimizin giriş qapısını daha gözəl, səliqəli və mənzərəli etmək üçün gecə-gündüz demədən böyük əzm və canfəşanlıqla çalışırlar.

Elşad HƏSƏNOV,
Sumqayıt Şəhər Yaşıllaşdırma İdarəsinin sahə briqadiri

● RAZILIQ

Səyyar qəbulda qaldırılan problem həll olundu

Rayon icra hakimiyyətinin başçısı Orxan Məmmədov kəndimizə səyyar qəbula gəlmişdi. Sakinlər kəndin avtomobil yolunda təmir-bərpa işlərinin aparılmasını xahiş etdilər.





Bildirdilər ki, təbii təsirlər və nəqliyyat vasitələrinin intensiv hərəkəti nəticəsində yolda çala-çuxur yaranmış və gediş-gəliş çətinləşmişdir. Çox çəkmədi ki, təmirə başlanıldı. Yolun çala-çuxur hissələri xüsusi texnika vasitəsilə hamarlandı, hərəkət hissəsi bərpa olunaraq kənd sakinlərinin rayon mərkəzinə və digər yaşayış məntəqələrinə rahat və təhlükəsiz gediş-gəlişini təmin etdi.

Biz problemimizin operativ həll olunmasında əməyi olan hər kəsə minnətdarlığımızı bildiririk.

S.MƏMMƏDOV,
Yardımlı rayonunun Dağ Üzü kənd sakini

● QURUCULUQ

Gözəllik abadlıqdan başlayır

Son illər ölkəmizin bütün bölgələrində genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilir. Bu barədə qəbul edilən proqramlar, imzalanan sərəncamlar sayəsində regionlarımızın siması dəyişir. Bunu Qazaxda aparılan abadlıq və quruculuq işlərindən də aydın görmək olar.



Qazax şəhərinin içməli su və tullantı su sistemlərinin yenidən qurulması layihəsinin icrasından sonra prospekt və küçələrin asfaltlanmasına, səkilərə tamet, bordür düzülməsinə, qaz, elektrik, rabitə xətlərinin səliqəyə salınmasına, küçələrin işıqlandırılmasına, çoxmənzilli yaşayış binalarının həyətində abadlıq işlərinin aparılmasına başlanılmışdır. Bu günlər isə Ağköynək kəndinin ərazisindən keçən magistral yolun kənarında abadlıq işlərinə start verilmişdir. Qısa vaxt ərzində kəndimizdə yol kənarları yeni görkəmə salınmış, ərazidə səliqə-sahman yaradılmışdır.

İndi yaşadığımız rayonla, onun kənd və qəsəbələri ilə qürur duyuruq. Fəxr edirik ki, ölkəmiz gündən-günə abadlaşır. Həyata keçirilən bu işlər isə söz yox ki, ölkəmizin iqtisadi qüdrətinin göstəricisidir.

İbad MƏHƏRRƏMOV,
Qazax rayonunun Ağköynək kənd sakini





Mədəniyyət





● İnsanlar, talelər

Mümkünsüz görünəni mümkün edən cəsarət və məharət

Həyatda elə seçimlər var ki, onların əsl mənası yalnız illər keçdikdən sonra özünü göstərir. Uşaqlıqda yaranan kiçik bir maraq insanın bütün ömrünü müəyyənləşdirir, onu heç kimin getmədiyi yollara aparır, adı bütöv bir sənət tarixinin yaddaşına həkk olunur. Tofiq Axundovun həyat hekayəsi məhz belə bir taleyin nümunəsidir.



O, uşaqlıqdan sevdiyi sirk sənətinə ömrünü bağlamaqla kifayətlənməyib, bu sənətin imkanlarını genişləndirən, dünyanın ən çətin əhliləşdirilən heyvanlarından sayılan begemotlarla işləməyi bacaran nadir sənətkarlardan birinə çevrilib. Onun yaradıcılıq yolu insan iradəsinin, peşəyə sədaqətin və daim yenilik axtarışının ifadəsidir.

Tofiq Hüseyn oğlu Axundov 1941-ci il noyabrın 28-də Bakıda dünyaya göz açıb. Uşaqlıq və yeniyetməlik illəri qədim Bakının özünəməxsus mühitində keçib. Müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələrinin mehriban qonşuluq şəraitində yaşadığı bu şəhər mühiti gələcək sənətkarın dünyagörüşünün formalaşmasında da müəyyən rol oynayıb. Uşaqlıqdan idmana, səhnəyə maraq göstərən Tofiq əvvəlcə idman gimnastikası və akrobatika ilə məşğul olub. Bakıdakı "Burevestnik" İdman Cəmiyyətinin gimnastika qrupunda qazandığı bacarıq sonralar onun peşəkar sənət fəaliyyətinin möhkəm təməlini təşkil edib.

Onun həyat yolunu dəyişən əsas hadisələrdən biri keçmiş sirk ustasının rəhbərlik etdiyi dərnəklə tanışlığı olub. Burada sirk sənətinin sirlərinə yiyələnən gənc Tofiq səhnənin sehrinə düşüb. Müəlliminin köməyi ilə akrobatik-ekvilibristik nömrə hazırlayan gənc sənətkar Azərbaycan Dövlət Filarmoniyasının estrada proqramlarında çıxış etməyə başlayıb. Rayonlara, kəndlərə səfərlər, müxtəlif tamaşaçı auditoriyaları qarşısında çıxışlar onun səhnə təcrübəsini zənginləşdirib.

Sözsüz ki, peşəkar sənətə gedən yol ciddi hazırlıq tələb edirdi. Tofiq Axundov 1965-ci ildə Moskvada Dövlət Sirk və Estrada Sənəti Məktəbini bitirib. Həmin ildən "Soyuzqossirk", sonralar isə "Rosqossirk" sistemində fəaliyyət göstərən sənətkar uzun illər ekvilibrist kimi çıxış edib. Onun nömrələri yüksək fiziki hazırlıq, mükəmməl tarazlıq hissi, dəqiqlik və böyük cəsarət tələb edirdi. Bir tərəfdən insan bədəninin imkanlarını nümayiş etdirən çıxışlar, digər tərəfdən də sənətkarın səhnədəki özünəməxsus dəst-xətini formalaşdırırdı.

Ekvilibrist kimi yaradıcılığında xüsusi yer tutan nömrələrdən biri də iki akrobatın əlləri üzərində dayanaraq aralarındakı məsafədə fırlatdıqları kəndirin üzərindən üçüncü iştirakçının tullanması idi. Tofiq Axundov bu nömrə ilə kollektiv Ümumittifaq Sirk Sənəti Müsabiqəsinin laureatı adına layiq görülüb. O, təxminən 15 il bu janrda çalışıb, müxtəlif ölkələrdə qastrol səfərlərində olub. Əldə etdiyi uğurlar onun sənət axtarışlarını dayandırmayıb, əksinə, daha çətin və fərqli heyvanlarla işləməyi qarşısına məqsəd qoyub.

Sirk ənənələrində heyvan təlimçiliyi xüsusi təcrübə və nəsildən-nəslə ötürülən peşə vərdişləri tələb edən sahə hesab olunur. Tofiq Axundov isə bu istiqamətdə hazır bir yol seçmədi, öz bacarığına və iradəsinə güvənərək yeni sahəyə qədəm qoydu. Üstəlik, adi və nisbətən asan öyrədilən heyvanlarla deyil, iri bədən quruluşu, gücü, sərbəst xarakteri və gözlənilməz davranışları ilə seçilən begemotlarla işləməyi qarşısına məqsəd qoydu.

Bu seçim, sadəcə, yeni nömrə hazırlamaq cəhdi deyildi, eyni zamanda dünya sirk sənətində az öyrənilmiş bir istiqamətə də üz tuturdu. Begemotun davranışını anlamaq, onun etimadını qazanmaq, insanla heyvan arasında qarşılıqlı ünsiyyət yaratmaq uzunmüddətli zəhmət və səbir tələb edirdi. Tofiq Axundov heyvanlarla münasibətdə gücə deyil, etimada, gündəlik qayğıya və ardıcıl məşqlərə üstünlük verirdi. O, balaca yaşlarından bəslədiyi begemotlarla tədricən yaxınlıq yaradaraq onların hər birinin xarakterini, davranış xüsusiyyətlərini öyrənirdi. Nəticədə onun adı dünya sirk sənətində begemotlarla qrup halında işləyən ilk təlimçilərdən biri kimi tanındı.

Tofiq Axundovun meymunlarla hazırladığı nömrələr də sənətkarın repertuarında xüsusi yer tutur. Müxtəlif növlərə mənsub meymunların xaltasız tramplinlərdən tullanması, salto-mortale və qrup akrobatik hərəkətləri yerinə yetirməsi onun peşəkarlığının başqa bir göstəricisidir. Belə nömrələr heyvanların təbii davranışlarını öyrənməklə yanaşı, onların hər biri ilə fərdi münasibət qurmağı da tələb edir. Deməli, T.Axundovun sənətində təkcə fiziki hazırlıq deyil, müşahidə qabiliyyəti, səbir və psixoloji yanaşma da mühüm yer tutur.

T.Axundovun hazırladığı "Hipopotamus şousu" müxtəlif ölkələrdə nümayiş etdirilərək geniş tamaşaçı auditoriyasının diqqətini cəlb edib. Avropa və Asiyanın bir çox ölkəsində keçirilən qastrol səfərləri sənətkarın adını beynəlxalq sirk aləmində tanıdıb. Tofiq Axundovun təcrübəsindən keçən begemotların sayı illər ərzində 13-ə çatıb. Bu fakt onun heyvan təlimçiliyi sahəsindəki uzunmüddətli fəaliyyətinin miqyasını aydın göstərir.

Sənətkar 1977-ci ildə "Azərbaycan SSR-in Əməkdar artisti", 1989-cu ildə "Xalq artisti" fəxri adlarına layiq görülüb. Sonralar Rusiya Federasiyasında da sənət xidmətləri yüksək qiymətləndirilərək 2001-ci ildə "Əməkdar artist", 2012-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülüb. Bu təltiflər uzun illər ərzində göstərdiyi fədakarlığın, peşəkar fəaliyyətinin və sirk sənətinə verdiyi töhfələrin rəsmi təsdiqidir.

Tofiq Axundovun həyatında Bakı xüsusi yer tutur. O, dünyanın müxtəlif şəhərlərində çıxış etsə də, doğma şəhərinə bağlılığını heç vaxt gizlətməyib. 2022-ci ildə "Bakı" jurnalına verdiyi müsahibəsində uşaqlıq xatirələrini, qədim Bakının ab-havasını və bu şəhərin onun həyatındakı əhəmiyyətini səmimiyyətlə bölüşüb. Onun sözlərindən aydın olur ki, sənətkarın dünyagörüşündə Bakı doğulduğu məkan deyil, həm də xarakterinin, həyat duyumunun və mənəvi yaddaşının ayrılmaz hissəsidir.

Bu gün Tofiq Axundovun sənət yolu bir sirk artistinin uğurları ilə məhdudlaşmır. Onun fəaliyyəti Azərbaycan sirk məktəbinin beynəlxalq miqyasda tanıdılmasının maraqlı nümunəsidir. O, illərlə formalaşdırdığı təcrübə ilə sübut edib ki, sənətdə yenilik yaratmaq üçün təkcə istedad deyil, cəsarət, zəhmət və başladığın işə sonsuz sədaqət də lazımdır. 2026-cı ildə onun həyat və yaradıcılığına həsr olunmuş "Begemotların atası. Təlimçilik və həyat haqqında hekayə" adlı kitabın təqdimatının keçirilməsi də sənətkarın keçdiyi yolun və topladığı təcrübənin yeni nəsillər üçün maraq doğurduğunu göstərir.

Tofiq Axundovun ömür salnaməsi bir həqiqəti təsdiqləyir - böyük sənətkarlar özlərinə ayrılmış səhnədə çıxış etməklə kifayətlənmirlər, bəzən həmin səhnənin sərhədlərini də dəyişirlər. O, bir vaxtlar akrobatika ilə başladığı sənət yolunda qarşısına çıxan çətinliklərdən çəkinməyərək dünya sirkində özünəməxsus yer qazanıb. Onun adı bu gün həm Azərbaycan, həm də beynəlxalq sirk sənətinin yaddaşında yaşayır. Çünki əsl sənət tamaşaçını heyrətləndirmək deyil, mümkünsüz görünəni mümkün etmək üçün ömür sərf etməkdir.

Elşən QƏNİYEV,
"Azərbaycan"

● Kino tariximiz

Müharibənin qaranlığında yanan vicdan işığı

Bakının dar, daş döşəməli küçələrində külək əsdikcə pəncərə şüşələrinin titrədiyi, çörəyin qramla bölündüyü, lakin qonşuluq və insanlıq dəyərlərinin heç bir tərəziyə sığmadığı illər idi... İkinci Dünya müharibəsinin sərt nəfəsi cəbhədən min kilometrlərlə uzaqda yerləşən bu şəhərin hər bir həyətində, hər bir ocağında hiss olunurdu.



Kişilərin cəbhəyə yollandığı, qadınların və uşaqların isə ağır zəhmətə qatlaşdığı o sınaq dövründə insanların ən böyük imtahanı təkcə aclıq və soyuq deyildi, əsl imtahan mənəviyyatı qoruyub saxlamaq idi. Məhz bu tarixi həqiqətlərin işığında 1969-cu ildə "Azərbaycanfilm" kinostudiyasında ərsəyə gələn "Bizim Cəbiş müəllim" ekran əsəri respublikamızın kino salnaməsinə qızıl hərflərlə yazıldı. Yazıçı Maqsud İbrahimbəyovun "Müharibənin 1001-ci gecəsi" ssenarisi əsasında rejissor Həsən Seyidbəylinin ekranlaşdırdığı bu film üstündən yarım əsrdən çox vaxt keçməsinə baxmayaraq, bu gün də öz təravətini və aktuallığını itirməyib.

Filmin mərkəzində dayanan Cəbiş müəllim obrazı böyük aktyor Süleyman Ələsgərovun təqdimatında təkcə bir məktəb müəllimi deyil, həm də bütöv bir nəslin vicdan rəmzidir. O, kimya fənnini tədris edir, lakin şagirdlərinə və ətrafındakılara həyatın ən ali dəyərini - dürüstlüyü və ləyaqəti aşılayır. Müharibənin gətirdiyi səfalət içərisində ailəsinin ehtiyaclarını qarşılamaq üçün sabun bişirmək məcburiyyətində qalan Cəbiş müəllim bu işi belə alverə çevirməyi özünə sığışdırmır. Onun üçün sabunu satıb pul qazanmaqdansa, insanları təmizliyə, xəstəliklərdən qorunmağa səsləmək daha vacibdir. Həyat yoldaşının (Şəfiqə Məmmədova) haqlı gileyləri ilə özünün sarsılmaz prinsipləri arasında qalan bu ziyalı nə qədər çətin olsa da, düz yolundan dönmür.



Xalq artisti Şəfiqə Məmmədovanın canlandırdığı Cəbiş müəllimin ömür-gün yoldaşı obrazı filmdə idealizm ilə sərt həyat reallıqlarının toqquşma nöqtəsidir. O, pis insan deyil, sadəcə, ac qalan uşaqlarını doyurmağa çalışan, qonşuların nisbətən firavan yaşayışını görüb ərinin həddindən artıq düzlüyünə üsyan edən bir anadır. Onun gileyləri mənfi xüsusiyyət kimi deyil, müharibə dövrünün qadın çiyinlərinə yüklədiyi ağır məsuliyyətin təbii reaksiyası kimi təqdim olunur. Lakin ən kritik məqamlarda o, yenə də ərinin ləyaqətinə hörmətlə yanaşır, onun böyük-kövrək hisslərinə və ümidlərinə toxunan lirik melodiyalara üstünlük verib. Ağ-qara lentdə təsvir olunan aclıq, soyuq və narahatlıq səhnələri fonunda səslənən həzin və səmimi musiqi tamaşaçıda həm kədər, həm də sabaha inam hissi oyadır. Musiqidə köhnə Bakı məhəllələrinin özünəməxsus ruhu, həyətlərdəki səmimiyyət və nostalgiya incə şəkildə hiss olunur.

Filmin ən yaddaqalan və dillər əzbəri olan musiqi parçası Emin Sabitoğlunun bəstələdiyi məşhur valsdır. Bu vals həm kövrək, həm də zərif ritmi ilə Cəbiş müəllimin saf mənəviyyatını və müharibədən əvvəlki dinc, xoşbəxt günlərin xatirəsini simvolizə edir. Bu musiqi parçası zamanla ekrandan ayrılaraq müstəqil konsert nömrəsinə çevrilib, xüsusilə Xalq artisti, qarmon ifaçısı Ənvər Sadıqovun və müxtəlif kamera orkestrlərinin ifasında bu gün də böyük sevgi ilə dinlənilir.

Bu film rejissor Həsən Seyidbəyli ilə bəstəkar Emin Sabitoğlunun kino sahəsindəki ən uğurlu yaradıcı birliklərindən biridir. Bəstəkarın musiqisi kadrların ritmi və aktyorların (xüsusilə Süleyman Ələsgərovun) səssiz mimikaları ilə tam vəhdət təşkil edərək, sözlərin demədiyini melodiyalar vasitəsilə tamaşaçıya çatdırır. 1970-ci ildə Minskdə keçirilən IV Ümumittifaq Kinofestivalında Süleyman Ələsgərovun bu rola görə yüksək aktyor sənətkarlığı diplomuna layiq görülməsi də filmin sənət gücünün beynəlxalq səviyyədə etirafı idi.

Bu gün ekran qarşısına keçib "Bizim Cəbiş müəllim"ə baxarkən, sadəcə, köhnə Bakının mənzərələrini izləmirik. Biz həm də özümüzə sual veririk: ən çətin məqamlarda insanlığımızı, təmiz adımızı necə qoruya bilərik? Cəbiş müəllim isə hər dəfə eyni səssiz təbəssümlə cavab verir ki, zaman dəyişsə də, vicdanın dəyəri heç vaxt ucuzlaşmır.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Əlisəfa Azayevin qələmində "Əlfi Qasımov fenomeni"

Yazıçı-hüquqşünas Əlisəfa Azayev "Əlfi Qasımov fenomeni" kitabında yazıçı Əlfi Qasımovun yaradıcılığından, səmimiyyətindən, alicənablığından ətraflı söhbət açır. Görkəmli yazıçının gələcək nəsillərə nümunə olacaq şərəfli ömür yolu ilə oxucuları yaxından tanış edir. Onun həyatına, yaradıcılığına geniş yol açır.

Kitabı vərəqlədikcə öyrənirik ki, Əlisəfa Azayev yaradıcılığa yenicə başladığı çağlarda Əlfi Qasımov gənc ədibin istedadını görüb məqalələrini və digər yazılarını dərc edib. Məhz yazıçı Əlfi Qasımovun diqqət və qayğısı sayəsində gənc Əlisəfa Azayevin hekayələri "Azərbaycan müəllimi", "Azərbaycan gəncləri" qəzetlərində və "Azərbaycan qadını" jurnallarında işıq üzü görüb.

Kitabın ilk səhifələrində görkəmli ədəbiyyatşünas alim Əkbər Ağayevin "Dostlardan biri" məqaləsinə yer verilib. Alim yazıçı Əlfi Qasımovla bağlı xatirələrini oxucularla bölüşüb, onu yazıçı, insan, dost kimi oxucalara təqdim edib.

"Əlfi Qasımov fenomeni" kitabını vərəqləyən oxucular



yazıçını daha da yaxından tanıyırlar. Kitabın "Azərbaycan Sovet Yazıçıları kitabından: Əlfi Qasımov" bölməsi də maraqla oxunur. Burada yazıçının həyatı oxuculara geniş təqdim olunur.

Haqqında yazılanları oxuduqca böyük ürək sahibi olan Əlfi Qasımovun zamanında insanlara göstərdiyi diqqət və qayğıya, xeyirxahlığa şahidlik edirik. Müəllif "O, əsl insan idi" məqaləsində Əlfi Qasımovun xeyirxahlığını, yaxşılığını dönə-dönə xatırlayır. Ötüb arxada qalan o illərə qayıdan müəllif yazır: "1970-ci ildə yazıçı Əlfi Qasımovun ön sözü ilə mənim "Yeddi il sonra" hekayələr kitabım "Gənclik" nəşriyyatında işıq üzü gördü. Bəlkə də o günlər məndən çox Əlfi Qasımov sevinirdi. O, dəfələrlə üzümə demişdi ki, yaradıcılığıma ümidlə yanaşır, mənimlə fəxr edir. Bunu mənə olan münasibətdən də hiss edirdim..."

Kitabda həmçinin Əlfi Qasımovu zamanında yaxından tanıyan qələm dostlarının xatirələri də geniş yer alıb. Bu xatirələri oxuduqca yazıçı gözlərimiz qarşısında istedadlı və qayğıkeş bir insan kimi canlanır.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

Pakistanda Azərbaycan musiqisinin növbəti uğuru

Azərbaycan muğamı bu dəfə Pakistanın Kəraçi şəhərində - dünyanın müxtəlif guşələrindən sənət adamlarını bir araya gətirən III Dünya Mədəniyyət Festivalında səslənib. Beynəlxalq Muğam Mərkəzinin (BMM) direktoru, Əməkdar artist, tarzən, Özbəkistanın mədəniyyət səfiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Sahib Paşazadə və BMM-nin solisti, Əməkdar artist, nağara ifaçısı, Qarabağ Universitetinin baş müəllimi Kamran Kərimov bu mötəbər sənət platformasında ölkəmizi təmsil ediblər. Muğam Mərkəzindən AZƏRTAC-a bildirilib ki, Dünya Mədəniyyət Festivalının bağlanışı ərəfəsində səhnəyə çıxan azərbaycanlı musiqiçilərin ifası əsl musiqi bayramına çevrilib.



Sahib Paşazadə və Kamran Kərimov bu mötəbər festivala artıq üçüncü dəfə qatılırlar. Bu, Azərbaycan musiqi sənətinə göstərilən beynəlxalq marağın, eləcə də sənətçilərimizin festivalın nüfuzlu iştirakçıları sırasında yer aldığının göstəricisidir. Ötən il Sahib Paşazadə Pakistanın Kəraçi şəhərində keçirilən Dünya Mədəniyyət Festivalında fəxri medala ("İncəsənətə göstərdiyi xidmətlərə görə") layiq görülmüşdü. Medal Əməkdar artistə "Art Council" təşkilatının prezidenti Məhəmməd Əhməd Şah tərəfindən təqdim edilib və tarzən bu mükafata layiq görülən ilk sənətkardır.

Bu il üçüncü dəfə təşkil olunan Dünya Mədəniyyət Festivalı miqyasına və iştirakçı sayına görə diqqətçəkən beynəlxalq sənət hadisəsinə çevrilib. Dünyanın 150 ölkəsindən 1000-dən çox sənət adamının dəvət olunduğu festival musiqi, teatr, rəqs, rəssamlıq, kino və digər yaradıcılıq sahələrini vahid sənət platformasında birləşdirib. Müxtəlif mədəniyyətlərin, ənənələrin və yaradıcılıq üslublarının qovuşduğu bu möhtəşəm tədbir Kəraçini günlər boyu əsl sənət paytaxtına çevirib.

BEYNƏLXALQ HƏYAT

Çin ABŞ-nin yeni gömrük rüsumları planını "siyasi manevr" adlandırdı

Çin ABŞ-nin öz ixracatına qarşı yeni gömrük rüsumları tətbiq etmək ehtimalını "siyasi manevr" kimi dəyərləndirib və iki ölkəni mövcud "ticarət atəşkəsi"ni qorumaq üçün birgə işləməyə çağırıb.



"Bloomberg" Agentliyinin məlumatına görə, bu barədə Çin Xarici İşlər Nazirliyinin sözçüsü Quo Jiakun Pekində keçirilən mətbuat konfransında danışıb. Sənaye sahəsində artıq istehsal gücü ilə bağlı iddiaları "yanlış tezis" adlandıran diplomat bildirib: "Həm Çin, həm də ABŞ dövlət başçıları arasında əldə olunmuş mühüm razılaşmaları həyata keçirmək və Çin-ABŞ iqtisadi-ticarət münasibətlərinin sabit inkişafını qorumaq üçün birgə çalışmalıdırlar".

Qeyd edək ki, bu açıqlama Tramp administrasiyasının Çin, Avropa İttifaqı və daha 10-dan çox iqtisadi subyektdən idxal edilən məhsullara yeni rüsumlar elan etməyə hazırlaşdığı barədə yayılan xəbərlərə cavab olaraq verilib.

ABŞ Yaponiyadan Amerika qoşunlarının saxlanılması xərclərini üç dəfə artırmağı tələb edib

ABŞ Prezidenti Donald Trampın Administrasiyası rəsmi Tokiodan Yaponiyada yerləşən ABŞ qoşunlarının maliyyələşdirilməsinə ayırdığı vəsaiti təxminən üç dəfə artırmağı tələb edib. Vaşinqtonun tələbinə əsasən, bu məbləğ 2027-ci maliyyə ilindən etibarən 5 il ərzində 19 milyard dollar artırılmalıdır.

"Kyodo" Agentliyinin diplomatik mənbələrə istinadən yaydığı məlumata görə, rəsmi Tokio Vaşinqtonun bu tələbini yerinə yetirməyin çətin olduğunu əsas gətirərək 5 il üçün təxminən 1,5 trilyon yen (9,5 milyard dollar) məbləğində təklif verməyi nəzərdən keçirir. Yeni müqavilə 2027-2031-ci maliyyə illərini əhatə edəcək və gələn ilin martında başa çatacaq 1,06 trilyon yenlik (6,7 milyard dollar) mövcud razılaşmanı əvəzləyəcək. Yayda Tokioda başlayan danışıqların növbəti raundunun gələn həftə keçiriləcəyi və tərəflərin ilin sonuna qədər razılığa gəlməyə çalışdığı bildirilir.

Yeni paketə əsasən, ABŞ hərbi obyektlərinin hücumlardan qorunması üçün hər il 300 milyard yendən çox vəsait ayrılmalıdır. Yaponiya bunun üçün bazaların bir hissəsini yerin altına köçürməyi, binaları isə partlayışlara və elektromaqnit hücumlarına qarşı möhkəmləndirməyi planlaşdırır.



Məlumat üçün bildirək ki, ABŞ-nin regiondakı əsas müttəfiqlərindən olan Yaponiyada hazırda 50 mindən çox amerikalı hərbçi və bir sıra hərbi bazalar yerləşir.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

"Azərpoçt" MMC	*(012) 598-49-55, (051) 225-02-13*
"Azərmətbuatyayımı" ASC	*(012) 441-19-91, (050) 322-33-17*
"Qaya" firması	*(012) 566-77-80, (050) 214-40-53*
"Region Press" MMC	*(055) 316-79-01, (050) 316-79-01*
"Səma-M" MMC	*(012) 594-09-59*
"Ziya" LTD	*(012) 497-76-96, (050) 306-77-22*
"Pressinform" MMC	*(012) 598-49-52, (070) 340-01-00*
"City press" MMC	*(055) 819-09-26*

1 illik -156 (yüz əlli altı) **manat**
6 aylıq - 78 (yetmiş səkkiz) **manat**
3 aylıq - 39 (otuz doqquz) **manat**
1 aylıq - 13 (on üç) **manat**


AZƏRBAYCAN
Kəlbəcər Zəfərin işığında yenidən qurulur
Azərbaycan Monteneqroya böyük sərmayələr yatırıb
Xalqlarımız arasında əbədi dostluq və qardaşlıq əlaqələri mövcuddur
Azərbaycançılıq - keçmişimizin mənəvi irsi, bu günümüzün birləşdirici gücü
İpək yolunun bərpası imkanlarının müzakirəsi üçün əhəmiyyətli platforma
TRIPP layihəsi reallığa çevrilir

Hörmətli oxucular!

Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*

"Xaqani Şirvani və İraq" mövzusunda elmi müzakirələr aparıldı

Azərbaycan Prezidenti İlham Əliyevin böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi ilə bağlı sərəncamına uyğun olaraq, noyabrın 25-də "Körpü" Türkman İrsi Araşdırmaları Mərkəzində həmin mərkəzin və AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təşkilatçılığı ilə "Xaqani Şirvani və İraq" mövzusunda elmi müzakirə keçirilib.



Tədbiri giriş sözü ilə açan "Körpü" Türkman İrsi Araşdırmaları Mərkəzinin sədri, filologiya üzrə fəlsəfə doktoru Orxan İsayev Prezident İlham Əliyevin 28 yanvar 2026-cı ildə Böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında imzaladığı sərəncamın əhəmiyyətindən danışdı, il ərzində ölkəmizdə və xaricdə şairin həyat və yaradıcılığına həsr olunmuş tədbirlərə, alimlərin apardığı elmi tədqiqatlara toxundu. Qeyd etdi ki, Xaqani ilə bağlı hələ sovet dövründə ciddi elmi araşdırmalar mövcud idi: "Lakin Prezidentin sərəncamından sonra Xaqani Şirvani irsinə yeni aspektlərdən yanaşmalar müşahidə edildi. Bu gün keçirdiyimiz müzakirə də məhz bu tədbirlər sırasındadır. İraq Xaqani Şirvaninin həyat və yaradıcılığında xüsusi rola malikdir. Təsadüfi deyil ki, mütəfəkkir şairin ən böyük əsərlərindən biri İraqa aiddir və "Töhfətül-İraqeyn" adlanır". Mərkəzin sədri həmçinin Azərbaycan-İraq-türkman ədəbi-mədəni əlaqələrinin yaranmasında Xaqani irsinin mühüm rol oynadığını qeyd etdi.

Daha sonra söz AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlıya verildi. Aygün xanım il ərzində Azərbaycan Milli Elmlər Akademiyasında, o cümlədən Ədəbiyyat İnstitutunda Xaqani Şirvani ilə bağlı aparılan tədqiqatlardan, çap olunan kitablardan, jurnallardan və məqalələrdən danışdı, Prezidentin sərəncamı ilə xaqanişünaslığa yeni nəfəs gəldiyini bildirdi. Alim hələ 2020-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən sənətkarın elmi pasportu seriyasından "Xaqani Şirvani. Həyatı və yaradıcılığı" adlı monoqrafiyanın çap olunduğunu, Prezidentin sərəncamından sonra isə bu istiqamətdə daha geniş tədqiqatların aparıldığını tədbir iştirakçılarının diqqətinə çatdırdı.

Görkəmli alim, professor İmamverdi Həmidov Xaqaninin İraqda keçən illərindən, burada görüşdüyü şəxslərə münasibətindən, yazdığı əsərlərdən söz açdı. İraqın və İraq türkmanlarının Xaqani Şirvaninin həyatında önəmli rol oynadığını vurğuladı.

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, filologiya elmləri doktoru Könül Hacıyeva çıxışında şairin Azərbaycan ədəbiyyatında rolundan danışdı, onun ədəbi məktəbinin sonrakı illər hansı istiqamətdə davam etməsi ilə bağlı dəyərli fikirlərini səsləndirdi.

Filologiya üzrə fəlsəfə doktoru Elnarə Zeynalova Xaqani Şirvaninin ərəbdilli yaradıcılığına toxundu, onun məktubları ilə bağlı bir sıra yeni və maraqlı məlumatlar verdi. Qeyd etdi ki, Xaqaninin ərəbdilli yaradıcılığı və məktubları son illər aparılan elmi tədqiqatlar nəticəsində daha dərindən öyrənilmişdir. Azərbaycan klassik ədəbiyyatında Xaqani Şirvaninin xüsusi rolunun olduğunu söyləyən alim hər dəfə bu istiqamətdə tədqiqatlar apardıqca görkəmli şairin özünəməxsus xüsusiyyətlərinin ön plana çıxdığını qeyd etdi.

Şirvan şəhər B.Aslanov adına 16 nömrəli orta məktəbin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Şəhla Məcidova Xaqani Şirvani yaradıcılığının tədrisi məsələlərindən danışdı, gənclərə klassik irsimizin, xüsusən Xaqani Şirvaninin nəsihətnamələrinin öyrədilməsinin vacibliyini önə çəkdi.

"Körpü" Türkman İrsi Araşdırmaları Mərkəzinin əməkdaşı Şəfəq Ağalarlı Xaqani Şirvani yaradıcılığının mədəniyyətlərarası dialoq çərçivəsində tədqiqinin də önəmli olacağını diqqətə çatdırdı. Bildirdi ki, görkəmli şairin əsərlərində müxtəlif xalqların adət və ənənələrinə, mədəniyyətlərinin müxtəlif sahələrinə aid dəyərli fikirlər çoxdur.

Tədbir maraqlı müzakirələrlə yekunlaşdı.

Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan"

Çempionlar Liqası: "Sabah" Bakıda "Barselona"ya məğlub olub

UEFA Çempionlar Liqasının əsas mərhələsində Bakıda "Sabah" və "Barselona" (İspaniya) komandaları arasındakı V tur oyunu başa çatıb.



AZƏRTAC xəbər verir ki, Bakı Olimpiya Stadionunda keçirilən qarşılaşma Kataloniya klubunun 4:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Hesabı 31-ci dəqiqədə Entoni Qordon açıb. O, 51-ci dəqiqədə dubl edib.

55-ci dəqiqədə Kərim Adeyemi üçüncü qolu vurub. 60-cı dəqiqədə Qabriel Jezus adını tabloya yazdırıb.


63-cü dəqiqədə "Sabah"ın heyətində Coy Lens Mikels fərqi azaldıb.

Hazırda "Barselona" 12 xalla dördüncü pillədə qərarlaşıb.

Azərbaycan təmsilçisi isə 3 xalla 32-ci sıradadır.

Geniş yayılmış virusun Altsheymer xəstəliyinin yaranma riskini artırdığı müəyyən edilib

Dünyada ən geniş yayılmış viruslardan birinə yoluxma Altsheymer xəstəliyinin və demensiyanın digər formalarının yaranma riskini təxminən 50 faiz artıra bilər. Cənubi Kaliforniya Universitetinin Kek Tibb Məktəbinin tədqiqatçıları bu qənaətə gəliblər.



AZƏRTAC xəbər verir ki, meta-analizin nəticələri "Open Forum Infectious Diseases" (OFID) jurnalında dərc olunub.

Alimlər virus infeksiyalarının neyrodegenerativ xəstəliklərlə mümkün əlaqəsinə həsr olunmuş 2178 elmi nəşri araşdırıblar. Mütəxəssislər əsas diqqəti 50 yaşdan aşağı insanların təxminən üçdəikisinin daşıyıcısı olduğu birinci tip herpes simplex virusuna (HSV-1) yönəldiblər.

Təhlil göstərib ki, HSV-1 virusuna yoluxma Altsheymer xəstəliyinin və ya demensiyanın digər formalarının yaranma riskini 48 faiz artırır. İştirakçıların yaşı və ürək-damar xəstəliklərinin olub-olmaması da nəzərə alınmaqla, müxtəlif statistik təhlil metodlarından istifadə edildikdə belə bu qanunauyğunluq dəyişməyib.

Tədqiqatçılar hesab edirlər ki, bu mümkün əlaqə virusun beyinə nüfuz etmək və orqanizmdə uzun müddət qeyri-aktiv vəziyyətdə qalmaq qabiliyyəti ilə izah oluna bilər. Əvvəlki laborator təcrübələr HSV-1 virusunun sinir hüceyrələrində Altsheymer xəstəliyi üçün səciyyəvi olan bəzi prosesləri xatırladan dəyişikliklərə səbəb ola bildiyini göstərib. Bununla belə, infeksiyanın demensiyanın inkişafına mümkün təsirinin dəqiq mexanizmi hələ müəyyən edilməyib.

Müəlliflər əldə olunan nəticələrin herpes virusunun birbaşa demensiyaya səbəb olduğunu sübut etmədiyini vurğulayırlar. Alimlər gələcəkdə virus əleyhinə preparatların və profilaktik vaksinlərin neyrodegenerativ xəstəliklərin yaranma ehtimalını azalda bilib-bilmədiyini araşdırmağı təklif edirlər.

Hava əsasən yağmursuz keçəcək

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.



Lakin axşam bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi axşam şimal-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 5-8° isti, gündüz 11-14° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunundan 769 mm civə sütununa yüksələcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə az yağıntılı olacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3-7° isti, gündüz 14-18° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacaq.

"Şərur" MTK ilə Bayram Yahya oğlu İsmayılov arasında bağlanmış Yasamal rayonu, Əsəd Əhmədov küçəsi 24B ünvanında yerləşən bina 15, mənzil 1788-ə dair 1788 nömrəli müqavilənin əsli itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əzizi

RAİSƏ QULUZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əzizi

RAİSƏ QULUZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadəyə əzizi

RAİSƏ QULUZADƏNİN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı	- 539-68-71,	Beynəlxalq həyat, idman və informasiya şöbəsi	- 539-63-82, 432-37-68
Baş redaktor müavinləri	- 538-86-86, 538-35-55	Humanitar siyasət şöbəsi	- 538-56-60, 434-55-58
Məsul katib	- 539-43-23,	İctimai əlaqələr şöbəsi	- 539-49-20, 538-31-11,
Məsul katib müavinləri	- 539-44-91,	Kompüter mərkəzi	- 538-20-87,
Parlament və siyasət şöbəsi	- 539-84-41, 539-21-00,	Mühasibatlıq	- 539-59-33
İqtisadiyyat şöbəsi	- 538-42-32		

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3320
Sifariş 1543

Qiyməti 60 qəpik